Xalqın qəzeti!

Xalq qəzeti

№ 24 (30993) 7 fevral 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

Azərbaycan lideri: Biz istəyirik ki, bütün dünyada sülh olsun, qan tökülməsin, müharibələr olmasın!

Prezident İlham Əliyev İranın müdafiə və silahlı qüvvələrə dəstək nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əziz Nəsirzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı bir neçə gün əvvəl İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, yüksək səviyyələrdə müxtəlif təmasların ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Məsud Pezeşkianın ötən il Azərbaycana rəsmi səfərinin uğurlu keçdiyini və yaxşı nəticələrin əldə olunduğunu vurğulayan Prezident İlham Əliyev bu səfərdən sonra əlaqələrimizin inkişaf etdiyini bildirdi.

Dövlətimizin başçısı hazırda dünyanın bir çox yerində müharibə və münaqişələrin davam etdiyini vurğulayaraq, Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda artıq sülhün bərqərar olduğunu dedi, bunun həm Azərbaycan, həm də Ermənistanla həmsərhəd olan İran üçün böyük əhəmiyyət daşıdığına əminliyini bildirdi. "Biz istəyirik ki, bütün dünyada sülh olsun, qan tökülməsin, müharibələr olmasın" deyən Azərbaycan Prezidenti ölkəmizin timsalında müharibədən sülhə keçid modelinin nümayiş olunduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, İran Prezidenti ilə telefon danışığı zamanı qeyd etdiyi kimi Azərbaycan bölgədə yaranmış vəziyyətdən narahatdır və bu gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır.

Qəbula görə minnətdarlığını bildirən Əziz Nəsirzadə, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizə İranın dövlət başçısının göstərişi ilə səfərə gəldiyini deyən qonaq Məsud Pezeşkianın Azərbaycana böyük təəssübkeşlik nümayiş etdirdiyini vurğuladı. O, həmçinin qeyd etdi ki, İran Prezidenti ölkəmizə, o cümlədən Xankəndiyə səfərlərini böyük məmnunluq hissi ilə xatırlayır.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin inkişafı qeyd olundu, müdafiə sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRTAC

V.Z.Nəsirlinin Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Zakir oğlu Nəsirli Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2026-cı il

S.Ə.Məmmədovun Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Saleh Ərşad oğlu Məmmədov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2026-cı il

Avropada ikili standartlar labirinti

Səhifə ⇨ 6

Hindistanın "çoxvektorlu" siyasətinin görünməyən tərəfi

Səhifə ⇨ 6

Lavrov–Simonyan təması: Aİ–Aİİ dilemması, yoxsa TRIPP?

Səhifə ⇨ 5

Moskvadan İrəvana mesaj

Səhifə ⇨ 5

İqtisadi tərəfdaşlıq regional sülhün təməlini möhkəmləndirir

Səhifə ⇨ 6

Paytaxtda su qıtlığı yoxdur

Səhifə ⇨ 9

Media (necə) idrak etməlidir

Jurnalist fəaliyyəti və uşaqlardan müsahibə barədə

Azərbaycan Mətbuat Şurası "İdrak" liseyində baş vermiş insident xüsusunda media mənsublarının hadisə ilə bağlı bu təhsil ocağı şagirdlərindən açıqlama alma və yayma üsullarını yolverilməz sayıb. Şuranın açıqlamasında bildirilib ki, sözügedən təqdimatlar "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"na tamamilə ziddir.

Qaydaların "Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı" adlı 3-cü prinsipinin 3.9-cu bəndində bildirilir ki, "jurnalist uşaqların məsumluğu və inamından sui-istifadə etməməli, hüquqlarına hörmətlə yanaşmalı, onların fikirlərinin çatdırılması ilə bağlı xüsusi məsuliyyət nümayiş etdirməli, valideyinlərinin və ya qanuni himayəçilərinin icazəsi olmadan uşaqlardan müsahibə götürməməyə səy göstərməlidir". Bəli, jurnalistlərin cəmiyyətdə təlaş yaratmış hadisə ilə bağlı "İdrak" liseyinin şagirdlərindən açıqlama alıb yayımlamaları, ilk növbədə, uşaqların psixoloji təhlükəsizliyini riskə atır. Müvafiq olaraq o da nəzərə alınmır ki, onların hadisəyə obyektiv qiymət vermək imkanları aşağıdır. Yəni, uşaqlardan götürülmüş müsahibə cəmiyyətin yanlış yönləndirilməsi deməkdir.

"Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"nda həmçinin bildirilir ki, "daha vacib ictimai əhəmiyyət kəsb edən maraqların mövcud olduğu hallar istisna olmaqla, jurnalist uşaqların şəxsi həyatı barədə məlumatları və ya fotoşəkilləri dərc etməməlidir. Jurnalist faciə və ya cinayət əməli nəticəsində zərər çəkmiş, yaxud belə hadisələrə cəlb edilmiş uşaqların kimliyini mütləq qorumalıdır". Mətbuat Şurası təəssüf hissi ilə bildirib ki, "İdrak" liseyindəki insidentlə bağlı qurumun üzərində dayandığı təqdimatda buna riayət edilmədi.

(ardı 4-cü səhifədə)

Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parkları haqqında əsasnamələrin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin beşinci hissəsinə uyğun olaraq **qərara alıram:**

1 "Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

2. "Azərbaycan Respublikasının İlisu Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

3 Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2026-cı il

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı haqqında

ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı (bundan sonra – Milli Park) xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin (ağıriyli ardıc, saqqızağacı, ağ qovaq, Şərq palıdı, Eldar armudu, Qafqaz xarıbülbülü, nöqtəli səhləb, Eyxler dağlaləsi, şoranyer qarğasoğanı, gürcü süsəni, bəbir, Avropa vaşağı, çölpişiyi, zolaqlı kaftar, qonur ayı, çay samuru, safsar, ceyran, imperator qartalı, qara kərkəs, ağbaş kərkəs, ilanyeyən qartal, çay qaraquşu, ağquyruq dəniz qartalı, qara leylək, çöl qartalı, böyük xallı qartal və s.) qorunub saxlanılmasını, ətraf mühitin dayanıqlı idarə olunması ilə yanaşı, sosial-iqtisadi imkanların artırılmasını, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyasını və regionda ekoturizmin inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 664 nömrəli Sərəncamı ilə Samux, Yevlax və Qax rayonlarının inzibati ərazilərində yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, bioloji, elmi, tarixi, mədəni və estetik əhəmiyyətə malik təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, dövlət tərəfindən qorunan xüsusi mühafizə olunan təbiət ərazisidir. Milli Parkın idarə edilməsi, mühafizəsi və orada elmi fəaliyyətin təşkili bu məqsədlə yaradılmış idarə (bundan sonra – İdarə) vasitəsilə həyata keçirilir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) normativ hüquqi aktlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir. Həmin ərazidəki torpaq, su, bitki və heyvanlar aləmi Milli Parkın daimi istifadəsinə verilir.

1.5. Milli Parkın ərazisində onun məqsədli təyinatına və mühafizə rejiminə zidd olmayan fəaliyyət növləri İdarə ilə hüquqi və fiziki şəxslər arasında bağlanılmış, dövlət ekoloji ekspertizasından keçirilmiş müqavilələr əsasında yerinə yetirilir.

1.6. Milli Park ərazisinin kənar antropogen təsirlərdən qorunması məqsədilə sanitariya-mühafizə zonası yaradılır. Sanitariya-mühafizə zonasının yaradılması və mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – Qanun) uyğun olaraq müəyyən edilir.

1.7. İdarə dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaiti və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. İdarənin xüsusi fondunun formalaşdırılması və istifadəsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

1.9. Milli Parkın pasportu Nazirlik tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququnun qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər və digər zəruri məlumatlar əks etdirilir. Pasport Nazirlikdə dövlət qeydiyyatına alınmaqla İdarədə saxlanılır.

1.10. Milli Parkda təbiət qoruğu fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.11. İdarənin müstəqil balansı, Nazirlik tərəfindən verilən dövlət mülkiyyətində olan əmlakı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və Milli Parkın adı həkk edilmiş möhürü, müvafiq blank və ştampları, xəzinə və bank hesabları, bayraq və emblemi vardır.

2. Milli Parkın yaradılmasının məqsədləri

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.1.1. təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.1.2. turizm və rekreasiya üçün şərait yaratmaq;

2.1.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.1.4. əhalini ekoloji cəhətdən maarifləndirmək;

2.1.5. ekoloji monitorinqi həyata keçirmək;

2.1.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

3. Milli Parkın xüsusi mühafizə rejiminin xüsusiyyətləri

3.1. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxsin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

3.2. Milli Park ərazisinin fiziki və hüquqi şəxslərin idarəçiliyinə, icarəsinə və ya mülkiyyətinə verilməsi qadağandır.

3.3. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.3.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.3.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.3.3. turizm və rekreasiya zonaları;

3.3.4. turistlərə, elm və maarifləndirmə işləri ilə məşğul olan şəxslərə xidmət göstərilən zonalar;

3.3.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.4. Milli Park ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonalarına bölgüsü Nazirliyin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

3.5. Milli Parkın turizm və rekreasiya zonalarında turizm və rekreasiya məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, balıq və digər su bioresurslarının idman və həvəskar ovu və s.) yol verilir.

3.6. Milli Parkda elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilir.

3.7. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

3.7.1. təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

3.7.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

3.7.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

3.7.4. kimya sənayesi, metallurgiya, nüvə energetikası və xüsusi ekoloji təhlükə yaradan digər müəssisələrin fəaliyyəti;

3.7.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru və elektrik xətlərinin çəkilməsi və digər kommunikasiyaların tikintisi;

3.7.6. müəyyən olunmuş yerlərdən kənarda dayanacaqların təşkili, çadırlar qurulması və tonqal qalanması;

3.7.7. müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənarda mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanması, ev heyvanlarının keçirilməsi;

3.7.8. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası;

3.7.9. meşələrdə ağacların istifadə üçün qırılması.

3.8. Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunla müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırılır və ya qadağan edilir.

4. Milli Parkın mühafizəsi

4.1. Milli Parkın mühafizəsini onun mühafizə xidməti həyata keçirir. Bu işə Milli Parkın direktoru və direktorun mühafizə işləri üzrə müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər. Milli Parkın mühafizəsi müqavilə əsasında digər ixtisaslaşmış quruma həvalə edilə bilər.

4.2. Milli Parkın mühafizəsini həyata keçirən vəzifəli şəxslər xidməti vəzifələrini yerinə yetirərkən üzərində fərqləndirici nişan olan xüsusi forma geyinirlər. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmin şəxslərə xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

4.3. Milli Parkın mühafizə xidməti işçilərinin vəzifələri aşağıdakılardır:

4.3.1. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə rejimini pozanların sənədlərini yoxlamaq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 92–94-cü maddələrinə uyğun olaraq nəqliyyat vasitələrinə baxış keçirmək, sübut üçün əhəmiyyətli olan əşyaları və sənədləri götürmək, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin aşkar edilməsi məqsədilə şəxsi axtarış həyata keçirmək və əşyaları (o cümlədən ov və balıq ovu alətlərini, əldə olunmuş ov məhsullarını) yoxlamaq;

4.3.2. fiziki və hüquqi şəxslərin Milli Parkın ərazisində və onun mühafizə zonasında Qanunun tələblərinə və mühafizə rejiminə zidd olan fəaliyyətini dayandırmaq;

4.3.3. Milli Parkın ərazisində və onun mühafizə zonasında xüsusi mühafizə rejimini pozan şəxslər barəsində hüquq mühafizə orqanlarına məlumat vermək;

4.3.4. Milli Parkın ərazisindən istifadə qaydalarının, həmin ərazinin mühafizə rejiminin pozulmasına görə inzibati xəta haqqında protokol tərtib etmək;

4.3.5. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq məqsədilə icrası məcburi olan göstərişlər vermək.

4.4. Milli Parkın mühafizə rejiminin pozulmasına görə qanunla nəzərdə tutulmuş hallarda məsuliyyət tədbirləri tətbiq edilir.

4.5. Milli Parka vurulmuş zərər təqsirkar şəxslər tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ətraf mühitin mühafizəsi ilə bağlı normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada ödənilir.

5. Milli Parkda elmi tədqiqat fəaliyyəti

5.1. Milli Parkda elmi tədqiqat fəaliyyəti ekoloji vəziyyətin qiymətləndirilməsinə və proqnozlaşdırılmasına, səciyyəvi və nadir təbiət komplekslərinin, o cümlədən biomüxtəlifliyin elmi cəhətdən əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

5.2. Milli Parkda elmi tədqiqat fəaliyyətini İdarənin strukturuna daxil olan elm bölməsi (şöbəsi) həyata keçirir.

5.3. Milli Parkda elmi tədqiqatlara kənar elmi müəssisə və təşkilatların, habelə mütəxəssislərin cəlb edilməsinə İdarə ilə bağlanılmış müqavilə əsasında yol verilir. Bu halda elmi tədqiqatların aparılması Milli Parkın mühafizə rejiminin tələblərinə və normativ hüquqi aktlara uyğun təmin edilir.

5.4. Milli Parkda elmi tədqiqat, mədəni-maarif və tədris tədbirlərinin həyata keçirilməsi, habelə ekoloji maarifləndirmə işinin təşkili məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir. Şuraya Milli Parkın direktoru rəhbərlik edir.

5.5. Milli Parkın elmi və herbari fondları yaradılır, onların uçotu aparılır və onlar daimi saxlanılır.

5.6. Milli Parkda aparılan elmi tədqiqat işlərində əldə edilmiş nəticələrdən aşağıdakı məqsədlər üçün istifadə olunur:

5.6.1. heyvan və bitki ehtiyatlarının qorunması, artırılması və onlardan səmərəli istifadə üzrə elmi əsasların işlənib hazırlanması, habelə vəhşi heyvanların sayı optimal normadan artıq olduğu hallarda, müvafiq növlərin baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsi ilə bağlı elmi əsaslandırmanın hazırlanması;

5.6.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirlərin, həmçinin təbiət kompleksləri komponentlərinin məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarının işlənib hazırlanması;

5.6.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədləri üçün istifadənin ekoloji səmərəliliyinin qiymətləndirilməsi və nəticələrin ümumiləşdirilməsi;

5.6.4. ziyanvericilərə və alaq otlarına qarşı mübarizədə ilk növbədə bioloji metodların tətbiqi üzrə elmi-metodiki tövsiyələrin hazırlanması;

5.6.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, faunada və florada baş verən dəyişikliklərin səbəblərinin öyrənilməsi və proqnozlaşdırılması;

5.6.6. təbiətdə cərəyan edən proseslər barədə faktiki materialların sistemləşdirilməsi və elmi biliklərin zənginləşdirilməsi;

5.6.7. Milli Parkın hüdudlarından kənar ərazilərdə tətbiq edilə bilən bioekoloji metodların işlənib hazırlanması.

5.7. Elmi tədqiqatların aparılması metodları Milli Parkın mühafizə rejiminin tələblərinə zidd olmamalıdır. Elmi tədqiqat işlərinin nəticələrinin tətbiqi Milli Parkın fəaliyyət planları və normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla həyata keçirilir.

5.8. Milli Parkda elmi tədqiqat işləri və elmi-texniki tədbirlər Nazirlik tərəfindən təsdiq edilmiş illik planlar əsasında həyata keçirilir. Bu sahədə əməkdaşlıq Nazirliyin müəyyən etdiyi qaydada müvafiq profilli elmi müəssisə və təşkilatlar, habelə ali təhsil müəssisələri ilə bağlanılmış müqavilələr əsasında həyata keçirilir.

6. Milli Parkda təsərrüfat fəaliyyəti

6.1. Milli Parkda təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin mühafizəsi, saxlanılması və bərpasından, habelə təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir və Milli Parkın mühafizə rejiminin tələblərinə uyğun olaraq İdarə tərəfindən həyata keçirilir.

6.2. Milli Parkın turizm və rekreasiya zonalarında, habelə turistlərə, elmi və maarifləndirmə fəaliyyəti ilə məşğul olan şəxslərə xidmət göstərilən zonalarda yerləşən binalar, qurğular turizmin və təbiətdə istirahətin inkişafı məqsədilə fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə yalnız İdarə ilə bağlanılmış müqavilələr əsasında verilə bilər.

6.3. Bu Əsasnamənin 6.2-ci bəndində nəzərdə tutulan zonalarda mehmanxanaların (hotellərin), mehmanxana tipli obyektlərin və turistlərin müvəqqəti yaşayışı üçün nəzərdə tutulmuş digər yerləşmə vasitələrinin tikintisi, yenidən qurulması və istifadəsi, habelə əhalinin istirahəti məqsədilə əsaslı tikinti və ya ətraf mühitə əhəmiyyətli təsir göstərə bilən digər şəraitin yaradılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, Qanuna, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İdarə ilə fiziki və hüquqi şəxslər arasında bağlanılmış və dövlət ekoloji ekspertizasından keçirilmiş müqavilələr əsasında təmin olunur. Ətraf mühitə əhəmiyyətli təsir göstərməyən, tikinti aparılmasını nəzərdə tutmayan, müvəqqəti və ya mövsümi xarakter daşıyan istirahət və rekreasiya fəaliyyəti isə İdarə ilə bağlanılmış müqavilə və ya verilmiş icazə əsasında, dövlət ekoloji ekspertizası tələb olunmadan, lakin ekoloji tələblərə riayət edilməklə həyata keçirilir.

6.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələndirilməsi üzrə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

6.5. Bu Əsasnamənin 6.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğuların və avadanlığın dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Nazirlik tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq dəyişiklik edilir.

6.6. Bu Əsasnamənin 6.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

6.7. Bu Əsasnamənin 6.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həll olunur.

6.8. Milli Parkın təsərrüfat-istehsalat zonalarında yerləşən binalar, qurğular və digər infrastruktur obyektləri Milli Parkın fəaliyyətinin təmin edilməsi, idarə olunması, mühafizəsi, elmi tədqiqat, maarifləndirmə, texniki və xidmət məqsədləri üçün, habelə Milli Parkın mühafizə rejiminə zidd olmayan məhdud təsərrüfat fəaliyyətinin həyata keçirilməsi məqsədilə fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə yalnız İdarə ilə bağlanılmış müqavilələr əsasında verilə bilər.

7. Milli Parkın mühafizəsinə, qorunmasına və istifadəsinə dövlət nəzarəti

Milli Parkın vəziyyətinə, onun mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin icrasına, normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Nazirlik həyata keçirir.

8. Milli Parkın fəaliyyətinin təşkili

8.1. Milli Parkın idarə edilməsi, mühafizəsi və orada elmi fəaliyyətin təşkili məqsədilə Nazirlik tərəfindən İdarə yaradılır. İdarənin əsasnaməsi, strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

8.2. Milli Parka, habelə İdarəyə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor (bundan sonra – direktor) rəhbərlik edir. Direktor Milli Parkın və İdarənin fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

8.3. Direktorun Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 2 (iki) müavini vardır. Direktorun müavinləri direktor tərəfindən onlara həvalə edilmiş vəzifələrin icrasına görə cavabdehdirlər. Direktor müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə müavinlərindən biri əvəz edir.

8.4. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

8.4.1. Milli Parkın və İdarənin işinə ümumi rəhbərliyi həyata keçirir və onların fəaliyyətində normativ hüquqi aktların tələblərinə əməl olunmasını təmin edir;

8.4.2. təbiəti mühafizə, elmi tədqiqat planlarının və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, təsdiq edildikdən sonra onların yerinə yetirilməsini təmin edir;

8.4.3. Milli Parkda elmi tədqiqat işlərinin tematik planı əsasında elmi işçilərin iş planlarını təsdiq edir;

8.4.4. Milli Parkda elmi tədqiqat işləri üzrə planların, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında struktur bölmələrinin və ayrı-ayrı işçilərin hesabatlarını dinləyir;

8.4.5. İdarənin ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların əlavə təhsili istiqamətində normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada tədbirlər görür;

8.4.6. Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə maliyyə və statistik hesabatları aidiyyəti üzrə təqdim edir;

8.4.7. Milli Parkın maddi-texniki təminatı ilə bağlı tədbirləri təşkil edir;

8.4.8. Milli Parkı və İdarəni təmsil edir, İdarə adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

8.4.9. Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir;

8.4.10. İdarənin işçilərini (direktor müavinləri istisna olmaqla) vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

8.4.11. Milli Parkın və İdarənin fəaliyyəti ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir.

8.5. İdarənin işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə xidmətinin işçilərinə kömək edirlər.

8.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən ödənişli istifadə Qanuna uyğun olaraq tətbiq edilir.

8.7. Milli Parkın fəaliyyəti, mühafizəsi və inkişafı ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İdarə tərəfindən baxılır və nəticəsi barədə müraciət müəllifinə yazılı, o cümlədən elektron qaydada məlumat verilir.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasının İlisu Milli Parkı haqqında ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İlisu Milli Parkı (bundan sonra – Milli Park) xüsusi mühafizə olunan təbiət ərazisi şəbəkəsinin genişləndirilməsini, biomüxtəlifliyin (Şərq fıstığı, Şərq palıdı, Qafqaz vələsi, trautfetter ağcaqayını, Litvinov tozağacısı, giləmeyvəli qaraçöhrə, Qafqaz quşarmudu, Qafqaz xirniyi, mozalan quşsəhləbi, sarıçiçək səhləb, satirvari steveniella, Avropa vaşağı, qonur ayı, Avropa cüyürü, Qafqaz köpgəri, Şərqi Qafqaz turu, Qafqaz nəcib maralı, Qafqaz tetrası, Qafqaz uları, bərqud, saqqallı kərkəs və s.) qorunub saxlanılmasını, ətraf mühitin dayanıqlı idarə olunmasını, habelə sosial-iqtisadi imkanların artırılmasını, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyasını və regionda ekoturizmin inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 664 nömrəli Sərəncamı ilə Zaqatala və Qax rayonlarının inzibati ərazilərində yaradılmışdır.

1.2. Milli Park xüsusi ekoloji, bioloji, elmi, tarixi, mədəni və estetik əhəmiyyətə malik təbiət komplekslərinin və obyektlərinin yerləşdiyi, dövlət tərəfindən qorunan xüsusi mühafizə olunan təbiət ərazisidir. Milli Parkın idarə edilməsi, mühafizəsi və orada elmi fəaliyyətin təşkili bu məqsədlə yaradılmış idarə (bundan sonra – İdarə) vasitəsilə həyata keçirilir.

1.3. Milli Park öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) normativ hüquqi aktlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir. Həmin ərazidə yerləşən torpaq, su, bitki və heyvanlar aləmi Milli Parkın daimi istifadəsinə verilir.

1.5. Milli Parkın ərazisində onun məqsədli təyinatına və mühafizə rejiminə zidd olmayan fəaliyyət növləri İdarə ilə hüquqi və fiziki şəxslər arasında bağlanılmış, dövlət ekoloji ekspertizasından keçirilmiş müqavilələr əsasında yerinə yetirilir.

1.6. Milli Park ərazisinin kənar antropogen təsirlərdən qorunması məqsədilə sanitariya-mühafizə zonası yaradılır. Sanitariya-mühafizə zonasının yaradılması və həmin zonada mühafizə rejimi "Xüsusi mühafizə olunan təbiət ərazisi və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – Qanun) uyğun olaraq müəyyən edilir.

1.7. İdarə dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaiti və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. İdarənin xüsusi fondunun formalaşdırılması və istifadəsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

1.9. Milli Parkın pasportu Nazirlik tərəfindən hazırlanır. Pasportda Milli Parkın əhəmiyyəti, adı, yerləşdiyi yer, yaranma tarixi, torpaqdan daimi istifadə hüququnun qeydiyyat nömrəsi və tarixi, mühafizə olunan ərazinin xüsusiyyətləri, onun ümumi görünüşünün sxemi, qorunan nadir fauna və flora növləri, fəaliyyət prosesində aparılan dəyişikliklər barədə qeydlər və digər zəruri məlumatlar əks etdirilir. Pasport Nazirlikdə dövlət qeydiyyatına alınmaqla İdarədə saxlanılır.

1.10. Milli Parkda təbiət qoruğu fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazinin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

1.11. İdarənin müstəqil balansı, Nazirlik tərəfindən verilən dövlət mülkiyyətində olan əmlakı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və Milli Parkın adı həkk edilmiş möhürü, müvafiq blank və ştampları, xəzinə və bank hesabları, bayraq və emblemi vardır.

2. Milli Parkın yaradılmasının məqsədləri

2.1. Milli Parkın yaradılmasının məqsədləri aşağıdakılardır:

2.1.1. təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.1.2. turizm və rekreasiya üçün şərait yaratmaq;

2.1.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.1.4. əhalini ekoloji cəhətdən maarifləndirmək;

2.1.5. ekoloji monitorinqi həyata keçirmək;

2.1.6. zədələnmiş təbiət, tarix-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

3. Milli Parkın xüsusi mühafizə rejiminin xüsusiyyətləri

3.1. Milli Parkın ərazisi və obyektləri hər hansı fiziki və ya hüquqi şəxsin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

3.2. Milli Park ərazisinin fiziki və hüquqi şəxslərin idarəçiliyinə, icarəsinə və ya mülkiyyətinə verilməsi qadağandır.

3.3. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

3.3.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.3.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.3.3. turizm və rekreasiya zonaları;

3.3.4. turistlərə, elm və maarifləndirmə işləri ilə məşğul olan şəxslərə xidmət göstərilən zonalar;

3.3.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.4. Milli Park ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonalarına bölgüsü Nazirliyin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

3.5. Milli Parkın turizm və rekreasiya zonalarında turizm və rekreasiya məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, balıq və digər su bioresurslarının idman və həvəskar ovu və s.) yol verilir.

3.6. Milli Parkda elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilir.

3.7. Milli Parkın ərazisində aşağıdakılar qadağan edilir:

3.7.1. təbiət komplekslərinə və tarix-mədəniyyət obyektlərinin varlığına təhlükə yaradan hər bir fəaliyyət;

3.7.2. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

3.7.3. hidroloji rejimin dəyişməsinə səbəb olan işlərin aparılması;

3.7.4. kimya sənayesi, metallurgiya, nüvə energetikası və xüsusi ekoloji təhlükə yaradan digər müəssisələrin fəaliyyəti;

3.7.5. Milli Parkın fəaliyyəti ilə bağlı olmayan magistral yolların, boru və elektrik xətlərinin çəkilməsi və digər kommunikasiyaların tikintisi;

3.7.6. müəyyən olunmuş yerlərdən kənarda dayanacaqların təşkili, çadırlar qurulması və tonqal qalanması;

3.7.7. müəyyən olunmuş yerlərdən və ümumi istifadə olunan quru və su yollarından kənarda mexaniki nəqliyyat vasitələrinin hərəkəti və dayanması, ev heyvanlarının keçirilməsi;

3.7.8. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası;

3.7.9. meşələrdə ağacların istifadə üçün qırılması.

3.8. Milli Parkın ərazisində ekoloji, elmi, estetik, mədəni və rekreasiya dəyərini aşağı sala bilən digər fəaliyyət növləri qanunla müəyyən edilmiş hallarda və qaydada məhdudlaşdırılır və ya qadağan edilir.

4. Milli Parkın mühafizəsi

4.1. Milli Parkın mühafizəsini onun mühafizə xidməti həyata keçirir. Bu işə Milli Parkın direktoru və direktorun mühafizə işləri üzrə müavini öz səlahiyyətləri daxilində rəhbərlik edirlər. Milli Parkın mühafizəsi müqavilə əsasında digər ixtisaslaşmış quruma həvalə edilə bilər.

4.2. Milli Parkın mühafizəsini həyata keçirən vəzifəli şəxslər xidməti vəzifələrini yerinə yetirərkən üzərində fərqləndirici nişan olan xüsusi forma geyinirlər. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmin şəxslərə xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir.

4.3. Milli Parkın mühafizə xidməti işçilərinin vəzifələri aşağıdakılardır:

4.3.1. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə rejimini pozanların sənədlərini yoxlamaq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 92−94-cü maddələrinə uyğun olaraq nəqliyyat vasitələrinə baxış keçirmək, sübut üçün əhəmiyyətli olan əşyaları və sənədləri götürmək, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin aşkar edilməsi məqsədilə şəxsi axtarış həyata keçirmək və əşyaları (o cümlədən ov və balıq ovu alətlərini, əldə olunmuş ov məhsullarını) yoxlamaq;

4.3.2. fiziki və hüquqi şəxslərin Milli Parkın ərazisində və onun mühafizə zonasında Qanunun tələblərinə və mühafizə rejiminə zidd olan fəaliyyətini dayandırmaq;

4.3.3. Milli Parkın ərazisində və onun mühafizə zonasında xüsusi mühafizə rejimini pozan şəxslər barəsində hüquq mühafizə orqanlarına məlumat vermək;

4.3.4. Milli Parkın ərazisindən istifadə qaydalarının, həmin ərazinin mühafizə rejiminin pozulmasına görə inzibati xəta haqqında protokol tərtib etmək;

4.3.5. Milli Parkın ərazisində və onun mühafizə zonasında mühafizə və istifadə sahəsində pozuntu hallarını aradan qaldırmaq məqsədilə icrası məcburi olan göstərişlər vermək.

4.4. Milli Parkın mühafizə rejiminin pozulmasına görə qanunla nəzərdə tutulmuş hallarda məsuliyyət tədbirləri tətbiq edilir.

4.5. Milli Parka vurulmuş zərər təqsirkar şəxslər tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ətraf mühitin mühafizəsi ilə bağlı normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada ödənilir.

5. Milli Parkda elmi tədqiqat fəaliyyəti

5.1. Milli Parkda elmi tədqiqat fəaliyyəti ekoloji vəziyyətin qiymətləndirilməsinə və proqnozlaşdırılmasına, səciyyəvi və nadir təbiət komplekslərinin, o cümlədən biomüxtəlifliyin elmi cəhətdən əsaslandırılmış üsullarla qorunmasına yönəldilir.

5.2. Milli Parkda elmi tədqiqat fəaliyyətini İdarənin strukturuna daxil olan elm bölməsi (şöbəsi) həyata keçirir.

5.3. Milli Parkda elmi tədqiqatlara kənar elmi müəssisə və təşkilatların, habelə mütəxəssislərin cəlb edilməsinə İdarə ilə bağlanılmış müqavilə əsasında yol verilir. Bu halda elmi tədqiqatların aparılması Milli Parkın mühafizə rejiminin tələblərinə və normativ hüquqi aktlara uyğun təmin edilir.

5.4. Milli Parkda elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirlərinin həyata keçirilməsi, habelə ekoloji maarifləndirmə işinin təşkili məqsədilə Şura yaradıla bilər. Şuranın tərkibi və əsasnaməsi Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir. Şuraya Milli Parkın direktoru rəhbərlik edir.

5.5. Milli Parkın elmi və herbari fondları yaradılır, onların uçotu aparılır və onlar daimi saxlanılır.

5.6. Milli Parkda aparılan elmi tədqiqat işlərində əldə edilmiş nəticələrdən aşağıdakı məqsədlər üçün istifadə olunur:

5.6.1. heyvan və bitki ehtiyatlarının qorunması, artırılması və onlardan səmərəli istifadə üzrə elmi əsasların işlənib hazırlanması, habelə vəhşi heyvanların sayı optimal normadan artıq olduğu hallarda müvafiq növlərin baytarlıq-sanitariya tələblərinə uyğun olaraq köçürülməsi ilə bağlı elmi əsaslandırmanın hazırlanması;

5.6.2. Milli Parkın ərazisində təbiət komplekslərinin təbii halda saxlanılmasını təmin edən tədbirlərin, həmçinin təbiət komplekslərinin komponentlərinin məhsuldarlığının qiymətləndirilməsi və yüksəldilməsi metodlarının işlənib hazırlanması;

5.6.3. Milli Parka bitişik ərazilərdə təbii ehtiyatlardan təsərrüfat məqsədləri üçün istifadənin ekoloji səmərəliliyinin qiymətləndirilməsi və nəticələrin ümumiləşdirilməsi;

5.6.4. ziyanvericilərə və alaq otlarına qarşı mübarizədə ilk növbədə bioloji metodların tətbiqi üzrə elmi-metodiki tövsiyələrin hazırlanması;

5.6.5. su rejimində, torpağın və bitki örtüyünün xassələrində, faunada və florada baş verən dəyişikliklərin səbəblərinin öyrənilməsi və proqnozlaşdırılması;

5.6.6. təbiətdə cərəyan edən proseslər barədə faktiki materialların sistemləşdirilməsi və elmi biliklərin zənginləşdirilməsi;

5.6.7. Milli Parkın hüdudlarından kənar ərazilərdə tətbiq edilə bilən bioekoloji metodların işlənib hazırlanması.

5.7. Elmi tədqiqatların aparılması metodları Milli Parkın mühafizə rejiminin tələblərinə zidd olmamalıdır. Elmi tədqiqat işlərinin nəticələrinin tətbiqi Milli Parkın fəaliyyət planları və normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla həyata keçirilir.

5.8. Milli Parkda elmi tədqiqat işləri və elmi-texniki tədbirlər Nazirlik tərəfindən təsdiq edilmiş illik planlar əsasında həyata keçirilir. Bu sahədə əməkdaşlıq Nazirliyin müəyyən etdiyi qaydada müvafiq profilli elmi müəssisə və təşkilatlar, habelə ali təhsil müəssisələri ilə bağlanılmış müqavilələr əsasında həyata keçirilir.

6. Milli Parkda təsərrüfat fəaliyyəti

6.1. Milli Parkda təsərrüfat fəaliyyəti təbiət və tarix-mədəniyyət obyektlərinin mühafizəsi, saxlanılması və bərpasından, habelə təbiətdə idarə olunan istirahət və turizm tədbirlərinin təşkilindən ibarətdir və Milli Parkın mühafizə rejiminin tələblərinə uyğun olaraq İdarə tərəfindən həyata keçirilir.

6.2. Milli Parkın turizm və rekreasiya zonalarında, habelə turistlərə, elmi və maarifləndirmə fəaliyyəti ilə məşğul olan şəxslərə xidmət göstərilən zonalarda yerləşən binalar, qurğular turizmin və təbiətdə istirahətin inkişafı məqsədilə fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə yalnız İdarə ilə bağlanılmış müqavilələr əsasında verilə bilər.

6.3. Bu Əsasnamənin 6.2-ci bəndində nəzərdə tutulan zonalarda mehmanxanaların (hotellərin), mehmanxana tipli obyektlərin və turistlərin müvəqqəti yaşayışı üçün nəzərdə tutulmuş digər yerləşmə vasitələrinin tikintisi, yenidən qurulması və istifadəsi, habelə əhalinin istirahəti məqsədilə əsaslı tikinti və ya ətraf mühitə əhəmiyyətli təsir göstərə bilən digər şəraitin yaradılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, Qanuna, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İdarə ilə fiziki və hüquqi şəxslər arasında bağlanılmış və dövlət ekoloji ekspertizasından keçirilmiş müqavilələr əsasında təmin olunur. Ətraf mühitə əhəmiyyətli təsir göstərməyən, tikinti aparılmasını nəzərdə tutmayan, müvəqqəti və ya mövsümi xarakter daşıyan istirahət və rekreasiya fəaliyyəti isə İdarə ilə bağlanılmış müqavilə və ya verilmiş icazə əsasında, dövlət ekoloji ekspertizası tələb olunmadan, lakin ekoloji tələblərə riayət edilməklə həyata keçirilir.

6.4. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələndirilməsi üzrə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

6.5. Bu Əsasnamənin 6.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğuların və avadanlığın dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair Nazirlik tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq dəyişiklik edilir.

6.6. Bu Əsasnamənin 6.4-cü bəndində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

6.7. Bu Əsasnamənin 6.4-cü bəndində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həll olunur.

6.8. Milli Parkın təsərrüfat-istehsalat zonalarında yerləşən binalar, qurğular və digər infrastruktur obyektləri Milli Parkın fəaliyyətinin təmin edilməsi, idarə olunması, mühafizəsi, elmi tədqiqat, maarifləndirmə, texniki və xidmət məqsədləri üçün, habelə Milli Parkın mühafizə rejiminə zidd olmayan məhdud təsərrüfat fəaliyyətinin həyata keçirilməsi məqsədilə fiziki və hüquqi şəxslərə icarəyə və ya istifadəyə yalnız İdarə ilə bağlanılmış müqavilələr əsasında verilə bilər.

7. Milli Parkın mühafizəsinə, qorunmasına və istifadəsinə dövlət nəzarəti

Milli Parkın vəziyyətinə, onun mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin icrasına, normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini Nazirlik həyata keçirir.

8. Milli Parkın fəaliyyətinin təşkili

8.1. Milli Parkın idarə edilməsi, mühafizəsi və orada elmi fəaliyyətin təşkili məqsədilə Nazirlik tərəfindən İdarə yaradılır. İdarənin əsasnaməsi, strukturu, ştat cədvəli və xərclər smetası Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən təsdiq edilir.

8.2. Milli Parka, habelə İdarəyə Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor (bundan sonra – direktor) rəhbərlik edir. Direktor Milli Parkın və İdarənin fəaliyyətinə görə şəxsən məsuliyyət daşıyır.

8.3. Direktorun Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 2 (iki) müavini vardır. Direktorun müavinləri direktor tərəfindən onlara həvalə edilmiş vəzifələrin icrasına görə cavabdehdirlər. Direktor müvəqqəti olmadıqda müvafiq əmrlə müavinlərindən biri onu əvəz edir.

8.4. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

8.4.1. Milli Parkın və İdarənin işinə ümumi rəhbərliyi həyata keçirir və onların fəaliyyətində normativ hüquqi aktların tələblərinə əməl olunmasını təmin edir;

8.4.2. təbiəti mühafizə, elmi tədqiqat planlarının və biotexniki planların layihələrinin hazırlanmasını təşkil edir, təsdiq edildikdən sonra onların yerinə yetirilməsini təmin edir;

8.4.3. Milli Parkda elmi tədqiqat işlərinin tematik planı əsasında elmi işçilərin iş planlarını təsdiq edir;

8.4.4. Milli Parkda elmi tədqiqat işləri üzrə planların, tapşırıqların yerinə yetirilməsinin gedişi haqqında struktur bölmələrinin və ayrı-ayrı işçilərin hesabatlarını dinləyir;

8.4.5. İdarənin ixtisaslı kadrlarla komplektləşdirilməsini təşkil edir, kadrların əlavə təhsili istiqamətində normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada tədbirlər görür;

8.4.6. Milli Parkın mühafizə rejimi, elmi tədqiqatların və onların tətbiqinin nəticələri haqqında hesabatları, habelə maliyyə-təsərrüfat fəaliyyəti barədə maliyyə və statistik hesabatları aidiyyəti üzrə təqdim edir;

8.4.7. Milli Parkın maddi-texniki təminatı ilə bağlı tədbirləri təşkil edir;

8.4.8. Milli Parkı və İdarəni təmsil edir, İdarə adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

8.4.9. Milli Parkın Şurasının fəaliyyətinə rəhbərlik edir;

8.4.10. Milli Parkın işçilərini (direktor müavinləri istisna olmaqla) vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

8.4.11. Milli Parkın və İdarənin fəaliyyəti ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir.

8.5. İdarənin işçiləri Milli Parkın rejiminin pozulması hallarının qarşısının alınmasında mühafizə xidmətinin işçilərinə kömək edirlər.

8.6. Milli Parkın təbiət ərazilərindən və obyektlərindən ödənişli istifadə Qanuna uyğun olaraq tətbiq edilir.

8.7. Milli Parkın fəaliyyəti, mühafizəsi və inkişafı ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq İdarə tərəfindən baxılır və nəticəsi barədə müraciət müəllifinə yazılı, o cümlədən elektron qaydada məlumat verilir.

Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli və "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"nin təsdiq edilməsi haqqında" 2024-cü il 1 fevral tarixli 2462 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67 (Cild I); 2025, № 6, maddə 540) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nın 3-1.1-ci bəndində "isə 3 (üç)" sözləri "3 (üç) milyon manat, sənaye məhəllələrinin rezidentləri tərəfindən həyata keçirilən istehsal layihələrinə münasibətdə isə 1 (bir)" sözləri ilə əvəz edilsin.

2. "İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1423 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd üzrə:

2.1.1. 2.1.3-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

2.1.2. 2.1.4-cü yarımbənd ləğv edilsin;

2.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi istiqamətlər üzrə həyata keçirilən strateji investisiya layihələrini təqdim edən hüquqi şəxslərə və fərdi sahibkarlara investisiya təşviqi sənədi 2023-cü il yanvarın 1-dən 6 il ərzində verilir.".

3. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 143 (Cild I) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri" yeni redaksiyada verilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2026-cı il

İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri

1. Yerli xammal bazasına (metal filiz, alüminium, neft, qaz, kimya, tikinti materialları, pambıq və barama) əsaslanan istehsal layihələri
2. Bərpaolunan enerji mənbələri hesabına enerji istehsalı layihələri
3. Tullantıların idarə olunması və təkrar emalı layihələri
4. Dəniz suyunun duzsuzlaşdırılması layihələri
5. Özəl sənaye məhəllələrinin yaradılması layihələri və sənaye məhəllələrinin rezidentləri tərəfindən həyata keçirilən istehsal layihələri
6. 2023-cü il yanvarın 1-dən sonra keçirilən investisiya müsabiqələri vasitəsilə özəlləşdirilən qeyri-neft/qaz sənayesi müəssisələrinin istehsal layihələri
7. Azərbaycan Respublikasında istehsalı ilk dəfə təşkil edilən, yerli məhsullarla özünü təminetmə səviyyəsini (idxalın əvəzlənməsini) və ya qeyri-neft sektorunun ixrac potensialının artırılmasını təşviq edən iqtisadi fəaliyyət sahələrinin yaradılması istiqamətində həyata keçirilən "Azərbaycanda ilk" ("First in Azerbaijan") layihələri
8. Dərman vasitələrinin və əczaçılıq məhsullarının istehsalı (qablaşdırma fəaliyyəti istisna olmaqla) layihələri
9. Dəmir yolu hərəkət tərkibinin təmiri və onun ehtiyat hissələrinin istehsalı layihələri
10. Hərbi təyinatlı məhsulların istehsalı layihələri.

Rusiyanın səfiri XİN-ə çağırılıb

Zatulinin bəyanatına görə Moskvaya etiraz notası verilib

Fevralın 6-da Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.

Nazirliyin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Rusiya səfiri ilə görüş zamanı fevralın 5-də Rusiya Federasiyası Dövlət Dumasının MDB, Avrasiya inteqrasiya məsələləri və həmvətənlərlə əlaqələr Komitəsi sədrinin birinci müavini, hakim "Vahid Rusiya" Partiyasının üzvü Konstantin Zatulinin ölkəmizdə Ermənistan Respublikası vətəndaşlarının məhkum olunması ilə bağlı bəyanatı ilə əlaqədar kəskin etiraz bildirilib və Rusiya tərəfinə müvafiq nota təqdim edilib.

K.Zatulinin uzun müddətdir Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü əleyhinə çıxışlar etməsi, separatizmə açıq dəstək nümayiş etdirməsi, habelə Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, eləcə də hərbi cinayətlər törətməkdə təqsirli bilinərək məhkum olunmuş Ermənistan Respublikası vətəndaşları ilə bağlı məhkəmə qərarlarını təhrif etməyə cəhd göstərməsi və qəbuledilməz ifadələr işlətməsi qətiyyətlə pislənib.

Görüşdə Rusiya tərəfi bölgədə sülhə və sabitliyə, eləcə də Azərbaycanla Rusiya arasında münasibətlərə zərbə vurmağa çalışan Zatulin kimi şəxslərin destruktiv fəaliyyətinə son qoyulması üçün müvafiq tədbirlər görməyə çağırılıb.

XQ

Media (necə) idrak etməlidir

(əvvəli 1-ci səhifədə)

MŞ-nin açıqlamasında o da vurğulanır ki, "media mənsublarının "İdrak" liseyi şagirdindən aldıqları müsahibə, həmçinin müsahibə zamanı yol verdikləri davranış "Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları"nın "Jurnalistin özünün və çalışdığı orqanının reputasiyasının qorunması" adlı 5-ci prinsipində əksini tapmış "ictimai əhəmiyyət" anlayışı "ictimaiyyət üçün maraqlı" olan informasiya ilə qarışdırılmamalıdır" tələbinin də pozulmasıdır. Onların hərəkəti hadisə ilə bağlı əsl həqiqətləri üzə çıxarmaq məramına xidmət deyildi və məlum olaya olan ictimai diqqətə adekvat peşəkar davranış nümunəsi kimi qiymətləndirilə bilməz".

Məlum olduğu kimi, jurnalistlər bir çox hallarda ictimai əhəmiyyət anlayışını yanlış interpretasiya edirlər. Nəticədə hər rezonans doğuran mövzu avtomatik olaraq ictimai maraq kontekstinə daşınır. Sensasiya və reytinq yaratmaq istəyi peşəkarlığı ikinci plana atır. Halbuki, əsl jurnalistika hadisənin səbəblərini, institusional məsuliyyəti və faktları üzə çıxarmalı, emosional təsir yaratmağa çalışmamalıdır.

Azərbaycan Mətbuat Şurası açıqlamasında jurnalistləri, xüsusən, ekstremal durumların, cəmiyyətdə rezonans doğurmuş hadisələrin və belə olaylarla əlaqəli məqamların işıqlandırılmasında emosiyalara qapılmamağa, tələskənliyə yol verməməyə və konkret mahiyyət üzrə davranmağa da çağırıb: "Unutmaq olmaz ki, həssaslıq ən böyük peşəkarlıq meyarıdır və medianın yalnız yüksək peşəkar həssaslığı ilə hazırladığı materiallar insanların informasiya tələbatını qarşılamaq iqtidarındadır. Buna əks təmayüllərin hər biri cəmiyyətə ziyandır".

Qeyd edək ki, dünya miqyasında da uşaqlardan informasiya alınması ilə bağlı bir sıra normalar mövcuddur. BMT-nin 1989-cu ildə qəbul olunmuş Uşaq Hüquqları Konvensiyası isə uşaqlarla bağlı bütün sahələrdə, o cümlədən mediada əsas beynəlxalq hüquqi baza hesab olunur. Konvensiyasının əsas prinsipinə əsasən uşaqların ali mənafeyi (Best interests of the child) hər cür informasiyanın toplanması və yayımı zamanı birinci yerdə dayanmalıdır. Bu zaman onların şəxsi həyatlarının toxunulmazlığına, psixoloji və mənəvi inkişaflarına zərər verə biləcək hallardan qorunmalarına önəm verilir. Ona görə önəm verilir ki, uşaqlardan alınan məlumat onların təhlükəsizliyini riskə atmasın. Konvensiya, hətta, yetkinlik yaşına çatmayanların danışmaq istəyinin belə, onların bununla əlaqədar hüquqlarını avtomatik olaraq legitimləşdirmədiyini rəhbər tutur.

Digər tərəfdən, UNICEF jurnalistlər üçün ayrıca etik normalar hazırlayıb ki, həmin normalarda uşaqla müsahibənin yalnız valideynin və ya qanuni nümayəndənin razılığı ilə aparılmalı olduğu, habelə uşaqların travmatik hadisə ilə bağlı danışmağa məcbur edilmələrinin yolverilməzliyi, onların kimliklərinin maksimum dərəcədə qorunmalı olduğu, ən başlıcası uşaqların və yetkinlik yaşına çatmayanların hansısa emosional materialın alətinə çevrilməmələri əsaslandırılır. UNICEF-in əsas mesajı isə budur ki, uşağın özünün həyat hekayəsi xəbərin dəyərindən daha önəmlidir.

Avropa İnsan Hüquqları Konvensiyasına və Avropa İttifaqının standartlarına gəlincə, Avropa Şurası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna görə, uşaqlar xüsusi müdafiə olunan sosial qrupdur və ifadə azadlığı uşaq hüquqlarını üstələyə bilməz. Ən başlıcası cinayət, zorakılıq, intihar, məktəb insidenti kimi hallarda uşağın identifikasiyası demək olar ki, tam qadağandır. Yeri gəlmişkən, Aİ ölkələrində bu qaydaların pozulması cərimə, lisenziya məhdudiyyəti və hətta məhkəmə məsuliyyəti yaradır.

Beynəlxalq Jurnalistlər Federasiyasının (IFJ) Etik Kodeksində də birbaşa uşaqlarla bağlı maddə yer alır. Sənəddə bildirilir ki, jurnalist uşağın təcrübəsizliyindən və inamından sui-istifadə etməməli, onunla bağlı məlumatlar yalnız ictimai maraq müstəsna olduqda yayıla bilər. Qurum hesab edir ki, sensasiya, reytinq və emosional effekt əsaslandırıcı səbəb sayıla bilməz.

Bundan başqa, BBC, "Reuters", "Assoşeyted Press" kimi aparıcı media qurumlarının daxili qaydaları da 18 yaşdan aşağı şəxslərdən redaksiya səviyyəsində xüsusi icazə olmadan müsahibə almağı yasaqlayır. Bu media qurumları hansısa travma yaşamış uşaqlarla müsahibəni ya ümumiyyətlə, qadağan edir, ya da bunun üçün psixoloq tövsiyəsi tələb olunur. Video və foto materiallarda üzlərin bulanıqlaşdırılması isə dəyişməz və mübahisəsiz standartdır.

Ə.RÜSTƏMOV
XQ

Azərbaycan Prezidentinin BƏƏ səfəri dünya mediasında

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri və bu səfər çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyan ilə keçirdiyi görüş, həmçinin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın dövlətimizin başçısına təqdimolunma mərasimi dünyanın bir sıra ölkələrinin aparıcı media qurumlarının diqqət mərkəzində olub.

Misir, Küveyt, Səudiyyə Ərəbistanı, Mərakeş və Livan mətbuatında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın Əbu-Dabidə keçirdiyi görüş keçmişdə mövcud olan gərginliyin tamamilə aradan qaldırılması və regional sabitliyin möhkəmləndirilməsi istiqamətində davam edən səylərin göstəricisi kimi qiymətləndirilib. Misirin "Youm7", Səudiyyə Ərəbistanının "SA24", Küveytin "Q8-Press" və Livanın "Athabat" nəşrlərinin məlumatına görə, görüşdə ikitərəfli ticarətin başlaması, eləcə də Azərbaycandan Ermənistana neft məhsullarının ixracı müsbət addım kimi qiymətləndirilib. Bildirilir ki, bu proseslər artıq tərəflər arasında sülhün praktik faydalarının hiss olunmasına imkan yaradır.

Mərakeşdə fəaliyyət göstərən "A5r5br" və ərəbdilli "Mvlana" portalı isə görüşün Cənubi Qafqazda regional sabitliyin möhkəmləndirilməsi və uzun illər davam edən gərginliyin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin tərkib hissəsi olduğunu qeyd edib. Ərəb mediası vurğulayır ki, Əbu-Dabidə baş tutan təmaslar Azərbaycan–Ermənistan dialoqunun davam etdirilməsinə və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinə xidmət edir.

İspaniyanın "Aciprensa" xəbər portalı yazır ki, mükafatın təqdimolunma mərasimi Azərbaycanla Ermənistan arasında dialoqun davam etdirilməsinə və sülh səylərinin tanınmasına stimul verib.

İsveçrənin "Swissinfo" və Paraqvayın "ABC" saytı xəbər verir ki, tərəflər ikitərəfli ticarət əlaqələrinin genişləndirilməsini, enerji ixracı və Azərbaycan ərazisindən tranzit imkanlarının artırılmasını müsbət addım kimi qiymətləndiriblər. Liderlər, həmçinin TRIPP dəhlizi və digər nəqliyyat layihələrinin reallaşdırılmasının normallaşma prosesini dəstəklədiyini vurğulayıblar.

Rusiyanın bir sıra nəşrləri də Prezident İlham Əliyevin BƏƏ səfəri və Ermənistanın Baş naziri ilə keçirilən görüş barədə xəbərlər yayımlayıb. "Tass.ru", "Trtrussian.com", "kommersant.ru", "kp.ru", "ng.ru", "rbc.ru", "interfax.ru", "lenta.ru", "news.ru" xəbər portallarında dərc edilən xəbərlərdə ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən bəhs edilib. Xəbərlərdə, həmçinin tərəflərin ikitərəfli ticarəti və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağa davam etmək barədə razılığa gəldikləri vurğulanır.

Prezident İlham Əliyevin BƏƏ-yə səfəri və Ermənistanın Baş naziri ilə keçirdiyi görüş Türkiyənin aparıcı media qurumları, o cümlədən "hurriyet.com.tr", "akittv.com.tr", "ensonhaber.com", "haberturk.com", "cnnturk.com" xəbər portallarında da geniş işıqlandırılıb.

Zakir Həsənov iranlı həmkarı ilə müzakirələr aparıb

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan İranın müdafiə və silahlı qüvvələrə dəstək naziri briqada generalı Əziz Nəsirzadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

General-polkovnik Z.Həsənov Azərbaycanla İran arasındakı əlaqələrin çoxəsrlik zəngin tarixə malik olduğunu qeyd edib, qarşılıqlı səfərlər çərçivəsində keçirilən görüşlərin və birgə təlimlərin bu əlaqələrin daha da dərinləşməsinə töhfə verdiyini vurğulayıb. Briqada generalı Ə.Nəsirzadə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın digər sahələrdə olduğu kimi, hərbi sahədə daha da inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və elm sahələrində əlaqələrin cari vəziyyəti, eləcə də inkişaf perspektivləri müzakirə olunub.

XQ

Lavrov–Simonyan təması: Aİ–AİİDilemması, yoxsa TRIPP?

Yaxud Ermənistan parlamenti sədrinin Moskva səfəri ilə bağlı qeydlər

Ermənistan parlamentinin sədri Alen Simonyanın Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüş səbəbi maraqlıdır. Görəsən, birinciyə ikincinin tənələrini eşitmək çoxmu vacib idi? Tənələrdən söz düşmüşkən, onları bir neçə gün əvvəl Rusiya baş nazirinin müavini Aleksey Overçuk da səsləndirdi. Çox güman, Overçuk istəyib ki, Simonyanın Moskva səfəri öncəsi erməni spikerin gündəliyini heçə endirsin. İstər-istəməz sual yaranır: Rəsmi İrəvanın gündəliyi, daha doğrusu, istəyi nədən ibarətdir? Simonyanın Lavrovla görüşü xüsusunda mediaya açıqlanan məlumatlardan gəlinən qənaət belədir:

Ermənistan Rusiyanı inandırmağa çalışır ki, Qərbin meydançası sayılan Avropa İttifaqında təmsilçiliyin Kremlin hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqındakı üzvlüyə heç bir təsiri olmayacaq. Görəsən, məsələ yalnız budurmu? Ümumən, Qərbyönümlü siyasi xətt yürüdən Ermənistanın bəzən, xüsusən də son zamanlar "nə şiş yansın, nə kabab" prinsipi ilə davrandığını görmək mümkündür. Baş nazir Nikol Paşinyan administrasiyası Bakının Moskva ilə təmaslarındakı soyuqluğu gördüyündən, Ermənistanı Kreml üçün daha yaxşı variant qismində təklif etməyə çalışır. Təxminən belə: Azərbaycan yoxdur, biz varıq. Ermənistan rəhbərliyi hesab edir ki, belə yanaşma Rusiyanın yumşalmasına səbəb olacaq. Amma istər Overçukun, istərsə də Lavrovun fikirləri göstərir ki, Moskva prinsipial xəttindən geri dönmür. Lavrov bu xəttin ayrı-ayrı məqamlarını Simonyanın diqqətinə çatdırdı. Bu barədə söz açacağıq. Ancaq əvvəlcə Ermənistanın Aİ-yə üzvlüyü xüsusunda bir məqamı vurğulayaq.

*

Ermənistan üçün Aİ platformasında təmsilçilik, əslində, uzaq perspektivin işidir. Özü də söhbət qeyri-müəyyən işdən gedir. Hesab edirik ki, rəsmi İrəvan da durumun fərqindədir. Ancaq ona Aİ-yə üzvlük məsələsini daim gündəmdə saxlamaq lazımdır. Nəzərə alaq ki, hazırda məhz bu məsələ Ermənistanın Qərbyönümlü xəttinin təsdiqi qismində çıxış edir. Yəni, Paşinyan administrasiyası Aİ-yə can atan ölkə görüntüsü ilə dünyaya açılım prioritetinin vacibliyini vurğulayır. Amma... Deməli, ötən il avqustun 8-də Azərbaycan və Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamədən sonra rəsmi İrəvan Aİ-yə üzvlük ritorikasını nisbətən yumşaltdı. Bir halda ki, ABŞ var, Aİ-yə nə ehtiyac? Başqa sözlə desək, Birgə Bəyannamənin mühüm seqmenti olan "Tramp marşrutu", yəni TRIPP işə düşəcəksə, Ermənistanın Aİ-də təmsilçiliyinə ehtiyac qalmayacaq. Onsuz da quruma qoşulmağın faydaları xeyli dərəcədə mücərrəddir. TRIPP daha realdır və Ermənistan özünə lazım olandan da artıq mənfəəti məhz bu müstəvidə əldə edəcək. Aİ-yə qoşulmaq məsələsinin gündəmdə saxlanılmasının isə daha çox siyasi əhəmiyyəti var. Hər halda, Rusiyada da durumun fərqindədirlər. Amma Moskvanın İrəvana xatırlatmalı olduğu məqamlar var və Lavrov Simonyanı qəbul edərkən məhz bunu etdi.

*

Söhbət TRIPP-dən və onun faydalarından düşmüşkən, digər məqama da diqqət yetirək. Rusiya TRIPP-ə qarşı çıxır, lakin mövqeyini dolğun şəkildə əsaslandıra bilmir. Ölkə rəsmiləri bu barədə söz düşəndə, Ermənistandakı rus hərbi kontingenti üzərində dayanırlar. Axı rus hərbçiləri TRIPP-in arealına daxil olan ərazidədirlər. Rusiya həmin kontingentin iş prinsipini rəhbər tutub qlobal layihəyə qarşı çıxmaq imkanına malik olmasa da, Moskvanın mövcud istiqamətdə, loru dildə desək, ilişmək yeri tapma ehtimalı yüksəkdir. Azərbaycan üçün Kremlin TRIPP-ə qarşı hansı addım atacağının heç bir önəmi yoxdur. Çünki ölkəmiz qlobal marşrutla bağlı öhdəliyini yerinə yetirməkdə çətinlik çəkmir. Nəzərə alsaq ki, TRIPP-in məğzini Naxçıvana Ermənistan ərazisindən maneəsiz yol təşkil edir və həmin ərazidə rus sərhədçiləri var, deməli, düşünməli olan rəsmi İrəvandır. Görünür, A.Simonyan, eyni zamanda, buna görə Moskvaya yollanmışdı.

*

Əlqərəz, Lavrov Simonyanla söhbətə başlayar-başlamaz dedi ki, Aİİ-yə üzvlük Aİ-yə qoşulmaqla uyğun gələ bilməz, lakin Rusiya Ermənistanın seçiminə hörmət edəcək: "Ermənistan üçün nəyin daha vacib və daha sərfəli olduğu - Avrasiya İqtisadi İttifaqı çərçivəsində inteqrasiya proseslərinin davam etdirilməsi, yoxsa Avropa İttifaqının norma və standartlarına keçid barədə müzakirələr aparılır. Biz bu müzakirələri izləyirik, lakin siz bizim mövqeyimizi də bilirsiniz. Bu mövqe hansısa ideoloji motivlərlə bağlı deyil, reallıqlardan irəli gəlir. Avrasiya İqtisadi İttifaqına üzvlük Avropa İttifaqı ilə əməkdaşlıqda iştirakın və xüsusən də ona qoşulmanın əsasını təşkil edən prinsiplərlə uyğun deyil. Bu, sizin seçiminizdir və biz ona tam şəkildə hörmət edəcəyik". Amma Lavrov Simonyana təkcə ölkəsinin mövqeyini açıqlamadı, habelə müqayisə apardı. O, Ermənistanın Aİİ-nin tamhüquqlu üzvü olduğu son 10 ildəki nəticələrini sadaladı və İrəvanın bunu nəzərə alacağına ümid etdiyini bildirdi. Nəticələr isə belədir ki, Ermənistanda 2015-ci ildə ÜDM həcmi 10,5 milyard dollar idi, hazırda bu rəqəm 26 milyard dollardır və 2,5 dəfə artım var. Amma dövrün xüsusiyyəti də nəzərə alınmalıdır ki, Lavrov bu barədə danışmır. Axı 2015-ci ilin 10,5 milyard dolları, indinin 26 milyard dollarından bir o qədər geri qalmırdı. A.Simonyanın mövcud məqamı Rusiya XİN başçısının diqqətinə çatdırıb-çatdırmadığı məlum deyil. Erməni spiker onu deyib ki, Ermənistanın Aİİ-dən çıxmaq niyyəti yoxdur. "Aİİ və Gömrük İttifaqına gəldikdə isə, biz hesab etmirik ki, oradan çıxmalıyıq. Düşünürük ki, hər iki tərəf üçün faydalı olacaq birgə həll yolu tapa bilərik", - deyən Simonyanın üzərində dayandığı başlıca məqam budur: "İstəmirəm ki, burada - Rusiyada - Ermənistanın, guya, Rusiyaya qarşı nəsə etməyə çalışdığı barədə anlayış formalaşsın. Rusiyaya - bizim üçün dost və müttəfiq olan dövlətə qarşı heç nə etməyəcəyik. Sizi əmin etmək istəyirəm ki, bizdə belə bir yanaşma yoxdur və olmayacaq. Bu, indiyədək əldə etdiklərimizə və mövcud olan münasibətlərə uyğun deyil".

*

Sonda qeyd edək ki, başlıca məqam Simonyanın ölkəsinin Rusiyaya qarşı çıxmayacağını vurğulamasıdır. Onun bu fikri təsdiqləyir ki, Paşinyan administrasiyasının məqsədi təkcə Ermənistanın Aİ-yə qoşulmaq niyyətinə Moskvanın sərt reaksiyasının qarşısını kəsmək deyil. Məqsəd, əvvəldə vurğuladığımız kimi, TRIPP-dir. Rusiyanın TRIPP-lə bağlı mövqeyini diqqətə çatdırdıq və bildirdik ki, Moskvanın qlobal layihənin əleyhinə çıxmaq üçün tutarlı arqumenti olmasa da, onun ilişmək üçün nədənsə yapışması mümkündür. Bu isə Ermənistanın üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməsinə səbəb ola bilər. Tam əminliklə demək olar ki, erməni hakim komandası Rusiya ilə münasibətlərdəki sərinliyi Aİİ-Aİ dilemmasına görə yox, məhz TRIPP səbəbindən aradan qaldırmağa çalışır. Moskva isə prinsipial və daha aydın olan motivi qabardır. Yəni, Ermənistanın Aİİ-də qala-qala Aİ-yə üzvlüyünün mümkünsüzlüyünü. Kremlin bu dəst-xətti rəsmi İrəvanın əsl mövzuya – TRIPP-ə keçid almasını əngəlləyir, Paşinyan administrasiyasının Rusiyanı yumşaltmaq cəhdinin qarşısını kəsir. Lavrovun, ondan əvvəl Overçukun fikirlərinə nəzərən belə nəticəyə gəlmək mümkündür ki, Simonyanın Moskva səfəri hansısa nəticə vermədi. Deməli, Ermənistan "B" planını işə salmalıdır. Yəni, qlobal layihəyə maneə törətmək ehtimalı olan elementlərin uzaqlaşdırılması ssenarisini. Başqa yol yoxdur. Çünki TRIPP gözləmir, gözlədənləri də sevmir.

Ə.CAHANGİROĞLU
XQ

Fevralın 5-də Ermənistanın Moskvadakı səfirliyinin önündə Erməni Apostol Kilsəsinə dəstək, eləcə də bütün ermənilərin katolikosu II Qareginin və İrəvanda saxlanılan keşişlərin müdafiəsi məqsədilə aksiya keçirilib.

Moskvadan İrəvana mesaj

Erməni diasporunun Qarageni müdafiə aksiyası nəyi göstərir?

İştirakçılar rus və erməni dillərində "Bizim xaçımız – bizim gücümüzdür" və "Azadlıq" şüarları səsləndiriblər. Aksiyada çıxış edən Erməni Apostol Kilsəsinin Rusiya və qondarma "Yeni Naxçıvan" yeparxiyasının ruhanisi Gevorq Vardanyan idda edib ki, Ermənistan hakimiyyəti hazırda müxtəlif bəhanələr və uydurma ittihamlarla din xadimlərini həbs edir, xalqın və kilsənin müdafiəsi üçün səsini ucaldan insanları cəzalandırır: "Təəssüf ki, vəziyyət belədir. Lakin biz inanırıq, dua edirik və bütün gücümüzlə çalışırıq ki, bu proses davam etməsin, hər şey tezliklə sona çatsın. Çünki bu şəkildə yaşamaq artıq mümkün deyil". Onun sözlərinə görə, guya, bu vəziyyət cəmiyyətdə "dərin parçalanmaya" səbəb olub, insanlar bir-birinə düşmən kəsilib, qarşılıqlı hörmət itib. Özünü ruhani adlandıran bu şəxs qeyd edib ki, çıxış yolunun tapılacağına ümid edirlər və bu prosesin tezliklə başa çatması üçün dua edirlər.

Aksiya iştirakçılarının iddiasına görə, Ermənistan hakimiyyəti anti-konstitusion addımlar atır, müxtəlif bəhanələrlə erməni yepiskoplarının ölkədən çıxışına qadağa qoyur və kilsənin daxili işlərinə müdaxilə edir. İctimai fəal kimi təqdim olunan Levon Mukanyan isə Ermənistan vətəndaşlarını "eyni səhvləri təkrar etməməyə" çağıraraq, iyun ayında keçiriləcək parlament seçkilərində hazırkı baş nazir Nikol Paşinyana səs verməməyə səsləyib.

Qeyd edək ki, Ermənistan hakimiyyəti ilə kilsə arasında münasibətlər Birinci Taxt-Tac Eçmiədzinin 2020-ci ildə baş nazir Nikol Paşinyanın istefasını tələb etməsindən sonra gərginləşib. Kilsə Paşinyanı Qarabağla bağlı apardığı siyasətə görə tənqid etmişdi. Son aylarda isə baş nazir faktiki olaraq açıq şəkildə II Qareginin Erməni Apostol Kilsəsinin rəhbəri postundan uzaqlaşdırılması istiqamətində iş aparır. Ancaq kilsə nizamnaməsinə əsasən, katolikosun ömürlük seçilməsinin nəzərdə tutulması səbəbindən buna müyəssər ola bilmir.

2025-ci il dekabrın 8-də Paşinyan II Qareginin kənarlaşdırılmasından sonra həyata keçirilməsi nəzərdə tutulan "Erməni Apostol Kilsəsinin yenilənməsi" planını təqdim edib. Yanvarın 5-də isə bu plan Paşinyan və 10 yepiskop tərəfindən imzalanıb. Birinci Taxt-Tac Eçmiədzin bu fonda bəyanat yayaraq, yepiskopların bu cür "antikilsə proseslərinə" cəlb edilməsinin qınanmağa layiq olduğunu bildirib və bu addımların "ağır nəticələrə gətirib çıxara biləcək parçalanma riski" yaratdığını vurğulayıb.

Məsələnin diqqəti cəlb edən digər tərəfi kilsənin atdığı addımların Rusiyada müxtəlif dairələr tərəfindən dəstəklənməsidir. Yada salaq ki, yanvarın sonlarında erməni diasporunun çoxluq təşkil etdiyi Soçi və Adlerdə Erməni Apostol Kilsəsinə dəstək məqsədilə kütləvi aksiyalar keçirilmişdi. Moskvadakı aksiya isə Ermənistan parlamentinin sədri Alen Simonyanın Moskvada səfərdə olduğu dövrə təsadüf edib. Aksiya barədə məlumatı Rusiyanın dövlət informasiya agentliyi – TASS-ın geniş işıqlandırması da diqqətdən yayınmır. Simonyan 2025-ci ilin mayında Rusiyanı Ermənistana qarşı "hibrid müharibə" aparmaqda ittiham edərək, ölkədə vəziyyəti sabitlikdən çıxarmağa yönəlmiş cəhdlərin mövcud olduğunu və bu cəhdlərin 2026-cı ilin iyunun 7-də keçiriləcək parlament seçkiləri ərəfəsində daha da güclənəcəyini bildirmişdi. Bundan sonra Ermənistanın müxtəlif rəsmi şəxsləri, o cümlədən xarici işlər naziri Ararat Mirzoyan və bənzər fikirlər səsləndiriblər. Mirzoyan yanvarın 28-də Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında çıxışı zamanı deyib ki, Ermənistanda parlament seçkiləri ərəfəsində hibrid hücumların gücləndirilməsi gözlənilir. "Biz demokratik alətlərdən istifadə etməklə bu hücumlardan müdafiə olunmağa hazırıq", – deyə XİN rəhbəri vurğulayıb. Onun sözlərinə görə, Ermənistanın hazırkı hakimiyyəti artıq bu cür təhdidlərə qarşı zəruri immunitet formalaşdırıb: "Son 4–5 il ərzində biz hibrid təhdidlər şəraitində yaşamışıq. "Məcburi" mitiqlərin şahidi olmuşuq. Biz dezinformasiya, saxta xəbərlər və informasiya manipulyasiyaları mühitində yaşayırıq". Diplomatın fikrincə, AŞPA rəhbərliyi öz bəyanatları və Ermənistana planlaşdırılan səfəri vasitəsilə İrəvana və demokratiyaya dəstək göstərə bilər. "Sonda bütün hibrid hücumların öhdəsindən birgə gələcəyik", – deyə Mirzoyan bildirmişdi.

*

Bu mənada Moskvadakı mitinq adi etiraz aksiyası kimi görünsə də, hadisəyə diqqətlə baxdıqda onun daha geniş siyasi kontekstə, xüsusən də Ermənistanda qarşıdan gələn parlament seçkilərinə birbaşa bağlı olduğu aydınlaşır. Aksiya təkcə kilsə-hakimiyyət qarşıdurmasının növbəti mərhələsi deyil, həm də seçkilər ərəfəsində formalaşan daxili və xarici siyasi fonun bir parçasıdır.

Maraqlı məqamlardan biri, qeyd etdiyimiz kimi, aksiyanın Ermənistan parlamentinin sədri A.Simonyanın Moskvada səfərdə olduğu vaxta təsadüf etməsidir. Təsadüf təsiri bağışlasa da, bu detal aksiyanın mesaj yükünü artırır. Simonyan son illər Ermənistanın informasiya gündəmində tez-tez yer alan fiqurlardandır və onun Rusiyaya yönəlik açıqlamaları cəmiyyət daxilində müxtəlif reaksiyalar doğurub. Bu kontekstdə Moskvada keçirilən aksiyanın diqqət mərkəzinə düşməsi təsadüfi görünmür.

Ümumiyyətlə, seçkilər yaxınlaşdıqca Ermənistan hakimiyyəti təhlükəsizlik və sabitlik mövzusunu ön plana çıxarmağa çalışır. Rəsmi İrəvan hibrid təhdidlərdən danışır, cəmiyyətin mümkün təzyiqlərə qarşı hazır olduğunu vurğulayır. Bu yanaşma hakimiyyət üçün iki məqsədə xidmət edir. Bir tərəfdən daxildəki təxribatçı-pozucu elementlərin qarşısını almaq, digər tərəfdən isə seçki prosesinə nəzarəti gücləndirmək imkanı yaradır. Kilsə ətrafında baş verənlər də bu çərçivədə təqdim olunur. Hakimiyyətlə kilsə arasında açıq qarşıdurma cəmiyyətdə parçalanma riskini artırır. Bu parçalanma seçkilər zamanı daha qabarıq hiss oluna bilər. Hakimiyyət üçün əsas çətinlik həm sabitlik görüntüsünü qorumaq, həm də kilsə ilə münasibətləri tam qoparmamaqdır. Çünki bu addım seçici davranışına birbaşa təsir göstərə bilər.

Rusiyanın bu prosesdəki rolu isə daha çox fon xarakteri daşıyır. Moskva hadisələrin mərkəzində olmasa da, Ermənistan daxilində və diaspor mühitində baş verənlər Rusiya ilə münasibətlər prizmasından da qiymətləndirilir. Bu baxımdan rəsmi açıqlamalarda ehtiyatlı tonun seçilməsi təsadüfi deyil. Simonyanın mövqeləri də məhz bu incə tarazlıq üzərində qurulub. Nəticə etibarilə, Moskvadakı aksiya qarşıdan gələn parlament seçkiləri öncəsi siyasi mənzərənin mürəkkəbliyini göstərir. Kilsə, diaspor, hakimiyyət və xarici amillər bir nöqtədə kəsişir. Seçkilərə doğru bu mövzuların daha da aktuallaşacağı və siyasi mübarizənin mühüm alətlərindən birinə çevriləcəyi istisna edilmir.

Politoloq Ramiyə Məmmədova XQ-yə açıqlamasında bildirdi ki, kilsə faktoru erməni cəmiyyətində hələ də ciddi təsir imkanlarına malikdir. Onun sözlərinə görə, bu təsirdən istifadə edilməsi seçici davranışının emosional müstəvidə yönləndirilməsinə xidmət edə bilər: "Aksiyanın ölkə hüdudlarından kənarda, diaspor mərkəzlərindən birində keçirilməsi mesajın daha geniş auditoriyaya ünvanlandığını göstərir. Digər tərəfdən, bu cür aksiyalar hakimiyyətə təzyiq vasitəsi kimi də qiymətləndirilə bilər. Seçkilər yaxınlaşdıqca müxtəlif qruplar mövqelərini gücləndirməyə, gündəliyi müəyyən etməyə çalışırlar. Kilsə ətrafında formalaşan narazılıqlar da məhz bu məqsədlə siyasi məzmun qazanır".

Ekspert hesab edir ki, Moskvada baş tutan aksiya qarşıdakı parlament seçkiləri ərəfəsində kilsə mövzusunun siyasi alətə çevrilə biləcəyini göstərir. Bu isə seçki prosesinin daha mürəkkəb və həssas mərhələyə daxil olduğuna işarə edir.

Səxavət HƏMİD
XQ

Replika

"Lazaryan"ı "Lazarev" edənlərin russayağı göz yaşı

Bakı Hərbi Məhkəməsində Qarabağdakı keçmiş separatçı-terrorçu qruplaşmanın rəhbərlərinə hökm oxunmasına Moskvanın reaksiyası özünü çox gözlətmədi.

Rusiyanın hakim "Vahid Rusiya" fraksiyasının üzvü, Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulin ənənəvi antiazərbaycan ritorikasını işə salaraq, "Lazarev Klubu"nun İdarə Heyətinin koordinatoru, eləcə də azadlıqdan məhrum edilmiş separatçıların "hüquqlarının müdafiəçisi" qismində bəyanatı yayıb. Məhkəmədə hərbi və mülki cinayətləri tam sübuta yetirilən, şahidlərin ifadələri qarşısında törətdiyi əməlləri özləri etiraf edən separatçıların şəffaf mühakimə prosesini bütün dünya izlədi. Bunu yaxşı bilən, vaxtilə Xankəndidəki separatçı rejimin başbilənləri ilə tez-tez görüşən, "yubileylərini" təbrik edib onlarla qədəh-qədəhə vuran Zatulin müharibə canilərinin layiqli cəzalarını almalarını "repressiya" kimi qələmə verməyə çalışıb. O, bəyanatında Əbu-Dabidə Azərbaycan və Ermənistan rəhbərlərinin Zayed Sülh Mükafatının təqdimatı ilə Bakıda hökmün elan edilməsi arasında qəribə uyğunluq "axtarışı"na çıxıb. Bunun ardınca isə Ermənistan baş naziri Nikol Paşinyanı ittiham edib, onun "aşının suyunu" verib.

Zatulinin ermənilərdən aldığı qonorardan şirniklənib, konyakından keflənib Azərbaycanın ünvanına ağzına gələni danışmasını birinci dəfə deyil müşahidə edirik. Onun "ermənidən daha artıq ermənilikə" Dumada hayların lobbiçilik etməsi də heç kəsə sirr deyil. Baxmayaraq ki, 44 günlük müharibədən sonra ermənipərəst Zatulinin Ermənistana girişinə qadağa qoyulub.

Xüsusilə son 5 ildə Dövlət Dumasının bu "dumkasız" üzvü Bakının ünvanına bəzən elə yalan və böhtanlar yağdırıb ki, hərdən kələfin ucunu itirib öz-özünü dolaşdırıb. Bu dəfə də köhnə şakərindən əl çəkməyən Zatulin çıxışını "Qarabağ rəhbərliyi"nin mühakimə olunmasını həm "şəxsi revanş", həm də "repressiya" kimi ittiham aktına və məhkəmə prosesinə dəxli olmayan ifadələrlə "bəzəyib". Onun qəfildən "erməni tarixçisinə" çevrilərək, hayların uydurma dövlətlərindən bəhs etməsini, onları "Qafqazın ən qədim xalqı" adlandırmasını da görmüşük. "Dağlıq Qarabağın tarixi və mədəniyyətinə aid bu və digər abidələr azərbaycanlıların nəinki bu ərazidə yaşamadığı, heç millət kimi də mövcud olmadığı dövrə aiddir" sərsəmləməsini də unutmamışıq. Bu psevdo-hüquqşünas-tarixçi Qarabağda Alban abidələrinin bərpasına qarşı çıxanda, guya, bunların erməni abidələri olduqlarını aləmə car çəkəndə aydın oldu ki, o, nəinki ermənilərin, öz tarixlərindən də bixəbərdir – Türkmənçay müqaviləsini oxumayıb. Bəlkə onun 1834-cü ildə çarın fərmanı ilə Alban abidələrinin haylara ərmağan edilməsindən də xəbəri yoxdur?

Doğrudan da, ermənidən daha çox ermənilik etməkdən yorulmayan bu başabəla deputatın hədyanlarına "it hürər, karvan keçər" deyib, cavab verməmək də olardı. Amma söhbət Azərbaycan ərazisində qeyri-qanuni rejim quran və onu yönəldən separatçılardan, əlləri soydaşlarımızın qanına bulaşmış müharibə canilərdən gedir. Digər vacib məqam: biz Bakı Hərbi Məhkəməsində məhz bu cür cinayət əməllərinə görə ittiham olunanlar barədə çıxarılan ədalətli hökmü "repressiya" kimi təsnifatlandıran Rusiya Dövlət Dumasının komitə sədrinin müavininin həddini kifayət qədər aşması faktı ilə üz-üzəyik. Axı, onu yemləyən "Lazarev klubunun" erməni sahibləri kimi, Rusiya qanunverici orqanın aşağı palatasının rəhbərliyi, eləcə də rəsmi Bakı yaxşı bilir ki, Zatulin Kremlin siyasi xorunun dəmtutanıdır. Məgər o, yalnız öz adından danışır? Deputat statusuna malik bu şəxsin dedikləri həm də Dumanın adına yazılır. Əgər onun belə bir səlahiyyət verilməyibsə, bu halda Dövlət Dumasının sədri Vyaçeslav Volodin mütləq müvafiq açıqlama-izahat yaymalıdır.

P.S. *XVIII əsrdə İrandan Rusiyaya gələn, hayların bu ölkəyə köçünü təşkil etmək üçün çariçə II Yekaterinanın sarayına yol tapan Lazar Nazaroviç Lazaryanın adını daşıyan, hazırda zəngin ermənilərin maliyyələşdirdiyi bu bədnam klub zatulinlərin anti-Azərbaycan tribunası rolunu oynayır.*

İ.HƏSƏNQALA
XQ

Avropada ikili standartlar labirinti

Aİ Türkiyəni "yaxın qonşu", "arzuolunmaz" üzv kimi görür

Avropa İttifaqı (Aİ) ilə Türkiyə Respublikası arasındakı münasibətlərin tarixi inkişaf trayektoriyasına nəzər saldıqda tərəflərin daim cazibə və itələmə qüvvələrinin təsiri altında hərəkət etdiyi müşahidə olunur. Lakin hazırkı mərhələdə Brüssel və Ankara arasındakı təmaslar tamamilə fərqli, praqmatik və məcburi əməkdaşlıq müstəvisinə keçid edir.

Avropa Komissiyasının genişlənmə məsələləri üzrə komissarı Marta Kosun Ankaraya səfəri ərəfəsində səsləndirdiyi bəyanatlar, "Politico" nəşrinə verdiyi müsahibədə əksini tapan fikirlər Qərbin Türkiyəyə yönəlik siyasətində mühüm paradiqma dəyişikliyinin baş verdiyini sübut edir. Brüssel rəsmiləri açıq şəkildə bəyan edirlər ki, mövcud şərtlər daxilində Türkiyənin tamhüquqlı üzvlük məsələsi müzakirə masasında yer almır və danışıqların yenidən canlandırılması planlaşdırılmır. Əvəzində isə Aİ münasibətlərə "yeni prizmadan" baxmağı, iqtisadi və strateji tərəfdaşlığı dərinləşdirməyi təklif edir. Sözügedən yanaşma, mahiyyət etibarilə, illərdir müzakirə olunan "imtiyazlı tərəfdaşlıq" modelinin terminoloji baxımdan yenilənmiş, lakin məzmunca eyni versiyasıdır.

Məsələnin kökündə dayanan əsas amillərdən ən vacibi, şübhəsiz ki, qlobal təhlükəsizlik arxitekturasının Ukraynadakı müharibə fonunda kökündən dəyişməsidir. Rusiya–Ukrayna qarşıdurması Qara dəniz hövzəsini, Cənubi Qafqazı və Mərkəzi Asiyanı Avropa üçün həyati əhəmiyyət kəsb edən coğrafiyalara çevirib. Mövcud reallıqlar çərçivəsində Türkiyə enerji resurslarının və ticarət yollarının Qərbə daşınmasında əvəzsiz tranzit hab rolunu oynayır. Avropa Komissiyasının "Regionlararası qarşılıqlı əlaqə gündəliyinin irəlilədilməsi" adlı araşdırmanı təqdim etməyə hazırlaşması da məhz həmin zərurətdən doğur. Sənəddə Mərkəzi Avropa, Cənubi Qafqaz və Türkiyə arasında nəqliyyat və ticarət dəhlizlərinin inkişafı üçün tələb olunan investisiyaların dəyərləndirilməsi Brüsselin diqqətini demokratiya və insan haqları kimi normativ dəyərlərdən daha çox logistika və enerji təhlükəsizliyi kimi "realpolitik" maraqlara yönəltdiyini təsdiqləyir. Aİ anlayır ki, Rusiya ərazisindən yan keçən Orta Dəhlizin işlək vəziyyətə gətirilməsi, Çin və Mərkəzi Asiya bazarlarına çıxışın təmin edilməsi yalnız Ankara ilə sıx koordinasiya şəraitində mümkündür.

Lakin burada incə diplomatik məqam və ciddi ziddiyyət mövcuddur. Türkiyə tərəfi səfir Yaprak Balkanın dili ilə desək, Aİ-yə üzvlüyü hələ də əsas "bələdçi ulduz" hesab edir və münasibətlərin ortaq maraqlarla yanaşı, strateji hədəflərə söykənməsini arzulayır. Ankara üçün tamhüquqlı üzvlük perspektivinin rəsmən bağlanması qəbuledilməz ssenaridir, çünki həmin status Türkiyənin həm Qərb, həm də Şərq qarşısında geosiyasi çəkisini artıran mühüm faktordur. Buna baxmayaraq, Türkiyə hakimiyyəti Gömrük İttifaqının yenilənməsi, viza rejiminin sadələşdirilməsi və birbaşa xarici investisiyaların cəlb edilməsi kimi konkret iqtisadi dividendlərə üstünlük verir.

Sözügedən "yeni baxış" modelinin tətbiqi prosesində qarşıya çıxa biləcək ssenariləri təhlil edərkən, ilk növbədə, Gömrük İttifaqının modernizasiyası məsələsi diqqət çəkir. Mövcud saziş kənd təsərrüfatı, xidmətlər sektoru və dövlət satınalmalarını əhatə etmir, lakin yeni danışıqlar prosesində həmin sahələrin əməkdaşlığa daxil edilməsi gözlənilir. Avropa üçün Türkiyə bazarı həm istehsal, həm də istehlak baxımından cəlbedicidir. Eyni zamanda, Avropa şirkətləri üçün tədarük zəncirinin şaxələndirilməsi və Çindən asılılığın azaldılması strategiyasında Türkiyə yaxın əraziyə köçürmə mərkəzi kimi çıxış edə bilər. Lakin siyasi müstəvidə üzvlük müzakirələrinin dondurulmuş vəziyyətdə qalması Ankara ilə Brüssel arasında vaxtaşırı gərginliklərin yaranmasına səbəb olan amildir. Xüsusilə Kipr məsələsi, Şərqi Aralıq dənizindəki enerji mübahisələri və daxili siyasi proseslərlə bağlı Qərbin tənqidləri, "etimadın bərpası" prosesini zədələmək potensialına malikdir.

Digər tərəfdən, "Regionlararası qarşılıqlı əlaqə" konsepsiyası Cənubi Qafqaz ölkələri, o cümlədən Azərbaycan üçün də yeni perspektivlər vəd edir. Avropa İttifaqının Türkiyə üzərindən regiona investisiya yatırmaq planı Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin və enerji kəmərlərinin strateji əhəmiyyətini artırır. Brüssel başa düşür ki, Türkiyəsiz Qafqaza və Mərkəzi Asiyaya çatmaq logistik baxımdan səmərəsiz və təhlükəsizlik baxımından risklidir. Buna görə də, Marta Kosun anonsunu verdiyi araşdırma sənədi, əslində, Avropanın Şərqə doğru genişlənmə strategiyasının infrastruktur üzərində qurulduğunu nümayiş etdirir.

Mövzunu iqtisadi müstəvidən siyasi-hüquqi müstəviyə keçirdikdə insan haqları və qanunun aliliyi kimi mövzuların arxa plana keçdiyi müşahidə olunur. Avropa İttifaqı ənənəvi olaraq yumşaq güc vasitəsilə qonşu ölkələrdə demokratik islahatları təşviq etməyə çalışırdı. Lakin "yeni prizma" yanaşması dəyərlər sistemindən maraqlar sisteminə keçidi rəsmiləşdirir. Marta Kosun müsahibəsində ticarət və nəqliyyat dəhlizlərinə fokuslanması Avropanın qlobal rəqabət mühitində pragmatizmi hər şeydən üstün tutduğunun göstəricisidir. Təbii ki, bəyanatlarda hələ də diplomatik etiket xatirinə bəzi standart ifadələr işlədilə bilər, lakin real siyasət meydanında əsas meyar təhlükəsizlik və iqtisadi mənfəətdir. Türkiyə tərəfi də həmin dəyişikliyi hiss edir və münasibətləri bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında qurmağa çalışır. Səfir Yaprak Balkanın "ortaq maraqlar" ifadəsini işlətməsi Ankaranın da artıq sadəlövh gözləntilərdən uzaq olduğunu və masada konkret layihələri müzakirə etmək istədiyini nümayiş etdirir.

Aİ-nin Türkiyəyə yönəlik yeni strategiyası qitənin qlobal güc mərkəzi kimi qalma istəyindən və təhlükəsizlik qayğılarından irəli gələn məcburi gedişdir. Marta Kosun "üzvlük danışıqları gündəmdə deyil" ifadəsi acı reallığı əks etdirsə də, "Türkiyə mühüm tərəfdaşdır" bəyanatı münasibətlərin qopma nöqtəsində olmadığını, əksinə, transformasiya mərhələsinə qədəm qoyduğunu göstərir. Artıq ideallar və dəyərlər üzərində qurulan romantik Avropa xəyalı yerini maraqlar, logistika və enerji təhlükəsizliyi üzərində formalaşan soyuq, hesablanmış və praqmatik ittifaq modelinə verir. Bu modeldə Türkiyəyə evin içində yer yoxdur, lakin evin qapısını qoruyan və açarını saxlayan əsas mühafizəçi rolu məhz ona həvalə edilir. Proseslər göstərir ki, qarşıdakı illərdə biz Brüssel və Ankara arasında diplomatik sürtüşmələrin şahidi olsaq da, dəmir yolları, limanlar və boru kəmərləri vasitəsilə bir-birinə daha sıx bağlanan iki güc mərkəzini müşahidə edəcəyik. Bu isə regionun geosiyasi mənzərəsini yenidən şəkilləndirəcək həlledici amil olacaq. Aİ-nin bu yeni yanaşması, əslində, Türkiyənin regional hegemonluğunu tanımaqla bərabər, onu Qərb sisteminin periferiyasında saxlamaq cəhdidir. Lakin Türkiyənin artan müstəqil xarici siyasət kursu və alternativ güc mərkəzləri ilə əlaqələri Brüsseli gələcəkdə daha ciddi güzəştlərə getməyə vadar edə bilər. Zaman Avropanın "yeni prizmasının" uzaqgörən, yoxsa sadəcə, qısamüddətli taktiki gediş olduğunu ortaya çıxaracaq.

Yusif ŞƏRİFZADƏ
XQ

Iqtisadi tərəfdaşlıq regional sülhün təməlini möhkəmləndirir

"2025-ci il avqustun 8-də Azərbaycan və Ermənistan arasında keçirilən tarixi sülh sammitinə əsaslanaraq, ABŞ Prezident Trampın sülh və rifah vizyonunu inkişaf etdirmək və Cənubi Qafqazın zəngin iqtisadi potensialını açmaq üçün Azərbaycanla işləməyi səbirsizliklə gözləyir". Bu sözlər ABŞ Dövlət Departamentinin bəyanatında yer alıb.

Bu bəyanat Vaşinqtonun Cənubi Qafqazla bağlı yeni strateji kursunun fundamental parametrlərini aydın şəkildə göstərir. Sənəddə Azərbaycanın rolunun xüsusi vurğulanması və regionun gələcək iqtisadi inkişafının məhz Bakı ilə tərəfdaşlıq müstəvisində layihələndirilməsi təsadüfi xarakter daşımır. Bu strateji seçim bölgədə yaranmış yeni geosiyasi reallığın və Azərbaycanın qlobal müstəvidə artan siyasi çəkisinin qanunauyğun nəticəsidir.

Xüsusilə 2025-ci il 8 avqust tarixində Vaşinqtonda reallaşan sülh sammiti ABŞ diplomatiyasının regiondakı ən mühüm uğurlarından biri kimi tarixə düşüb. Həmin görüşdə Vaşinqton sadəcə neytral vasitəçi deyil, Cənubi Qafqazın yeni siyasi arxitekturasının qarantı qismində çıxış etdi. Bu, Prezident Donald Trampın "sülh doktrinası"nın əməli təzahürü olmaqla yanaşı, bölgənin qlobal sabitlik və beynəlxalq əməkdaşlıq zəncirinin strateji halqasına çevrilməsini prioritet hədəf kimi rəsmiləşdirdi.

Bu yeni kontekstdə Azərbaycan ABŞ üçün sadəcə enerji tərəfdaşı deyil, hər şeydən öncə siyasi etibarlılıq və regional liderlik simvolu kimi ön plana çıxır. Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsi, regionun otuz illik münaqişə zolağından çıxararaq genişmiqyaslı quruculuq və postmünaqişə inkişafı mərhələsinə qədəm qoyması Vaşinqtonun diqqət mərkəzindədir. Ölkəmizin yürütdüyü praqmatik və balanslaşdırılmış xarici siyasət kursu ABŞ-ın regionda sabit, proqnozlaşdırılan və ən əsası, müstəqil qərarvermə iradəsinə malik güclü dövlətlərlə işləmək marağına tam cavab verir. ABŞ Cənubi Qafqazı təkcə layihələrin kəsişməsi kimi deyil, həm də böyük güclərin rəqabətinin tənzimləndiyi strateji bir balans zonası kimi görür. Azərbaycan həm fundamental regional təşəbbüslərin müəllifi, həm də çoxqütblü əməkdaşlıq platformalarının lokomotiv iştirakçısı kimi bu yüksək diplomatik meyarlara cavab verən yeganə dövlətdir.

Ağ Evin bu istiqamətdə strategiyası təsdiq edir ki, Vaşinqton üçün sülh sadəcə hərbi əməliyyatların dayandırılması deyil; bu, siyasi dialoq, iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq üzərində qurulan davamlı ekosistemdir. Məhz bu yanaşmanın praktiki təzahürü kimi ABŞ-ın təşəbbüsü ilə gündəmə gələn TRIPP layihəsi xüsusi strateji çəkiyə malikdir.

Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında təhlükəsiz və maneəsiz keçidi nəzərdə tutan bu marşrut regionun nəqliyyat xəritəsini yenidən formalaşdıraraq Avropa və Asiya bazarları arasında daşımaların təhlükəsizliyini təmin edir. TRIPP layihəsi sübut edir ki, Vaşinqton sülhü diplomatik bəyanatlarla deyil, konkret iqtisadi layihələrlə möhkəmləndirməyə çalışır və bu yolda Azərbaycanı əsas icraçı tərəfdaş kimi tanıyır. Bu marşrutun işə düşməsi təkcə iqtisadi mənfəət deyil, həm də region dövlətləri arasında iqtisadi bağların qırılmazlığını təmin edərək, müharibə riskini qeyri-səmərəli hala gətirir.

Şübhəsiz ki, Cənubi Qafqazın qlobal geoiqtisadiyyatın mühüm qovşağına çevrilməsi Azərbaycanın müasir enerji infrastrukturu və strateji logistik şəbəkəsi ilə birbaşa əlaqəlidir. Azərbaycan onilliklər ərzində Avropanın enerji təhlükəsizliyində etibarlı "lövbər" rolunu oynayıb və sülh perspektivləri bu statusu keyfiyyətcə yeni mərhələyə qaldırır. Münaqişə risklərinin minimallaşması yeni investisiya axınlarına, alternativ marşrutlara və Xəzər hövzəsinin potensialından daha geniş istifadəyə yol açır. Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin kəsişmə nöqtəsi olan bu coğrafiya, beynəlxalq ticarət zəncirlərinin daha çevik və dayanıqlı olmasına misilsiz töhfə verir.

Yekun olaraq, Dövlət Departamentinin bəyan etdiyi yeni siyasi xətt bir mesajı qətiləşdirir: Cənubi Qafqazda sülh və tərəqqi artıq kənar güclərin qarşıdurma müstəvisində deyil, Azərbaycan kimi suveren dövlətlərin iradəsi, beynəlxalq hüququn aliliyi və qarşılıqlı iqtisadi maraqlar üzərində bərqərar olmalıdır.

Bununla bağlı XQ-yə danışan **Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev** bildirdi ki, Azərbaycan xarici siyasətini qarşılıqlı hörmət, suverenlik bərabər hüquqlu dövlət kimi əməkdaşlıq üzərində qurur: "Ölkəmiz əməkdaşlıq formatını təzyiq və diktə ilə deyil, milli maraqlara cavab verən, eyni zamanda, qarşılıqlı fəaliyyət prinsiplərinə uyğun davam etdirməyin tərəfdarıdır. Azərbaycan regional təhlükəsizliyə və beynəlxalq kommunikasiyaya verdiyi töhfə ilə Cənubi Qafqazda yeni geosiyasi reallıq formalaşdırıb. Zəngəzur dəhlizi Türkiyə və Mərkəzi Asiya ilə inteqrasiyanı gücləndirən ciddi strateji layihədir. Bu məsələ siyasi təsir aləti kimi deyil, iqtisadi inteqrasiya və nəqliyyat-kommunikasiya sabitliyinin artırılması baxımından önəmlidir. Azərbaycan bu layihəni yalnız öz milli maraqları üçün deyil, iqtisadi inkişaf, regional əlaqələr və təhlükəsizliyin möhkəmlənməsi baxımından qiymətləndirir".



Komitə sədri qeyd etdi ki, ABŞ–Azərbaycan münasibətləri bərabər hüquqlu dialoq və qarşılıqlı hörmət prinsipi əsasında qurulub: "Düşünürəm ki, bu gün Azərbaycanla ABŞ arasında olan münasibət diplomatik və diaspora səviyyəsində hər istiqamətdə, ən yüksək formada davam edir və burda parlamentlərarası, dövlətlərarası və hökumətlərarası münasibətlərimiz çox mühüm rol oynayır. Vaşinqtonun Bakı ilə işləməyə hazır olduğunu bəyan etməsi təkcə diplomatik ritorika deyil, Cənubi Qafqazda yeni siyasi mərhələnin başlandığını göstərən ciddi siqnaldır. Bu mərhələdə Azərbaycan regional sabitliyin, siyasi dialoqun və beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən biri kimi çıxış edir. ABŞ isə bu reallığı qəbul edərək, sülhün davamlılığı və regionun gələcəyi naminə məhz Bakı ilə strateji əməkdaşlığa üstünlük verir. Bu əməkdaşlıq isə yalnız iqtisadi dividendlər deyil, ilk növbədə Cənubi Qafqazda uzunmüddətli siyasi sabitliyin təmin olunması baxımından həlledici əhəmiyyət daşıyır".

Beləliklə, bu, Cənubi Qafqaz üçün, sadəcə, bir seçim deyil, regionun gələcək taleyini müəyyən edən yeni inkişaf arxitekturasının təməl sütunudur. Azərbaycan bu yeni geosiyasi konfiqurasiyanın mütləq mərkəzində qərarlaşaraq, sülhü iqtisadi inteqrasiya, strateji tranzit marşrutları və qlobal enerji təhlükəsizliyi ilə üzvi şəkildə birləşdirən xətt nümayiş etdirir. Rəsmi Vaşinqtonun bu strateji kursa birmənalı dəstəyi isə Cənubi Qafqazın qlobal iqtisadi sistemə inteqrasiya olunmuş, kənar təsirlərdən azad, sabit və proqnozlaşdırılan bir güc mərkəzinə çevrilməsi niyyətini təsdiqləyir. Bu tərəfdaşlıq təkcə regional rifahın bərpası deyil, həm də beynəlxalq siyasi sistemin gələcək sabitliyi və Avrasiya coğrafiyasının təhlükəsizliyi baxımından həlledici siyasi qələbədir. Ümumiyyətlə, ABŞ-ın sülhün davamlılığı və regionun gələcəyi naminə məhz Bakı ilə strateji əməkdaşlığa üstünlük verməsi həm iqtisadi dividendlər, həm də uzunmüddətli siyasi sabitliyin təmin olunması baxımından həlledici xarakter daşıyır.

Pünhan ƏFƏNDİYEV
XQ

Hindistanın "çoxvektorlu" siyasətinin görünməyən tərəfi

Yeni Dehlinin məkrli geosiyasi oyunu

Qlobal güc balansının dəyişməsi fonunda Hindistan özünü "müstəqil geosiyasi aktor", "qlobal cənubun liderlərindən biri" kimi təqdim etməyə çalışır. Lakin son hadisələr göstərir ki, Yeni Dehlinin çoxvektorlu siyasət adlandırdığı kurs, əslində, çevik balanslaşdırmadan daha çox, situativ maraqlara əsaslanan, tərəfdaşları tez dəyişə bilən və etimadı sarsıdan taktiki oyun təsiri bağışlayır. Fevralın 2-də ABŞ və Hindistan arasında əldə olunan ticarət razılaşması bu tendensiyanın parlaq nümunələrindən biri kimi qiymətləndirilə bilər.

ABŞ Prezidenti Donald Tramp və Hindistanın baş naziri Narendra Modi arasında əldə edilən razılaşma formal olaraq ticarət maneələrinin azaldılması kimi təqdim olunsa da, bu sənədin arxasında daha geniş geosiyasi razılaşmanın dayandığı açıq hiss olunur. Razılaşmaya əsasən, Vaşinqton Hindistan mallarına tətbiq olunan tarifləri 25 faizdən 18 faizə endirir, Hindistan isə ABŞ mallarına tətbiq edilən tarifləri və digər iqtisadi maneələri sıfırlamağa razılaşır.

Ən çox diqqətçəkən məqam Trampın Hindistanın Rusiya neftinin alışını dayandırması barədə razılıq əldə olunduğunu bildirməsidir. Bu açıqlama Yeni Dehlinin son illər formalaşdırdığı "strateji müstəqillik" konsepsiyasına ciddi zərbə kimi qiymətləndirilir. Maraqlıdır ki, Hindistan mediası bu məqamı vurğulamaqdan yayınır, Vaşinqton isə onu razılaşmanın əsas elementi kimi təqdim edir. Bu fərqli şərhlər Yeni Dehlinin daxili ictimai rəy qarşısında manevr cəhdlərini göstərir.

Hindistan cəmiyyətində ölkənin böyük və müstəqil güc kimi təqdim olunması siyasi legitimliyin vacib elementidir. Buna görə ABŞ-ın diktə etdiyi qərarlar Modi hökuməti üçün daxili risk yaradır. Təsadüfi deyil ki, müxalifət lideri Rahul Qandi bu razılaşmanı sərt tənqid edərək, Modinin "ölkəni satdığını" bəyan edib. Bu tənqid təkcə daxili siyasi polemika deyil, həm də Hindistanın xarici siyasət kursunun dayanıqlılığı barədə ciddi suallar doğurur.

Son illər Hindistan Rusiya neftinin əsas alıcılarından birinə çevrilmişdi. Bu, Qərbin Moskvaya qarşı sanksiyaları fonunda Yeni Dehliyə ucuz enerji resursları əldə etmək imkanı vermişdi. Amma görünən odur ki, Hindistan artıq enerji idxalı strategiyasını yenidən nəzərdən keçirir. Dövlətə məxsus "Bharat Petroleum" şirkətinin İraq və Omanla müqavilələr bağlaması, BƏƏ-dən Murban neftinin alınmasının nəzərdən keçirilməsi Yeni Dehlinin enerji portfelini sürətlə dəyişdirdiyini göstərir. Bu addım bir tərəfdən iqtisadi diversifikasiya kimi təqdim olunsa da, digər tərəfdən Hindistanın tərəfdaşlara münasibətdə opportunist yanaşmasını ortaya qoyur. Ölkə illər boyu Rusiya ilə enerji əməkdaşlığından maksimum fayda götürdükdən sonra ABŞ təzyiqi fonunda həmin əlaqələri zəiflətməyə hazır görünür.

Hindistanın etibarsız siyasətinin digər nümunəsi İranın Çabahar limanı layihəsi ətrafında baş verən proseslərdir. Yeni Dehli uzun illər bu limanı Pakistanı kənarlaşdıran alternativ ticarət marşrutu kimi təqdim edirdi və layihəyə yüz milyonlarla dollar investisiya vəd etmişdi. Hətta 2024-cü ildə limanın idarə olunması üçün İranla 10 illik müqavilə imzalanmışdı. Lakin ABŞ-ın İrana qarşı sanksiyalarının sərtləşməsi fonunda Hindistan hökumətinin növbəti maliyyə ili üçün Çabahar layihəsinə vəsait ayırmaqdan imtina etməsi Yeni Dehlinin geosiyasi tərəfdaşlıqlara münasibətinin əsl mahiyyətini açdı. Vaşinqtonun mümkün təzyiqi qarşısında Hindistanın illərlə strateji layihə kimi təqdim etdiyi təşəbbüsdən geri çəkilməsi Yeni Dehlinin tərəfdaşları üçün etibarını sual altına qoyur.

Hindistanın Yaxın Şərq ölkələri və Avropa ilə birləşdirilməsini nəzərdə tutan Hindistan–Yaxın Şərq–Avropa İqtisadi Dəhlizi (IMEC) layihəsi də Yeni Dehlinin geosiyasi kursunda dönüşün göstəricilərindəndir. ABŞ-ın təşəbbüsü ilə formalaşdırılan bu layihə Çinin "Bir kəmər, kir yol" təşəbbüsünə alternativ kimi təqdim olunur. Hindistan iqtisadiyyatı sürətlə böyüyür, ÜDM 4 trilyon dollara yaxınlaşır və ölkə karbohidrogenlərin əsas idxalçılarından birinə çevrilir. Bu baxımdan IMEC layihəsi Yeni Dehliyə qlobal logistika sistemində daha böyük rol qazandıra bilər. Lakin bu layihədə iştirak Hindistanın Qərb blokuna daha sıx inteqrasiyası deməkdir və bu da ölkənin uzun illər balanslaşdırdığı çoxvektorlu siyasətin tədricən sıradan çıxmasına səbəb olur.

Son illər Hindistan Ermənistanla hərbi-texniki əməkdaşlığı genişləndirərək Cənubi Qafqazda aktiv rol oynamağa çalışır. Yeni Dehli Ermənistanı silahlandırmaqla regionda geosiyasi mövqe qazanmağa cəhd edir. Lakin Hindistanın Rusiya və İran kimi strateji tərəfdaşlarına münasibətdə nümayiş etdirdiyi davranış Ermənistan üçün ciddi siqnal olmalıdır. Hindistan üçün Ermənistan daha çox regional təsir aləti və geosiyasi poliqon funksiyası daşıyır. Yeni Dehlinin tarixən tərəfdaşlarını situativ maraqlara görə dəyişdirməsi nəzərə alınarsa, gələcəkdə Qərb və ya digər böyük güclərlə münasibətlərdə Ermənistanın da asanlıqla qurban verilə biləcəyi istisna edilmir. Hindistanın İran və Rusiya ilə münasibətlərdə atdığı addımlar göstərir ki, Yeni Dehli üçün strateji loyallıq deyil, qısamüddətli geosiyasi dividendlər prioritetdir.

Yeni Dehli uzun illər öz xarici siyasətini "strateji muxtariyyət" prinsipi üzərində qurduğunu bəyan edib. Lakin son razılaşmalar göstərir ki, bu konsepsiya reallıqda getdikcə zəifləyir. ABŞ ilə ticarət razılaşması, enerji siyasətində dəyişiklik, Çabahar layihəsinin qeyri-müəyyən gələcəyi və Qərb təşəbbüslərinə inteqrasiya Hindistanın müstəqil oyunçu imicini sarsıdır.

Hindistanın son geosiyasi addımları göstərir ki, Yeni Dehli qlobal siyasətdə praqmatik, eyni zamanda, etibarsız tərəfdaş kimi formalaşır. ABŞ ilə razılaşma qısamüddətli iqtisadi üstünlüklər gətirə bilər, lakin bu, Hindistanın Rusiya, İran və digər tərəfdaşlarla münasibətlərinə ciddi zərbə vurur. Bu tendensiya davam edərsə, Hindistanın regional və qlobal layihələrdə iştirak edən tərəfdaşları Yeni Dehli ilə əməkdaşlığın dayanıqlılığı barədə daha ciddi düşünməyə məcbur qalacaqlar. Ermənistan nümunəsi göstərir ki, Hindistanın geosiyasi oyunlarında müttəfiqlər çox vaxt müvəqqəti alət rolunu oynayır və dəyişən beynəlxalq konfiqurasiyada asanlıqla qurban verilə bilər.

Beləliklə, Hindistanın "çoxvektorlu diplomatiya" kimi təqdim etdiyi siyasət getdikcə daha çox taktiki manevrlər toplusuna çevrilir və bu kurs Yeni Dehlinin beynəlxalq sistemdə etibarlı tərəfdaş imicinə ciddi suallar yaradır.

Tacir SADIQOV
XQ

Ölkəmizin təmiz enerji istiqrazları beynəlxalq mükafata layiq görülüb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "yaşıl" təyinatlı istiqrazları İngiltərənin aparıcı maliyyə və biznes analizi nəşri olan "Beynəlxalq Maliyyə Jurnalı"nın təşkil etdiyi "Beynəlxalq Maliyyə Mükafatları – 2025"-in laureatı seçilib. Bu qiymətli tədavül vasitəsi "Yaşıl layihələrin maliyyələşdirilməsi üzrə ən yaxşı yeni istiqraz – Enerji sektoru – Azərbaycan" nominasiyası üzrə mükafata layiq görülüb. Mükafat "SOCAR Kapital" Məhdud Məsuliyyətli Cəmiyyətə təqdim olunub.

Qurumun bu mühüm beynəlxalq uğuru ilə bağlı məlumat Azərbaycan Dövlət Neft Şirkətinin sosial şəbəkədəki hesabında yer alıb. Bildirilib ki, bu mükafat SOCAR-ın davamlı inkişaf strategiyasının, "yaşıl enerji" layihələrinə verdiyi ardıcıl dəstəyin və bərpaolunan enerji təşəbbüslərinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin bariz göstəricisidir.

Xatırladaq ki, "SOCAR Kapital" MMC 2016-cı il avqustun 29-da Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qeydiyyata alınıb. Adıçəkilən təsisat SOCAR Qrup şirkətlərinin yerli və qlobal maliyyə bazarlarına çıxışını təmin etmək, investorlara Azərbaycan Dövlət Neft Şirkətinin gəlirlərindən pay əldə etmək üçün istiqrazlar kimi alətlər təqdim edən bir platformadır.

Bu platforma başda Azərbaycan vətəndaşları olmaqla bütün investorların Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin gəlirlərindən pay əldə etməsi üçün geniş imkanlar yaradır. "SOCAR Kapital" həm də ölkəmizin ən böyük vergi ödəyicisi olan Dövlət Neft Şirkəti tərəfindən dəstəklənən, etibarlı bir investisiya platformasıdır.

Öz fəaliyyətində etibarlılıq, şəffaflıq, konfidensiallıq, peşəkarlıq və operativlik dəyərlərini əsas tutan "SOCAR Kapital" MMC vasitəsilə yüksək gəlirli (məsələn, 4,5 faiz illik) korporativ istiqrazlara investisiya etmək mümkündür. Qurum 5 il müddətində və yüksək illik gəlirlilik təklif edən "yaşıl" istiqrazlar da daxil olmaqla digər qiymətli kağızların emissiyasını və dövriyyəsini təmin edir. SOCAR-ın "yaşıl" təyinatlı istiqrazları üzrə ilk faiz ödənişi 2025-ci il 10 iyunun 10-da həyata keçirilib. Artıq 1-ci faiz ödənişi nəticəsində 3 milyon ABŞ dolları məbləğində vəsait istiqraz sahiblərinin hesablarına köçürülüb.

Yeri gəlmişkən, Azərbaycan Dövlət neft Şirkəti daxili kapital bazarları üçün ilk istiqraz buraxılışını 2016-cı, ikincini isə 2021-ci ildə həyata keçirib. Qurumun istiqrazları tədavülə buraxılan vaxtdan indiyədək ən çox ticarət olunan korporativ qiymətli kağızdır.

SOCAR-ın "yaşıl istiqraz"larının buraxılışına 2025-ci il yanvarın 15-də start verib. Ölkəmizin "yaşıl" enerji sahəsində atdığı geniş və məqsədyönlü addımlara töhfə vermək məqsədilə satışa buraxılmış "yaşıl" təyinatlı istiqrazlar investorların böyük marağına səbəb olub. Bu da təsadüfi deyil. Nominal dəyəri 1000 dollar olan istiqrazlar sahiblərinə illik 6 faiz gəlir qazandırmaq imkanı yaradır.

Ümumi buraxılış məbləği 200 milyon dollar olan "yaşıl istiqraz"ların kupon ödənişləri hər 3 aydan bir ödənilir. İstiqrazların "yaşıl" adlandırılmasına gəldikdə isə, bu heç də təsadüfi deyil. Belə ki, istiqrazlardan əldə olunan vəsaitin "SOCAR Green" MMC şirkətinin bərpaolunan layihələrinə və investisiyalarına sərf ediləcəyi nəzərdə tutulur.

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etmiş ölkəmiz üçün "yaşıl enerji"nin inkişafı və təşviqi məsələləri prioritet əhəmiyyət daşıyır. Bu baxımdan "Yaşıl Gəlir, Yaşıl Gələcək" şüarı altında buraxılan istiqrazlar vətəndaşlara etibarlı və sabit gəlir qazandırmaqla yanaşı, Azərbaycanın "yaşıl enerji" sahəsindəki təşəbbüslərini də dəstəkləmək məqsədi daşıyır. SOCAR bu emissiya vasitəsilə ekoloji cəhətdən təmiz enerji mənbələrinin inkişafına töhfə vermək və sürətləndirmək niyyətindədir.

Xatırladaq ki, Azərbaycan Dövlət Neft Şirkəti bərpaolunan enerji, dekarbonizasiya və enerji səmərəliliyi sahəsində, xüsusilə damüstü günəş panelləri, məşəldə qazın yandırılmasının sıfırlanması və "yaşıl" istiqrazlarla bağlı layihələri "SOCAR Green" törəmə müəssisəsi vasitəsilə həyata keçirir. Şirkət Dünya Bankı ilə əməkdaşlıq edərək "yaşıl enerji" dəhlizlərinin inkişafına töhfə verir.

SOCAR-ın əsas "yaşıl" təşəbbüslərinin sırasında "SOCAR Green" və "Milla Dairy" məhdud məsuliyyətli cəmiyyətlərinin sənaye müəssisələrində damüstü günəş panellərinin quraşdırılması ilə "yaşıl" enerji istehsalı mühüm yer tutur. Şirkət Dünya Bankının "2030-cu ilədək məşəldə rutin yandırılmaların sıfıra endirilməsi" təşəbbüsünün fəal iştirakçısıdır.

Bununla yanaşı, Xəzər regionunda bərpaolunan enerji layihələrinin reallaşdırılması və dekarbonizasiya istiqamətində Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində işlər görülür. "SOCAR Karbamid" zavodu isə ekoloji səmərəlilik və rəqəmsallaşma səviyyəsinə görə Dünya İqtisadi Forumunun "Qlobal mayak" şəbəkəsinə üzv qəbul edilib. Bütün bu layihələr isə SOCAR-ın davamlı inkişaf strategiyası və dekarbonizasiya hədəfləri çərçivəsində reallaşdırılır.

Mirbağır YAQUBZADƏ
XQ

"Yaşıl enerji məkanı" ötən ilə yekun vurub

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 2025-ci il üzrə icrasına dair illik hesabat layihəsinin müzakirəsi məqsədilə "Yaşıl enerji məkanı" işçi qrupunun hibrid formada növbəti iclası keçirilib.

Toplantıya sədrlik edən energetika nazirinin müavini Samir Vəliyev "Yaşıl enerji məkanı" məqsədinin sosial-iqtisadi inkişaf strategiyasında mühüm yer tutduğunu və ölkəmizin gələcək inkişaf modelinin əsas sütunlarından biri olduğunu qeyd edib. Nazir müavini bildirib ki, bu istiqamətdə nəzərdə tutulan tədbirlər Azərbaycanın dayanıqlı, ekoloji cəhətdən təmiz və innovativ enerji sisteminə keçidini təmin etməklə yanaşı, qlobal iqlim məqsədlərinə də töhfə verəcək. S.Vəliyev ötən il üçün planlaşdırılmış 18 tədbirin icra vəziyyətini diqqətə çatdırıb, ümumilikdə, strategiyanın həyata keçirilməsinin müsbət dinamika ilə müşayiət olunduğunu vurğulayıb.

Sonra işçi qrupun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini Ramil Hüseyn 2025-ci il üçün nəzərdə tutulmuş tədbirlər və onların icrasına dair təqdimatla çıxış edib. İclasda hesabata dair rəy və təkliflər dinlənilib, müvafiq qeydlər aparılıb.

Qeyd edək ki, "Yaşıl enerji məkanı" işçi qrupunda Energetika Nazirliyi və İİTKM ilə yanaşı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Maliyyə, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Statistika Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Gömrük Komitəsi, SOCAR, Mərkəzi Bank, Azərbaycan İnvestisiya Holdinqi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Azərenerji", "Azərişıq", "Azəristiliktəchizat" açıq səhmdar cəmiyyətlərinin nümayəndələri təmsil olunur.

XQ

Milli süni intellekt layihələrinin beynəlxalq təqdimatı

Küveytdə Rəqəmsal Əməkdaşlıq Təşkilatının 5-ci Baş Assambleyası keçirilib. Mərasimdə ölkəmiz rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Nazirlikdən verilən məlumata görə, Baş Assambleya çərçivəsində süni intellektə dair dəyirmi masa müzakirələrində çıxış edən nazir müavini Samir Məmmədov ölkəmizdə süni intellekt sahəsində həyata keçirilən tədbir və layihələrdən danışıb. Nazir müavini Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycanın Süni İntellekt Strategiyası 2025-2028", Rəqəmsal İnkişaf Strategiyası, Süni İntellekt Akademiyası, eləcə də Azərbaycanın rəqəmsal məhsul və həlləri ("mygov", "SİMA, Digital Bridge" və s.) barədə ətraflı məlumat verib.

Baş Assambleya çərçivəsində S.Məmmədov Rəqəmsal Əməkdaşlıq Təşkilatının Baş katibi Deemah Al Yahya ilə görüş keçirib, Azərbaycanın rəqəmsal siyasəti və ölkəmizdə rəqəmsal inkişaf istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdırıb. Bununla yanaşı, Mərakeş, Pakistan, Keniya, Nigeriya və Omanın müvafiq qurumlarının rəhbər şəxsləri ilə keçirilən ikitərəfli görüşlər zamanı əməkdaşlığın prioritet istiqamətləri və perspektivləri üzrə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, "BMC Helix" və "500 Global" şirkətlərinin nümayəndələri ilə görüşdə əməkdaşlıq imkanları müzakirə edilib.

XQ

"SpaceX" və "xAI" şirkətləri birləşmə ərəfəsində

Superkompüterlərin kosmosda yerləşdirilməsi də gündəmdədir

İlon Mask bu həftə kosmik tədqiqat şirkəti "SpaceX" ilə süni zəka startapı "xAI"nı birləşdirmək niyyətindədir. Bu meqa-birləşmə, kosmosda güc mərkəzləri qurmaq ideyasını reallığa bir addım yaxınlaşdırır. "Reuters"in məlumatında qeyd olunur ki, NASA mühəndisləri artıq iki onillikdir yüksək enerji tələb edən hesablama qurğularını Yer əvəzinə kosmosa köçürməyi müzakirə edir. Eyni zamanda, "Alphabet" (Google) və Jeff Bezos-un "Blue Origin" şirkəti kimi böyük texnologiya oyunçuları da bu proqramla maraqlanır.

Mask uzaqgörən nəzəriyyələrə sərmayə qoymaq və onları həyata keçirmək bacarığı ilə tanınır. Onun əlində dünyanın ən sıx peyk buraxılış qatarı (raketləri), süni zəka startapı və Yerdən kosmosa qədər uzanan iri infrastruktur ideyası var. Mask bildirib: "Uzunmüddətli perspektivdə kosmosda qurulmuş süni zəka sistemi miqyaslandırmağın yeganə yoludur". O əlavə edir ki, Günəş enerjisindən maksimum yararlanmaq üçün belə layihələr geniş enerji mənbələrinə malik kosmik məkana köçürülməlidir. "Reuters" qeyd edir ki, bu birləşmə investorların diqqətini raketlər, peyklər və süni zəka sistemlərindən ibarət sıx bağlı ekosistem vasitəsilə süni zəka infrastrukturunun Yerdən kənara daşınmasına yönəldir. Eyni zamanda, "SpaceX"-in 1,5 trilyon dollarlıq mümkün IPO-suna hazırlaşdığı bildirilir.

"SpaceX" Federal Rabitə Komissiyasından 1 milyon ədəd Günəş enerjisi ilə işləyən peyk buraxmağa icazə istəyib. Bu peyklər orbital məlumat mərkəzi şəbəkəsi təşkil edəcək. Şirkət bunu "orbital məlumat-mərkəzi sistemi" kimi təsvir edib. İdeya tərəfdarları hesab edir ki, kosmosda yerləşən məlumat mərkəzləri Günəşdən fasiləsiz enerji alacağı və istini birbaşa kosmosa ötürə biləcəyi üçün yerüstü mərkəzlərə nisbətən daha sərfəli ola bilər. Lakin ekspertlər vurğulayır ki, bu konsept hələ illər sonra kommersiya baxımından reallaşa bilər: radiasiya, kosmik tullantılar, soyutma problemləri, gecikmə və yüksək istismar xərcləri kimi texniki risklər böyük maneələr yaradır. "Summit Ridge Group"-un qurucusu Armand Mussey deyib ki, belə layihələrin maliyyə səmərəliliyini modelləşdirmək çətindir, çünki texniki naməlumlar hələ dəqiq bilinmir. Buna baxmayaraq o əlavə edib: "Heç vaxt demə ki, yox" – Maskın əvvəlki uğurları belə xəyallara inamı artırır.

Kosmosda məlumat mərkəzləri ideyasının artıq "elmi fantastika" olmadığını "Space Agency" firmasının təsisçisi David Ariosto qeyd edib. Onun sözlərinə görə, İlon Mask müxtəlif sahələrdə özünü sübut edib və indi bu ideyanı reallaşdırmaq üçün güclü potensiala malikdir. Georgetown Universitetinin analitiki Kathleen Curlee bildirir ki, "SpaceX" "dünyanın ən fəal orbitə peyk buraxılış donanmasına nəzarət edir, Starlink vasitəsilə kosmik aparatların kütləvi istehsalını göstərib və kifayət qədər özəl kapital resurslarına çıxışı var" – bu isə şirkətə rəqibləri qarşısında ciddi struktur üstünlüyü verir. Google-da yüksək səviyyəli rəhbər Travis Beals isə layihə çərçivəsində süni zəka çiplərini kosmik radiasiyaya məruz qoyaraq test etdiklərini deyib. O bildirib ki, test olunan çiplər beş-altı illik kosmik missiya şəraitinə yaxşı dözüb. Google-un Suncatcher layihəsi prototiplərini 2027-ci ildə kosmosa göndərməyi planlaşdırır.



Ümumiyyətlə, "SpaceX" və "xAI" şirkətlərinin birləşdirilməsi İlon Maskın genişmiqyaslı kosmik infrastruktur arzularını konkretləşdirir. Reuters qeyd edir ki, Muskun şirkətləri raketlərdən peyklərə, peyklərdən isə verilənləri sosial şəbəkə vasitəsilə istifadəçiyə çatdıracaq bütün əsas elementlərə birbaşa nəzarət edir. Bu struktur üstünlüyü "SpaceX"-ə rəqiblərinə nisbətən ciddi avantaj qazandırır. Ancaq analitiklər xəbərdarlıq edir ki, kosmosda məlumat mərkəzləri yaratmaq hələ genişmiqyaslı texniki və iqtisadi çətinliklərlə üzləşir və bu xəyalın reallığa çevrilməsi onilliklər tələb edə bilər. Nəticədə, bu təşəbbüs süni zəka və kosmik texnologiyaların gələcəyi barədə qlobal müzakirələri daha da genişləndirəcək.

Nurlan ABDALOV
XQ

"Şərqi Azəri"də yeni çoxşaxəli quyu qazılacaq

2026-cı ildə "Azəri–Çıraq–Günəşli" (AÇG) yataqlar bloku üzrə "Şərqi Azəri" platformasında yeni çoxşaxəli quyunun qazılması planlaşdırılır. Bunu bp-nin Azərbaycan–Gürcüstan–Türkiyə regionunda quyular üzrə vitse-prezidenti Rassel Morris Bakıda keçirilən "IADC Drilling Caspian 2026" konfrans və sərgisində bildirib.

Onun sözlərinə görə, AÇG yatağından neftin maksimal hasilatı üçün laylara mümkün qədər çox giriş nöqtəsinə ehtiyac var. "Əgər bu quruda yerləşən yataq olsaydı, resurslardan tam istifadə etmək üçün hər yerdə quyular qazılardı. Dəniz şəraitində isə bu yanaşma mümkün deyil. Ona görə də çoxşaxəli quyu texnologiyası tətbiq olunur", – deyə vitse-prezident qeyd edib.

Rassel Morris bildirib ki, hazırda C44 çoxşaxəli quyusunun qazılması davam edir. 2026-cı ildə isə "Şərqi Azəri" platformasında daha bir belə quyunun qazılması nəzərdə tutulur. Səmərəliliyin artırılması üçün müxtəlif texnologiyalardan, o cümlədən yan lülənin qazılmasından istifadə olunduğunu vurğulayan mütəxəssisin sözlərinə görə, proqramın əsas xüsusiyyəti ondan ibarətdir ki, mövcud quyular saxlanılmaqla əlavə yan lülələr yaradılır və onlar ilkin quyu ilə birlikdə hasilata verilir. Bu yanaşma mövcud quyuların məhsuldarlığını qorumaqla yanaşı, yatağın resurslarından maksimum istifadə etməyə imkan verir.

Qeyd edək ki, Bakıdan, təxminən, 100 kilometr şərqdə yerləşən "Azəri–Çıraq–Günəşli" Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən ən iri neft yatağıdır.

XQ

Ötən il əkinlər 577 milyon manatlıq sığortalanıb

2025-ci ildə ölkə üzrə müxtəlif bitkiləri əhatə edən 391 min hektar əkin sahəsi sığortalanıb. Bu barədə XQ-yə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.

Bildirilib ki, ötən il əkin sahələrinin sığortası üzrə fermerlərlə Aqrar Sığorta Fondu arasında 56 min 518 sığorta müqaviləsi bağlanılıb. Sığorta müqavilələrinin sayı 2024-cü illə müqayisədə 5 faiz, 2023-cü illə müqayisədə isə 18 faiz artıb.

İl ərzində 127 min hektar payızlıq arpa sahəsi, 200 min hektar isə payızlıq buğda sahəsi sığortalanıb. Əkin sahələrinin sığortalanmasından 13 milyon manat aqrar sığorta haqqı toplanılıb. Bunun müqabilində isə sığorta müqavilələri üzrə əkin sahələrinə 577 milyon manat sığorta təminatı verilib. Sığorta təminatının məbləği 2024-cü illə müqayisədə 64 milyon manat, 2023-cü illə müqayisədə isə 71 milyon manat artıb.

XQ

Sığorta sektoru davamlı inkişafı fəal dəstəkləyir

Ölkəmizdə sistemli əsaslarla tətbiq olunan və 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyası, həmçinin fundamental çağırışlar fonunda müəyyənləşdirilmiş 2030-cu ilə dair Milli Prioritetlər orta və uzunmüddətli perspektivdə dayanıqlığın və davamlı inkişafın başlıca təminatçısıdır. İqtisadi yüksəliş, maliyyə sabitliyinin qorunması və sosial rifahın təmin olunması ölkəmizdə vətəndaşyönümlü sosial-iqtisadi çağırışların başlıca parametrlərini təşkil edir.

Bu inkişaf göstəriciləri yerli sığorta sektorundan da yan ötmür. Artıq 5-ci ildir ki, yerli sığorta bazarı stabil böyümə tendensiyasını təmin etmiş vəziyyətdədir. Daxili sığorta bazarımızın cari vəziyyətini bütün detalları ilə Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru, Türk Dünyası Sığorta Birliyinin həmtəsisçisi Elmar Mirsalayevlə həmsöhbət olduq.

– 2025-ci ilin yekun sığorta icmalı açıqlandı. Maraqlıdır, Azərbaycanın sığorta bazarı bu müddətdə necə böyüdü və hansı istiqamətlər üzrə inkişaf müşahidə olundu?

– Bildirmək istəyirəm ki, yerli sığorta sektorumuzdakı inkişaf və ümumi bazar böyüməsi 2025-ci ildə də bir tendensiya olaraq qeydə alındı. Bu mənada Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 2025-ci il üzrə açıqlanmış yekun sığorta icmalına istinadən deyə bilərəm ki, Azərbaycan sığorta bazarı ötən hesabat dövrü ərzində 1 milyard 504 milyon manat sığorta haqqı təmin etməklə 11,2 faiz böyümüş oldu. Maraqlıdır ki, analoji artım sığorta ödənişlərində də qeydə alındı. Belə ki, 2025-ci il ərzində baş vermiş sığorta hadisələrinə görə, ümumilikdə 920,3 milyon manat sığorta ödənişi edilib ki, bu da 2024-cü ilin nəticələri ilə müqayisədə 22,3 faiz çoxdur.

Ümumi dinamikanı siniflər üzrə təhlil etsək, görərik ki, həyat sığortası sinfi üzrə haqlar 16,2 faiz, ödənişlər 3 faiz, qeyri-həyat sığortası sinfi üzrə isə haqlar 5,3 faiz, ödənişlər isə 3 faiz artıb. Bu da öz növbəsində onu deməyə əsas verir ki, ümumi bazar böyüməsində bütün sığorta sinifləri kompleks iştirak etmişdir.

Sektorial böyümədə aktiv rol oynayan sığorta növləri sırasında isə biz Həyatın yaşam sığortası (701 milyon manat yığım), Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (182,1 milyon manat yığım), Könüllü tibbi sığorta (133 milyon manat yığım), İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (101,5 milyon manat yığım), Əmlakın yanğından və digər risklərdən sığortası (85,5 milyon manat yığım), Daşınmaz əmlakın icbari sığortası (80,8 milyon manat yığım), Kasko (78,6 milyon manat yığım) və Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası (12,8 milyon manat yığım) kimi sığorta növlərini misal göstərə bilərik.

Heç təsadüfi deyil ki, sığorta sektoru üzrə qeydə alınmış ümumi bazar böyüməsi sığorta haqlarının ÜDM-dəki çəkisinə də təsirsiz ötüşməyib. Belə ki, 2025-ci il üzrə ölkəmizdə Ümumi Daxili Məhsul istehsalına dair göstəricini və sığorta haqlarının ümumi həcmini nəzərə alsaq, 2025-ci ildə sığorta sektorunun ÜDM-dəki payı 1,07 faizdən 1,16 faizə, qeyri-neft-qaz sektoru üzrə ÜDM-də payı isə 1,58 faizdən 1,63 faizə yüksəlib.

Xüsusilə vurğulamaq istəyirəm ki, sektor üzrə qeydə alınan dinamik artım və sistemli böyümə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin ölkəmizdə maliyyə sisteminin dayanıqlı inkişafının təmin olunması yönündə həyata keçirdiyi ümumrespublika əhəmiyyətli strateji inkişaf siyasətinin, o cümlədən, sığorta sektoruna nəzarət orqan olan Azərbaycan Mərkəzi Bankının uğurla icra etdiyi səmərəli nəzarətedici və tənzimləyici missiyasının bariz göstəricisidir.

– Yığımlarla yanaşı, sığorta ödənişlərində də artım qeydə alınıb. Ötən il baş vermiş sığorta hadisələrinin intensivliyi nəyi göstərir?

– Sığorta fəaliyyəti bədbəxt hadisə, ziyan ehtimalı ilə bağlıdır. Məhz bu səbəblə də sığorta xidmətləri daim aktualdır. Bu reallıq ötən il baş vermiş hadisələrdə bir daha özünü göstərdi. Hadisələrin intensivliyi və hadisələr baş verəndən sonra yarana biləcək ciddi maliyyə itkilərinə 3 real faktla münasibət bildirmək istəyirəm. Məsələn, 21 fevral-2 mart 2025-ci il tarixlərdə ölkə ərazisində qeydə alınmış şaxtalı-qarlı hava şəraiti nəticəsində baş vermiş hadisələrə görə sığorta şirkətlərinə 4414 sığortalı vətəndaş müraciəti daxil olmuşdur ki, nəticədə aparılan qiymətləndirməyə əsasən, ümumilikdə 2 milyon 708 min manat sığorta ödənişi edilmişdi.

Daha bir fakt, 20-31 mart 2025-ci il bayram günlərində baş vermiş hadisələrə görə, sığorta şirkətlərinə 2634 müraciət daxil olmuş, 2 milyon 550 min manat sığorta ödənişi edilmişdi. Ötən illə bağlı daha bir fakt: 15-16 mart 2025-ci il, cəmi 2 gün, ölkə ərazisində normadan artıq yağan yağış nəticəsində 769 zərər faktı və 300 min manata yaxın sığorta ödənişi qeydə alındı.

Təəssüf ki, hadisələr bu il də davam edir. Real hadisələr əsasında misallar göstərim. Məsələn, 31 dekabr 2025-ci il-4 yanvar 2026-cı il Yeni il bayramı günlərində baş vermiş hadisələrə görə 2156 sığortalı vətəndaş zərər gördü və onlara ümumilikdə 1 milyon 500 min manata yaxın ödəniş edildi. 20 yanvar 2026-cı il – qarlı-şaxtalı hava şəraiti səbəbilə 1 günə 484 sığorta hadisəsi qeydə alındı və nəticədə 300 min manata qədər ödəniş edildi.

Real hadisələrə əsaslanan faktlardan da göründüyü kimi hadisələr intensiv və gözlənilməzdir, yaranan zərər məbləğləri isə göz önündədir. Məhz bu kimi hallara istinadən əminliklə deyə bilərik ki, vətəndaşlarımız öz risklərini, maliyyə sabitliklərini yalnız sığorta xidmətləri ilə təminat altına ala bilərlər.

– İstənilən sahədə maarifləndirmə başlıca istiqamətlərdəndir. Bəs sığorta sektoru maarifləndirmə ilə bağlı nə kimi işlər görür?

– Maliyyə xidmətlərinin sürətlə inkişaf etdiyi, təkmilləşdiyi əsrimizdə maliyyə savadlılığının, ələlxüsus da sosial-iqtisadi müdafiə mexanizmi olan sığorta ilə bağlı maarifləndirmənin təşkili təkcə bu gün üçün yox, bütün dövrlər üçün aktual mövzudur. Bu istiqamətdə də sığorta sektorumuz sistemli tədbirlər həyata keçirir. Belə ki, bununla əlaqədar olaraq, hələ 2020-ci ildə Azərbaycan Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosu arasında "Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin sistemli və ardıcıl həyata keçirilməsinə dair qarşılıqlı əməkdaşlıq haqqında" Memorandum imzalanmışdı. Və müvafiq memorandumdan irəli gələrək artıq 6-cı ildir ki, ölkə ərazisində genişmiqyaslı sığorta maarifləndirməsi işləri aparılır. Bu tədbirlər, açıq və qapalı məkanlarda sığorta təşviqatıyla, jurnalistlər arasında yazı müsabiqələri ilə, media kanallarında mütəmadi olaraq sığortaya dair maarifləndirici materialların yayımı ilə sistemli şəkildə aparıldı.

Artıq 5 illik marrifləndirmə dönəminin yekununda dönüb arxaya baxdığımız zaman aparılan tədbirlərin öz uğurlu nəticələrini verməyə başladığını görə bilirik. Belə ki, sığorta bazarımızda 2021-ci ildə 16 faiz, 2022-ci ildə 18 faiz, 2023-cü ildə 26 faiz, 2024-cü ildə 11 faiz və 2025-ci ildə 11 faiz böyümə qeydə alındı.

Maarifləndirmə tədbirlərinin davamlılığı onu deməyə əsas verir ki, yerli bazar bu templə də böyüməyə davam edəcəkdir. Çünki maarifləndirmə insanlarda risk fərqindəliyi formalaşdırır, məlumatlandırır və nəticə etibarilə sığortaya əlçatanlığı artırır.

– Xarici təcrübə necə öyrənilir? Beynəlxalq əməkdaşlıqda hansı yeniliklər var?

– 2025-ci il həm yerli sığorta sektoru, həm də ümumilikdə türk dövlətlərinin sığortaçıları üçün "Türk Dünyası Sığorta Birliyi"-nin Azərbaycanın Şuşa şəhərində keçirilən birinci Assambleyasına görə xüsusilə yaddaqalan oldu.

Assambleya Azərbaycan Mərkəzi Bankının strateji dəstəyi, Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının iştirakı ilə baş tutdu. Assambleyada Azərbaycan Mərkəzi Bankının rəhbərliyi, Milli Məclisin deputatları, Türk Dövlətləri Təşkilatının rəsmiləri, habelə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Şimali Kipr Türk Respublikasının maliyyə requlyatorları və sığorta assosiasiyalarının nümayəndələri iştirak etdilər.

Assambleya çərçivəsində Türk Dünyası Sığorta Birliyinin Türk Dövlətləri Təşkilatının məqsəd və prinsiplərinə əsaslanaraq yenidən formalaşdırılmasına dair "Proklamasiya sənədi" də imzalandı. Bununla da Birliyə 5 təsisçi üzvdən əlavə 3 ölkənin (Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası) sığorta assosiasiyaları da müşahidəçi qismində daxil oldular.

Assambleyada "Türk dünyası sığorta sənayesində requlyativ yanaşmalar" və "Türk Dünyası Sığorta Birliyi: qarşıda duran hədəflər və perspektivlər" adlı iki panel üzrə sektor əhəmiyyətli aktual mövzular ətrafında geniş müzakirlər aparıldı.

Sonda Türk Dünyası Sığorta Birliyinin 2026-cı ildə nəzərdə tutulan assambleyasının keçiriləcəyi ölkə də bəlli oldu. Birlik üzvlərinin yekdil qərarı ilə Türk Dünyası Sığorta Birliyinin növbəti assambleyası 2026-cı ildə Türkiyədə keçiriləcəkdir.

Xatırladaq ki, Türk Dünyası Sığorta Birliyi 2022-ci il mayın 24-də Türkiyənin İstanbul şəhərində keçirilən Beynəlxalq Sığorta Zirvəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın sığorta assosiasiyalarının üzvlüyü ilə təsis edilib.

– 2025-ci ilin sığorta icmalından söz açdınız. təhlil etdiniz. Bəs 2026-cı ildə bazar göstəriciləri necə dəyişə bilər?

– Bu gün əminliklə deyə bilərik ki, sığorta sektorumuz davamlı və dayanıqlı böyümə xətti üzrə sağlam addımlarla irəliləyir. Bu böyümə tendensiyasını növbəti dövrlərdə də müşahidə edəcəyimizə inanırıq. Ölkə iqtisadiyyatının va maliyyə sisteminin əsas böyümə və hədəf indikatorlarını müəyyənləşdirən və ölkə başçısı tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədlərində sığorta sektorunun böyüməsinə dair hədəf minimumu 10 faiz həcmində müəyyənləşdirilmişdir. Sevinc hissi ilə bildirmək istəyirəm ki, sığorta sektoru olaraq artıq 5-ci ildir ki, biz bu hədəf minimumunu üstələyirik.

Həyata keçirilən davamlı islahatlara və sektorun aktiv fəaliyyət qabiliyyətliliyinə arxalanaraq əminliklə deyə bilərəm ki, 2026-cı ildə də bazar böyüməsi davam edəcək və bu böyümə göstəricisi ən az 10 faiz həcmində özünü göstərə biləcəkdir.

Böyümə istehlakçı artımı deməkdir, böyümə həm də inam deməkdir. Sevinirik ki, artıq vətəndaşlarımız öz risklərinin fərqinə varır, o riskləri sığorta mexanizmi ilə idarə edib xərclərini təminat altına ala bilir. Və artıq vətəndaşlarımız da bu reallığı qəbul edir ki, həyat sığorta ilə rahatdır. Məsələyə qlobal aspektdən yanaşsaq güclü sığorta güclü iqtisadiyyat, güclü iqtisadiyyat isə güclü Azərbaycan deməkdir.

Müsahibəni qələmə aldı:
Nurlan ABDALOV
XQ

Qayıdışın akkordları

Azad, abad Seyidbəylinin yeni dövranı

Xocalının bu gözəl kəndinə həyat yenidən qayıdır

Bu dəfə yolumuz Xocalı rayonunun Seyidbəyli kəndinədir. Xankəndidən üzüyuxarı Qırxqız dağının ətəklərində yerləşən bu kəndə həyəcansız, duyğusuz getmək mümkün deyil. Yolboyu təbiətin gözəllikləri göz oxşayır, insanın ruhu dincəlir. Sanki, Tanrı bu yerləri xüsusi sevgilə yaradıb, dağına-dərəsinə, meşələrinə, çəmənlərinə əsrarəngiz özünəməxsusluq bəxş edib. Ətrafda görünən hər şeyi göz yaddaşına köçürüb saxlamaq istəyirsən.

Azadlığına qovuşmuş bölgənin yollarının səni həyatın yenidən qayıtdığı azad ata-baba yurdlarımıza aparması heç vaxt adiləşməyəcək xoşbəxtlik duyğusu, qürur və həyəcan doğurur. Bu, həsrətin və acıların bitdiyi, bir vaxtların ən böyük arzularının, xəyalların gerçəkləşdiyi reallığının bəxş etdiyi xoş hisslərdir.

Ad tarixin möhürüdür

Seyidbəyli kəndinin adı ilk dəfə XIX əsrin əvvəllərində dəyişdirilib. Başqa ölkələrdən Qarabağa köçürülən erməni ailələrinin bir qismi Seyidbəylidə məskunlaşdırıldıqdan sonra kənd Seyidişen adlandırılıb. Maraqlıdır ki, həmin vaxt ermənilər bu yerin əzəli adını özününküləşdirmək istəsələr də, adın əvvəlindəki "seyid" hissəsini dəyişə bilməyiblər. Çünki ermənilərdə seyid olmur. 1992-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi kəndin keşmiş adını bərpa edib. Ancaq elə həmin vaxtlarda erməni separatçılarının işğal etdikləri Seyidbəylini bu dəfə də Qarabağdakı xunta rejimi "Xaçın" adlandırıb.

Rəşadətli ordumuzun 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin 19-20 sentyabrında Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatında qazandığı şanlı qələbələr sayəsində torpaqlarımızı işğaldan tam və həmişəlik azad etməsindən sonra Seyidbəylinin tarixi adı da geri qayıdıb. Tarixi ədalətin bərpa olunması ilə ermənilərin Seyidbəyliyə qoyduqları eybəcər adlar da çoxdan cəhənnəmə gedib.

Qayıdış xoşbəxtliyi bir ömrə bərabərdir

Seyidbəyli kəndi ilk köç həyəcanını 2025-ci il sentyabrın 13-də yaşayıb. Həmin gün Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ilkin mərhələdə 30 nəfərdən ibarət 9 ailə öz ata-baba yurduna dönüb. Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışının davam etməsi nəticəsində bu gün kənddə yaşayanların sayı artıb, əməlli-başlı canlanma hiss olunur.

Burada dövlət tərəfindən sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılıb, sosial infrastruktur yenidən qurulub. Belə ki, 30 kilometr uzunluğunda elektrik xətti bərpa olunub, 2 ədəd transformator quraşdırılıb, sayğaclaşdırma işləri mərhələi şəkildə davam etdirilir.

Yaşayış məntəqəsinə magistral qaz xətləri çəkilib, mövcud qaz xətti, həmçinin su anbarı, subartezian quyusu bərpa edilib, içməli su şəbəkəsi yenidən qurulub. Sakinlər daimi yüksəksürətli internetlə təmin olunublar. Kəndin başında, mənzərəli bir yerdə bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb.

Dağların qoynunda yerləşdiyindən qış Seyidbəylidə sərt üzünü daha çox göstərir. Odur ki, ilin bu vaxtı həyət-bacada iş görmək mümkün olmasa da, insanlar yenidən doğma yurdda yaşamağın bəxş etdiyi qürurla, sevinclə xoş gələcəyin planlarını qurur, xoşbəxt sabaha hazırlaşırlar.

Seyidbəyliyə səfərimiz zamanı sakinlərlə də görüşdük. Qonağı olduğumuz Ələkbərovlar ailəsini indi ölkəmizdə çox insan tanıyır. Çünki Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 2025-ci il sentyabrın 15-də məhz Rasim Ələkbərovun və ailəsinin yaşadığı bu evə baş çəkib, sevinclərinə sevinc qatıb.

Söhbətimizə də elə bu mövzu ilə başladıq. Rasim dedi ki, dövlət başçısı ilə görüş onların həyatında ən unudulmaz xatirəyə çevrilib:

– Təsəvvür edə bilməzsiniz ki, möhtərəm Prezidentimiz həm "Dəmir yumruğ"u sayəsində torpaqlarımızı azad etməsi, həm bizi doğma Qarabağımıza qaytarması, həm də evimizə baş çəkməsi ilə bizə necə böyük xoşbəxtlik bəxş edib. Əvvəl çox həyəcanlı idik. Ancaq ölkə rəhbərinin səmimiyyəti, sadəliyi sayəsində görüşün elə ilk anından həyəcanımız yoxa çıxdı. Evimizlə tanış oldu, şəraitimizlə maraqlandı. Pəncərədən baxaraq dedi ki, evinizdən nə gözəl mənzərə görünür. Bütün bunlar unudulmaz anlardır bizim üçün!

Biz də Ələkbərovlar ailəsinin yaşadığı evin pəncərəsindən qarşımızda açılan gözəlliyə baxmaq imkanını qaçırmadıq. Əmin olduq ki, qarşıdakı mənzərənin əsrarəngizliyini sözlə ifadə etmək elə də asan deyil...

Batmış bulaqlar yenidən qaynayır

Söhbət əsnasında öyrəndik ki, Rasim Ələkbərov Birinci Qarabağ müharibəsinin iştirakçısı və qazisidir. Məcburi köçkün düşdükdən sonra torpaqlarımızın işğalı ilə barışmayaraq könüllü şəkildə cəbhəyə yollanıb, 4 il 7 ay müxtəlif bölgələrdə döyüşlərdə iştirak edib. Tovuz rayonunun Ağdam kəndi istiqamətində mühasirəyə düşərək ağır yaralanıb. Ancaq, necə deyərlər, qisası qiyamətə qalmayıb, onun yarımçıq arzularını oğlu Pərvin reallaşdırıb. 44 günlük müharibədən qalib əsgər kimi, 5 medalla dönən Pərvinlə indi həm atası, həm də anası Tahirə xanım fəxr edir. Pərvinin özünün isə fəxr etdiyi, sevincinə sevinc qatan dünyaya yeni gəlmiş, Seyidbəylinin ilk körpəsi olan qızı Mirayın azad və suveren Azərbaycanın qayğısız vətəndaşı kimi böyüyəcəyidir.

Ailə üzvləri bildirdilər ki, Seyidbəyliyə köçdükdən sonra onlar üçün yeni bir həyat başlayıb. Rasim kənddə market açıb, orada işləyir, dövlət özünüməşğulluq proqramı çərçivəsində ailəyə 21 baş qoyun verib, qapılarında da xeyli toyuq-cücələri var. Yəni dolanışıqları yaxşıdır. Ancaq dolanışıqdan da, maddi imkandan da vacib olan doğma torpaqlara qayıtmaq, bu yerlərin havasını udmaq, suyunu içmək, yenidən burada yaşamaqdır.

R.Ələkbərov onların qayıdışına sanki təbiətin də sevindiyini dedi:

– Biz bura təzə gələndə məlum oldu ki, bulaqların çoxu quruyub. Ancaq qısa vaxtda 7 bulağın gözü açıldı, yenidən axmağa başladı. Elə bil bizim gəlişimizi gözləyirmiş. Seyidbəylidə təsərrüfatla məşğul olmaq üçün yaxşı imkanlar mövcuddur. Geniş otlaqlar var. Ən əsası isə havası, suyu şəfalıdır. Biz məcburi köçkün kimi Bərdədə yaşayanda hər gün ən azı bir dəfə təzyiq dərmanı atırdım. Bura gələndən isə dərmanın özünü atmışam bir kənara, elə bil təzədən anadan olmuşam. İndi siz deyin, bu yerləri sevməmək, burada yaşamaqdan xoşbəxt olmamaq necə mümkün ola bilər?

Ata evinin şirinliyi

Ələkbərovlar ailəsinə yeni evlərində xoş, toylu-büsatlı günlər arzulayıb başqa bir ünvana üz tutduq. Nailə Şirinova Seyidbəylidəki işğaldan əvvəl yaşadığı evinə sonuncu, yanvarın 26-da baş verən köç zamanı gəldiyindən içəridə əməlli-başlı qələbəlik vardı. Qardaşı Vaqif, bacısı Əfruz, ailənin gəlinləri Nailə xanıma evinə yığışmaqda, əşyaları yerləşdirməkdə kömək etmək üçün gəlmişdilər. "Xeyirli olsun"umuzla işlərinə fasilə verdilər, söhbətə başladıq. Ancaq söhbətimizin bu qədər təsirli, bir az da kövrək notlarla keçəcəyini gözləmirdim. Məsələ burasındadır ki, doğma yurd-yuvalarına qayıdan insanların böyük əksəriyyətinin evləri də arzuları kimi darmadağın olub, erməni vandalizminin qurbanına çevrilib.

Öz əvvəlki evinə qayıda bilənləri isə baxdıqları hər yerdə o evlərdə qoyub getdikləri acılı-şirinli xatirələri qarşılayır, keçmiş günlər göz önündə canlanır. Və bir də itirdikləri, Vətən həsrəti ilə dünyasını dəyişmiş əzizlər, doğmalar yada düşür. Bu mənada öz evinə qayıtmış Nailə xanımın tez-tez qəhərlənməsi, göz yaşlarına hakim ola bilməməsi söhbətimizin də ovqatına təsirsiz ötüşmədi...

Qarabağda erməni separatizminin baş qaldırmasından dərhal sonra, 1989-cu ildə ev-eşiyindən didərgin düşməyə məcbur qaldığını deyən Nailə xanım bildirdi ki, həmin vaxt Seyidbəylidən Xocalıya pənah aparıblar. Ancaq orada başlarına daha böyük müsibətlər gəlib:

- Hadisələr qızışanda gödük ki, kənddə qalmaq mümkün deyil. Ermənilər bizə hər cür təzyiq göstərir, ölümlə hədələyirdilər. Məcbur evimizi tərk edib Xocalıya getdik. Xocalıda qanlı soyqırımı törədilən gecə atam Novruz Zamanov dinc əhalinin çıxarılmasına kömək edərkən şəhid oldu, anam Fatma girov düşdü. Anamı sonradan azad etmək mümkün oldu, ancaq elə o vaxtdan xəstədir. Xocalı faciəsindən sonra qaçıb Ağdama sığınmışdıq, oradan da məcburi köçkün düşdük. Nə deyim, yaşadığımız müsibətlər sözlə ifadə ediləcək deyil. İndi yenidən öz evimə qayıtmışam. Bir gözüm gülür, bir gözüm ağlayır. Yenə də qayıdışımıza şükür, doğma torpağımıza şükür! Bizə bu günləri bəxş edən möhtərəm Prezidentimizi Allah pənahında saxlasın! Allah cəmi şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

Nailə Şirinovanı işğaldan azad olunduqdan sonra Seyidbəyliyə ilk dəfə qardaşı Vaqif gətirib. Ancaq gəlib evlərini görəndə həm sevincdən, həm də həyəcandan necə sarsılıbsa, bir müddət müalicə almalı olub. Bildirdi ki, bu yerlərin hər qarışı mənim üçün çox əzizdir. Əsas da vaxtilə atamızın təsərrüfatla məşğul olduğu, kənddən bir az aralıdakı ferma yeri. Elə indicə qardaşımla, bacımla birlikdə həmin yeri ziyarət etməkdən gəlmişik. O, bundan sonra öz evində həyatı yenidən yaşamağa başlayacaq.

Bəs, görəsən, evi uzun ayrılıqdan sonra əsl sahibini necə qarşılayıb? Sualımıza Nailə xanım yenə kövrələrək cavab verdi:

– Doğmalıqla qarşıladı. Elə bil, öz balandan ayrı düşürsən, 37 il sonra yenidən ona qovuşursan. Mənim burada gözəl günlərim keçib, bu evdən məktəbə getmişəm. Mənfur düşmən evimizdə xeyli dəyişikliklər edib. Ancaq həyətimə düşəndə elə bil həmin o köhnə günlərə qayıdıram.

Söhbətimizə Vaqif Zamanov da qoşuldu:

– Mən də tezliklə öz ata evimə qayıdacam. Ata evinin şirinliyini heç nə əvəz edə bilməz. İnanın ki, indi buralara gələndə geri dönmək istəmirəm. Sanki şirin yuxudayıq. Allah Müzəffər Ali Baş Komandanımızı qorusun! Onun sayəsində xalqımız elə birlik nümayiş etdirdi ki, tarixdə olmayıb. Bu birliyimizin hesabına düşmən üzərində layiqli Qələbə qazandıq, Azərbaycan torpaqlarını geri aldı. Baxın görün heç dünyanın başqa bir yerində belə şey varmı? Allah xalqımıza bir daha müharibə, acı günlər yaşatmasın!

Qayıdışın, dirçəlişin yeni ünvanlarından olan Seyidbəylidən biz də V.Zamanovun arzularına qoşularaq ayrıldıq. Həm də o arzularla, o ümidlərlə ki, bu qədim yurdumuz gündən-günə daha gözəl yaşayış məskəninə çevriləcək. Əsl sahibləri geri qayıtdıqca Seyidbəyli də yenidən xoş çağlarına geri dönəcək, inkişaf edəcək, xoş soraqlarını eşidəcəyik.

Mahir RƏSULOĞLU,
XQ-nin Qarabağ müxbiri

Araşdırma

Paytaxtda su qıtlığı yoxdur

İçməli suyun kəm-kəsiri isə çoxdur

Bakıda kran suyunun keyfiyyəti uzun illərdir ki, əhalinin gündəlik narahatlıqları sırasında yer alır. Paytaxt sakinlərinin çoxu kranı açarkən su ilə birlikdə qum, palçıq və müxtəlif çöküntülərin gəldiyini bildirir. Mütəxəssislər isə vurğulayırlar ki, verilən su mənbədə və emal mərhələsində əsasən normativlərə cavab versə də, köhnəlmiş infrastruktur, istismar müddətini çoxdan başa vuran borular və paylayıcı şəbəkədəki nasazlıqlar səbəbindən suyun keyfiyyətində problemlər yaradır.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məsələ ilə bağlı bildirir ki, əsas problem su təchizatı infrastrukturunun həddindən artıq köhnəlməsi ilə bağlıdır. Onun sözlərinə görə, şəbəkədə tez-tez qəzalar baş verir, təmir-bərpa işləri zamanı isə boruların daxilində çirklənmə yaranır və nəticədə kran açıldıqda suyun qum, palçıq və digər çöküntülərlə qarışıq gəldiyi müşahidə olunur. Məhz bu səbəbdən əhalinin böyük bir hissəsi kəmər suyunu birbaşa içməkdən imtina edir, qablaşdırılmış sulardan və ya alternativ mənbələrdən istifadə etməyə üstünlük verir. Hətta bəzi hallarda təmizlənən suya belə tam etibar etməyən istehlakçılara da rast gəlinir.

Hazırda paytaxtı içməli su ilə təmin edən qurumlar tərəfindən suyun keyfiyyətinin müvafiq standartlara uyğunluğu müəyyənləşdirilərək, şəbəkədə qəza və əlavə çirklənmə hallarının baş vermədiyi təqdirdə Bakıya verilən suyun, ümumilikdə, normal və istifadəyə yararlı hesab olunduğu bildirilir. Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev isə krandan gələn içməli suyun keyfiyyəti ilə bağlı açıqlamasında qeyd edir ki, ən çox diqqət çəkən problem borularda qısa müddətli texniki nasazlıqlarla qarşılaşanda müşahidə olunur. Belə ki, kəmərdə baş verən qəzalar aradan qaldırılandan və təmir işləri yekunlaşdırıldıqdan sonra boruların köhnəlməsi, paslanması, su çənlərinin fiziki aşınması nəticəsində suyun dad və iyində dəyişikliklər yaranır, bəzi göstəricilər standartlara tam cavab vermir.

Ekspert bildirir ki, ev şəraitində suyun təhlükəsizliyini artırmaq üçün ən doğru yanaşma problemin mənbəyini düzgün müəyyənləşdirməkdir. Bunun üçün, ilk növbədə, dad-iy, mikrobioloji və kimyəvi risk amilləri, başqa sözlə, zərər və ya itkilərin yaranma ehtimalı aydınlaşdırılmalıdır. Əgər su uzun müddət kranda hərəkətsiz qalıbsa, istifadə etməzdən əvvəl 30 saniyədən 2 dəqiqəyədək axıdılması tövsiyə olunur. Bu zaman boru daxilində qalmış durğun su yenilənir.

Kranın ucluğunun vaxtaşırı təmizlənməsi də vacibdir, çünki burada çöküntü yığılaraq suyun iyinə və dadına təsir göstərir. Binalarda mövcud su çənlərinin mütəmadi təmizlənməsi və qapaqlarının bağlı saxlanılması da xüsusi əhəmiyyət daşıyır. Təcrübə göstərir ki, bir çox problemlərin başlanğıc nöqtəsi məhz baxımsız vəziyyətdə olan çənlərdir.

A.Vəliyevin sözlərinə görə, suyun dad və iyindəki xlor problemini aradan qaldırmaq üçün sadə üsullardan istifadə etmək mümkündür. Məsələn, suyu açıq qabda 20-30 dəqiqə saxlayıb sonra soyuducuya qoyduqda xlor iyi xeyli azalır. Bəzi həssas insanların xloru çox az miqdarda belə hiss etməsi isə onun mütləq şəkildə zərərli olması anlamına gəlmir.

Nəzarət və texniki imkanlar

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin məlumatına görə, Bakı şəhəri, Abşeron yarımadası və regionlarda içməli suyun təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Yerüstü və yeraltı mənbələrdən qəbul edilən suyun içməli su səviyyəsinə çatdırılması, təhlükəsizliyinin təmin olunması və AZS 929:2023 "İçməli su. Gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" dövlət standartının tələblərinə riayət olunması məqsədilə ölkə üzrə bir sıra su təmizləyici və zərərsizləşdirici qurğular, eləcə də mənbədən istehlakçıya qədər suyun keyfiyyətinə nəzarət edən 12 kimyəvi-bakterioloji laboratoriya fəaliyyət göstərir.

Əhaliyə verilən su əvvəlcə mexaniki üsulla qum süzgəclərindən, daha sonra mərhələli şəkildə müasir ultrasüzgəcli qurğulardan keçirilir. Emal olunan su Bakı şəhərində yerləşən 23 mərkəzi su anbarına və nasos stansiyasına ötürülür. Bütün mərhələlərdə su xlor tərkibli reagentlərlə zərərsizləşdirilir. Təmizləmə prosesləri yekunlaşdıqdan sonra 38 nöqtədən götürülən su nümunələri gündəlik olaraq Ceyranbatan içməli suyun fiziki-kimyəvi və bakterioloji laboratoriyasında yoxlanılır.

Su istehlakçılara verildikdən sonra da nəzarət davam etdirilir. Mərkəzi Laboratoriyada Bakı şəhərinin mərkəzi və məhəllədaxili su anbarlarından gündəlik götürülən 44 su nümunəsi üzərində bakterioloji və fiziki-kimyəvi analizlər aparılır. Normadan kənar göstəricilər aşkar edildikdə dərhal operativ müdaxilə olunur.

Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatı əsasən Şollar, Xaçmaz, Ceyranbatan, Kür və Oğuz – Qəbələ – Bakı magistral kəmər kompleksləri hesabına gerçəkləşdirilir və "Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üzrə Dövlət Proqramı"nda həmin infrastrukturun daha da modernləşdirilməsi, bununla da qurğuların dayanıqlı su təchizatının qorunması nəzərdə tutulur. Yeri gəlmişkən, ən böyük təminat Ceyranbatan (53 faiz), Oğuz – Qəbələ (23faiz), Xaçmaz (14 faiz) və Kür (10 faiz) mənbələri vasitəsilə reallaşır, bununla da su təchizatında fasiləsizlik təmin edilir.

Bu kəmərlərin uzun müddətli istismarı, texniki cəhətdən köhnəlməsi məhsuldarlığı azaldır. Xüsusilə su itkilərinin yüksək olması isə ciddi narahatlıq doğurur. Hazırda bu göstərici, təxminən, 38,6 faiz təşkil edir ki, bu da Avropa İttifaqında (AİƏ) orta hesabla 22 faiz olan göstəricidən xeyli yüksəkdir.

Prezident İlham Əliyevin sədrliyi ilə bu il yanvarın 12-də yuxarıda adı çəkilən Dövlət Proqramının müzakirəsinə həsr olunan müşavirədə bu gün ölkə üzrə içməli suya əlçatanlığın 73 faiz, fasiləsiz su təminatının 72,5 faiz təşkil etdiyi, Bakı və Abşeronda isə bu göstəricilərin müvafiq olaraq 70 faiz səviyyəsinə çatdırıldığı bildirilib. Halbuki 2004-cü ildə qəbul edilən bu sahə ilə bağlı ilk Dövlət Proqramı dövründə həmin göstəricilər xeyli aşağı olub.

Yeni Dövlət Proqramında əsas prioritetlərdən biri su təhlükəsizliyinin təmin edilməsi, yeni su mənbələrinin yaradılması, fasiləsiz təchizatın genişləndirilməsi və su itkilərinin minimuma endirilməsidir. Magistral kəmərlərin yenilənməsi, nəzarətsiz istifadənin qarşısının alınması və saygaclaşdırmanın tam başa çatdırılması bu baxımdan həlledici önəm daşıyır.

Beləliklə, Bakıda kran suyunun keyfiyyəti ilə bağlı mövcud narahatlıqların əsas səbəbi, əsasən, köhnəlmiş infrastruktur və paylayıcı şəbəkələrdəki texniki problemlərlə bağlıdır. Su mənbədə və emal prosesində normativlərə cavab versə də, son mərhələdə yaranan itkilər və çirklənmələr problemi aktuallaşdırır. Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər isə bu sahədə mühüm irəliləyişlərə yol açsa da, uzunmüddətli və dayanıqlı nəticələr üçün sistemli yenilənmə və ciddi nəzarət mexanizmləri zəruridir.

Keyfiyyətli su – sağlamlıq cövhəri

AİƏ ölkələrində içməli suyun keyfiyyəti texniki məsələ olmaqla bərabər, eyni zamanda, ictimai sağlamlıq, istehlakçı hüquqları və ekoloji təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Bu yanaşma su təchizatının mənbədən istehlakçıya qədər olan bütün mərhələlərində ciddi nəzarət mexanizmlərinin formalaşdırılmasını şərtləndirir.

AİƏ-də içməli suyun keyfiyyəti əsasən "İçməli su təlimatı" adlı sənəd çərçivəsində tənzimlənir. Sözügedən təlimat suyun yalnız mərkəzi təmizləmə qurğularında deyil, həm də istehlakçı kranında da təhlükəsiz və standartlara uyğun olmasını əsas prinsip kimi müəyyən edir. Yəni AİƏ yanaşmasında məsuliyyət istehsalçı qurumla bərabər, həm də bütün paylayıcı şəbəkənin üzərinə düşür.

Bu ölkələrin əksəriyyətində su təchizatı sistemlərinin orta istismar müddəti 30-40 ili keçmir. Köhnəlmiş kəmərlərin mərhələli şəkildə yenilənməsi uzunmüddətli dövlət və bələdiyyə investisiya proqramları hesabına həyata keçirilir. Bu proses qəzaların qarşısını almaq məqsədi daşımaqla yanaşı, eyni zamanda, su itkilərinin azaldılması və kran suyuna ictimai etimadın qorunmasına xidmət edir. Müqayisə üçün bildirək ki, Bakı və Abşeron yarımadasında istismarda olan əsas magistral kəmərlərin bir qismi ötən əsrin əvvəllərində inşa olunub. Bu isə texniki baxımdan suyun təmizlənməsindən daha çox, paylanılma mərhələsində keyfiyyətin aşağı düşməsinə təsir göstərir. AİƏ təcrübəsində isə əsas diqqət məhz bu risklərin minimuma endirilməsinə yönəlib.

AİƏ ölkələrində su itkilərinin orta göstəricisi, təxminən, 20-22 faiz təşkil edir. Bəzi dövlətlərdə, məsələn, Almaniya, Niderland və Danimarkada bu rəqəm 10-15 faiz səviyyəsindədir. Belə bir nəticə şəbəkənin rəqəmsallaşdırılması, təzyiqə nəzarət sistemlərinin tətbiqi, sızmaların vaxtında aşkarlanması üçün "ağıllı" sensorların quraşdırılması, saygaclaşdırmanın tam və dəqiq aparılması ilə əldə edilir. Azərbaycanda isə rəsmi göstəricilərə görə, su itkiləri 38,6 faiz təşkil edir ki, bu da AİƏ üzrə orta göstəricidən xeyli yüksəkdir. Bu fərq yalnız texniki deyil, eyni zamanda, idarəetmə və nəzarət mexanizmlərinin səmərəliyi ilə bağlıdır.

Dünya təcrübəsində istehlakçıların suyun keyfiyyəti barədə məlumatlandırılması da mühüm prioritetdir. Bir çox ölkələrdə vətəndaş yaşadıqları ərazi üzrə suyun kimyəvi və mikrobioloji göstəricilərini onlayn platformalar vasitəsilə real vaxt rejimində izləyə bilir. Hər hansı normadan kənarlaşma olduqda bu barədə əhali operativ şəkildə məlumatlandırılır. Bakıda isə vətəndaşların əksəriyyəti kran suyunun hansı mərhələlərdən keçdiyi, hansı standartlara uyğunluğu barədə yetərli məlumata malik olmur. Bu informasiya boşluğu kran suyuna inamsızlığı daha da dərinləşdirir və alternativ, bəzən isə daha baha mənbələrə yönəlməni artırır.

Vaqif BAYRAMOV
XQ

Ekspert rəyi

Nurlanə ƏHMƏDZADƏ,
qida mütəxəssisi

Respublikamızda kəmər suyunun keyfiyyəti məsələsinə daim həssaslıqla yanaşılır. Bu səbəbdəndir ki, ölkədə istehlakçılara verilən içməli suyun keyfiyyət göstəriciləri xüsusi nəzarətdə saxlanılır. Əvvəlcədən hazırlanmış cədvələ əsasən, mərkəzi və məhəllədaxili su anbarları mütəmadi yuyulub təmizlənir. Paytaxtın su kəməri şəbəkəsinə verilən suyun keyfiyyətinə nəzarət məqsədilə müəyyən ünvanlardan su nümunələri götürülməklə 280-300 müxtəlif növ analiz aparılır. Bundan əlavə, xlorlama stansiyaları fasiləsiz işləyir, onların vaxtında maye xlorla təmin edilməsinə, içməli suda xlor qalığı səviyyəsinin ciddi nəzarətdə saxlanılmasına mühüm önəm verilir.

Yeri gəlmişkən, aparılan müayinə və götürülən su nümunələrinin nəticələrinə əsasən, suyun fiziki-kimyəvi, radioloji, mikro-biololoji göstəriciləri bəlli olur. Bu göstəricilərin əsasında hər hansı bir kənara çıxmalara görə suyun keyfiyyətli olub-olmaması haqqında qənaətə gəlinir. Bu zaman həmin mənbə üzrə aidiyyatı qurğu seçilir, quraşdırılır və istismara verilir. Yekunda da suyun keyfiyyəti yoxlanılır.

Respublikamızda fəaliyyət göstərən su təchizatı sistemlərinə nəzarət edən mərkəzi laboratoriyalar ən müasir cihazlarla təmin olunub. Həmin cihazlar vasitəsi ilə suyun keyfiyyəti dəqiqliyi ilə yoxlanılır. Bundan əlavə, Ceyranbatan su təmizləyici qurğuları yerləşən ərazidə fuziki-kimyəvi baktiroloji təhlil laboratoriyası da fəaliyyət göstərir.

Qeyd edim ki, dünyada kran suyunun birbaşa içilməsi normal və geniş yayılan bir təcrübədir. Restoran və ictimai iaşə obyektlərində, hətta belə kran suyunun təqdim olunması adi hal sayılır. Bu, təkcə keyfiyyət deyil, həm də dövlət nəzarətinin və cəmiyyətin buna olan inamının göstəricisidir.

Bakıda isə kəmər suyunun birbaşa içilməsi hələ də riskli qəbul olunur. Bunun əsas səbəbi suyun təmizlənmə mərhələsinə deyil, daha çox istehlakçıya çatana qədər keçdiyi yolun təhlükəsizliyinə dair şübhələrlə bağlıdır. Beynəlxalq təcrübə göstərir ki, məhz bu mərhələyə ciddi nəzarət edilmədən kran suyuna etibarın bərpası mümkün deyil. Belə halda su təchizatı şəbəkələrinin mərhələli və planlı yenilənməsi, itkilərin azaldılması üçün rəqəmsal nəzarət sistemlərinin tətbiqi, istehlakçıya şəffaf və açıq məlumatların təqdim edilməsi, suyun keyfiyyətinə görə məsuliyyətin istehsalçı ilə bərabər, paylayıcı şəbəkə ilə də tam şəkildə bölüşdürülməsi vacibdir.

Beləliklə, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, içməli suyun keyfiyyəti laboratoriya analizləri ilə yanaşı, bütün sistemin dayanıqlılığı ilə ölçülür. Azərbaycanda son illər bu sahədə ciddi irəliləyişlər əldə edilsə də, xüsusilə köhnə infrastruktur, yüksək su itkiləri və istehlakçı etibarının zəifliyi kimi problemlər beynəlxalq standartlara yaxınlaşmaq üçün hələ bir sıra layihələrin həyata keçirilməsinə zəruri ehtiyac olduğunu deməyə əsas verir.

Tərtərin yaraları sağaldılıb

Tərtər uzun illər düşmənin mərmi yağdırdığı torpaqlardan biri idi. Lakin bu yenilməz rayon sinəsini sipər edərək düşmənə boyun əymədi, əksinə, əzmi ilə gələcəyə yol açdı. Müharibənin izlərinin aradan qaldırıldığı küçələr, dağılan binalar bu gün dirçəlişin, yenidən doğuluşun rəmzinə çevrilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Tərtər yenidən nəfəs aldı, qürurla ayağa qalxdı.

Yanvarın 13-də Prezident İlham Əliyev bir vaxtlar ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Tərtər Elektromexanika Zavodunun əsaslı təmirdən sonra yenidən açılışını etdi. Həmin gün dövlət başçısı Aşağı Oratağ kənd sakinləri ilə də görüşdü; Böyük Qayıdış proqramı çərçivəsində 31 ailə – 119 nəfər öz doğma torpağına qovuşdu.

Yanvarın 22-də isə rayona daha bir müjdəli xəbər gəldi – Qarabağ Regional DOST Mərkəzinin Tərtər filialı istifadəyə verildi. Vaxtilə düşmən mərmilərinin dağıtdığı bina bu gün vətəndaş məmnunluğunun ünvanına çevrilib. Yeni inzibati binada gün ərzində onlarla insana xidmət göstərilir, bu isə dövlətin sosial siyasətinin real nəticəsidir.

2025-ci il Tərtər üçün tikinti və abadlıq dövrü oldu. Şəhərin küçələri yenidən qurulur, istinad divarları bəzək daşları ilə üzlənir, gecə işıqları Tərtərin yeni simasını parlaq şəkildə göstərir. Heydər Əliyev parkında aparılan əsaslı təmir nəticəsində buradakı açıq səhnə yenilənib, yeni oturacaqlar 8 Noyabr Zəfər Gününə hədiyyə kimi təqdim olunub.

Tərtərin torpaqları da bu dirçəlişə öz töhfəsini verir. 2025-ci ildə kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 128,4 milyon manata çatıb. Minlərlə hektarda taxıl, pambıq, tərəvəz, meyvə becərilib. Baramaçılıq yenidən dirçəlib – kümçülər 6.5 ton ipək baraması tədarük ediblər. Rayonda tingçilik sürətlə inkişaf edir; milyonlarla meyvə və dekorativ ting yetişdirilib, yeni bağlar salınıb.

Tərtərdə suvarma və içməli su sistemlərinin təkmilləşdirilməsi ilə bu həyat daha da gücləndirilib. Hidrotexniki qurğular təmir olunub, kanallar lildən təmizlənib, yeni qurğular inşa edilib. İçməli su 7168 sakinə və 198 qeyri-əhali abonentə çatdırılır – bu, dövlətin ən ucqar nöqtəyə qədər uzanan qayğısıdır.

Sosial infrastrukturda da böyük dönüş var. Məktəblər, uşaq bağçaları əsaslı təmir olunub və yeniləri tikilib. Təhsildə uğur artmaqdadır – keçən il 727 məzundan 217-si ali məktəblərə qəbul olunub. Səhiyyə sahəsində də ciddi addımlar atılıb: 86 həkim və 268 tibb işçisi 48 yaşayış məntəqəsində xidmət göstərir. Rabitə və internet şəbəkəsi bütün rayonu əhatə edir, bank xidmətləri isə müasir tələblərə cavab verir.

Amma Tərtərin dirçəliş salnaməsində ən həssas yer şəhid və qazi ailələrinə göstərilən diqqətdir. 379 ailə mənzil növbəsinə götürülüb, bəziləri yeni mənzil və torpaq sahəsi ilə təmin olunub. 51 küçəyə şəhid adı verilib, 23 şəhidin barelyefi ucaldılıb. Qazilərə avtomobillər, sahibkarlıq dəstəkləri verilib, yüzlərlə ailəyə sosial yardım göstərilib. Bu qayğı həm şəhidlərin əziz xatirəsinə, həm də yaşayan qəhrəmanlara minnətdarlığın ifadəsidir.

Vəli VƏLİYEV
XQ

Qeyri-neft-qaz vergi daxilolmaları 6,5 faiz artıb

2026-cı ilin yanvar ayı ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 2 milyard 50,3 milyon manatdan artıq vergi daxil olub ki, bu da proqnozdan 50,3 milyon manat çoxdur.

Qeyri-neft-qaz sektorundan daxilolmalar 1 milyard 467,1 milyon manatdan çox olub və büdcəyə proqnozdan əlavə 42,1 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 88,9 milyon manat və ya 6,5 faiz artıb. Ödənilən vergilərin 71,6 faizi qeyri-neft-qaz sektorunun, 28,4 faizi isə neft-qaz sektorunun payına düşüb.

2026-cı ilin yanvar ayında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 468,0 milyon manat olub. Bu mənbədən daxilolmalar 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz və ya 24,6 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar əvvəlki ilin yanvar ayına nisbətən 8,2 faiz artaraq 347,5 milyon manata yaxın təşkil edib.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz artıb və 17,2 milyon manatdan çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 10,9 faiz artaraq 14,5 milyon manata yaxın təşkil edib.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar 2025-ci ilin yanvar ayına nisbətən 1 faiz artıb və 80,2 milyon manata yaxın olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2,4 faiz artaraq 62,4 milyon manatdan artıq təşkil edib.

XQ

Qəbələdə "Qış nağılı" başlandı...

II Beynəlxalq Musiqi Festivalının açılış mərasimi

Fevralın 6-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə keçirilən Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub.

Açılış mərasimində Leyla Əliyeva, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər, tanınmış ictimai xadimlər, Qəbələ sakinləri və qonaqlar iştirak edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxışında ikinci ildir təşkil edilən Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu bildirib.

Fərhad Bədəlbəyli deyib: "Qış nağılı" Musiqi Festivalı artıq ikinci dəfədir ölkəmizin dilbər guşələrindən olan və füsunkar təbiəti ilə seçilən Qəbələ şəhərində keçirilir. Hələ 2009-cu ildə təməli qoyulan və gözəl ənənəyə çevrilən Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən bütün sənətsevərləri bir araya toplayıb". O, göstərilən kömək və dəstəyə görə Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə və "Gilan"a dərin təşəkkürünü bildirib.

Rəsmi hissədən sonra musiqisevərlərə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin iştirakı ilə "Viva Opera" adlı konsert proqramı təqdim olunub.

Simfonik Orkestr Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının əsas kollektivlərindən biridir. Opera və Balet Teatrının fəaliyyət göstərdiyi bütün dövrlərdə bu orkestrdə ən peşəkar və istedadlı musiqiçilər çalışıblar. Orkestrin dirijor pultu arxasında müxtəlif dövrlərdə Maestro Niyazi, Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov, Əhəd İsrafilzadə, Kamal və Rauf Abdullayevlər kimi məşhur dirijorlar dayanıb. Hazırda Simfonik Orkestrdə 124 musiqiçi çalışır. Onlar violin, viola, violençel, kontrabas, arfa kimi simli, həmçinin piano, zərb və sair alətlərdə ifa edirlər. Avropa musiqi alətləri ilə yanaşı, orkestrdə tar, kamança kimi milli musiqi alətlərindən də istifadə edilir. Təcrübəli musiqiçilərlə yanaşı, orkestrdə gənclərə də böyük əhəmiyyət verilir.

Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə keçən konsertdə X.Ximenes, F.Leqar, L.Delib, D.Moduno, A.Lara, A.Biksio, C.Verdi, L.Denza, C.Rossininin operalarından ariyalar, həmçinin italyan nəğməsi, Azərbaycan xalq mahnısı "Küçələrə su səpmişəm", M.Mirzəyevin "Azərbaycan rəqsi" ifa olunub.

Solistlər Afaq Abbasova (soprano), Aytac Şıxəlizadə (mezzo-soprano), Azər Zadə (tenor) və Mahir Tağızadənin (bariton) ifaları musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının proqramı çox zəngindir. Festival çərçivəsində fevralın 7-də Azərbaycanla İtaliya arasında dostluğu təcəssüm etdirən "Bakı-Neapol: Musiqi körpüsü" kamera musiqisi axşamı keçiriləcək. İzləyicilər Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini dinləyə biləcəklər.

*

Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı çərçivəsində fevralın 6-da Heydər Əliyev Konqres Mərkəzində autizmli gənc pianoçu Əlisahib Bayramovun konserti olub.

Konsertə başlamazdan əvvəl pianoçu barədə məlumat verilib. Bildirilib ki, autizmli Əlisahib Bayramov sənəti, istedadı və böyük əzmi ilə hər kəsin rəğbətini qazanmış bir gəncdir. O, "Birgə və Sağlam" İctimai Birliyinin yetirməsidir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu olan Əlisahib 2019-cu ildə keçirilən "Payız əfsanələri" Beynəlxalq Festivalının qalibidir. Autizmli gənc Heydər Əliyev Mərkəzində, həmçinin dəfələrlə müxtəlif festival və konsertlərdə çıxış edib.

Konsertdə Faiq Sücəddinovun "Vətən balladası", Eldar Mansurovun "Elegiya", "Melodiya", Vaqif Mustafazadənin "Bakı gecələri", Tofiq Quliyevin "Sevgi valsı", Emin Sabitoğlunun "Vals", "Bakı, sabahın xeyir", "Ölsəm, bağışla", "Kəpənək" və digər Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

Günün sualı

Orta təhsildə qazanc pulla ölçülür, yoxsa biliklə?

Məktəbi bağlanmış kənddə sakin qalacaqmı?

Milli təhsil sistemində mühüm dəyişikliklər edilir. Elm və təhsil naziri Emin Əmrullayev son açıqlamalarında şagird sayı az olan ucqar kənd məktəblərinin fəaliyyətində yeni modelin tətbiq olunacağını bildirib. Qeyd edilib ki, dövlət vəsaitlərinin səmərəli idarə olunması təhsil keyfiyyətinin yüksəldilməsi məsələsini aktuallaşdırıb.

Açıqlamada deyilir ki, bəzi bölgələrimizdə adambaşına bir şagird üzrə düşən xərc Bakının mərkəzindəki özəl məktəblərin təhsil haqqından daha yüksəkdir. Belə kənd məktəblərinin sayı yüzlərlədir. Kiçik məktəblərdə olan ciddi keyfiyyət problemi və pedaqoji heyətin şagird sayından çox olması tədris prosesinin səmərəliliyinə xələl gətirir. Bu səbəbdən, cari ilin sentyabr ayından etibarən şagird sayı az olan məktəblərdə distant təhsilə keçilməsi planlaşdırılır.

Ən məhdud imkanlar daxilində belə, elm yolunda böyük uğurlar qazanmaq mümkündür. Bunun ən parlaq nümunələrindən biri dünya şöhrətli alim, təbiətşünas Mixail Lomonosovdur. Ucqar kənddə aldığı ilk dərslər alimin daxilində elə bir elm-irfan atəşi yandırıb ki, balıq daşıyan karvana qoşularaq piyada qarlı-şaxtalı yollarla Moskvaya üz tutmuş, zəkası ilə universitetlər yaratmış, fizika və kimya elmində inqilablar etmişdir. Lomonosovun bu mübarizəsi göstərmişdi ki, kimin qəlbinə elm toxumu düşərsə, o toxum ən çətin şəraitdə belə cücərəcək.

Müasir dövrün uşaqları Lomonosov kimi kilometrlərlə yol qət edərək, sərt sınaqlardan keçməklə elmin zirvəsinə çatmaq məcburiyyətində deyil. Lakin təhsil ocaqlarının əsas mahiyyəti kollektiv təfəkkür mühiti yaratmaqdır. Elm öyrənmək müəllim təfəkkürü ilə canlanan, həmyaşıd rəqabəti ilə cilalanan prosesdir. Məktəb mühiti şagirdə həm də cəmiyyətdə yer tapmağı, sosial iyerarxiyanı, etik normaları və ortaq dəyərləri aşılayır.

Rəqəmsal formada keçirilən dərslərdən şagirdə bilik öyrənə bilər, bəs elm ocağındakı kollektiv təfəkkür ruhunu ekrandan ötürmək mümkündürmü? Bu mövzuya yanaşma isə birmənalı deyil.

Təhsil məsələləri üzrə ekspert Qoşqar Məhərrəmov bildirdi ki, onlayn təhsil, bəlkə də, savad verə bilər, amma o məktəbi əvəz edə bilməz:

– Şagirdlərə keyfiyyətli təhsil, sürətli internet, lazımi avadanlıq təklif edə biləcəyikmi? Ucqar bölgələrdə yaşayan uşaqlara bilik vermək üçün müxtəlif modellər mövcuddur ki, onlardan biri onlayn, digəri modul tipli təhsildir. İnternetin sürəti normal olsa, şagirdləri kompüterlə təmin edə bilsək, müəllimlər dərsləri onlayn formada keçə bilərlər. Amma uşaqlara dost mühiti yarada bilmərik. Bəs bağlanacaq məktəblərin müəllimləri neyləyəcəklər? Mənə elə gəlir ki, bizim o kəndlərə onlayn təhsildənsə, daşımalı təhsili aparmağımız daha düzgün olar.

Pandemiya dövrünün təcrübəsi göstərdi ki, distant təhsil təklif edilsə belə, bütün şagirdlər bu prosesə cəlb oluna bilmədi. Şagirdlərin bir çoxu müxtəlif səbəblərdən təhsildən kənarda qaldılar. Şagirdlərin maddi durumu, ailələrin iqtisadi və sosial vəziyyəti və s. amillər bu prosesə birbaşa təsir göstərirdi. Elə şagirdlər var idi ki, ümumiyyətlə, kompüterdən istifadə etməmişdi, təcrübəsi yox idi. Bu halda onların distant təhsilə uyğunlaşması və prosesdən effektiv şəkildə faydalanması ciddi çətinlik yaradırdı.

Əslində, distant təhsil daha çox yuxarı sinif şagirdləri üçün effektiv model hesab oluna bilər. Çünki bu mərhələdə şagird artıq məsuliyyətini dərk edir, niyə oxuduğunu, nə üçün öyrəndiyini anlayır və müxtəlif resurslardan istifadə etməyi bacarır. Məhz bu səbəbdən distant təhsil modeli yuxarı siniflərdə daha dolğun və səmərəli nəticə verir. Aşağı siniflərdə isə distant təhsil bir o qədər də uğurlu olmur.

Təhsil eksperti Məzahir Məmmədli isə şagird sayı az olan məktəblərdə onlayn tədrisə keçidin üstün tərəflərini qeyd etdi:

– Elə məktəblər var ki, orada 3, 5, 10, hətta 20 nəfərə qədər şagird təhsil alır və bu cür məktəblərin sayı yüzlərlədir. Məhz bu reallıq fonunda Elm və Təhsil Nazirliyinin tədbirlər planının tərkib hissəsi kimi optimallaşma prosesi başlanıb və artıq müəyyən sayda məktəb birləşdirilib. Nəqliyyat xərcləri dövlət tərəfindən qarşılanır və azsaylı şagirdlərin daha geniş imkanlara malik təhsil müəssisələrində oxuması təmin edilir.

Təsəvvür edin ki, bir sinifdə birinci və üçüncü, yaxud ikinci və dördüncü sinif şagirdləri birlikdə təhsil alır. Birinci sinifdə 2, dördüncü sinifdə isə cəmi 1 şagird olduğu halda, 3 nəfər üçün ayrıca müəllim cəlb olunur və əlavə xərclər yaranır. Üstəlik, bu şəraitdə uşaqların sosiallaşma imkanları da ciddi şəkildə məhdudlaşır. Eləcə də ucqar kəndlərdə kimya, biologiya, coğrafiya, fizika kimi fənlər üzrə müəllim tapmaq çətinləşir. Dərs saatlarının az olması səbəbindən müəllimlər həmin bölgələrdə işləməyə maraq göstərmirlər.

Gənc müəllimlər üçün müəyyən həvəsləndirici mexanizmlər – H1, H2 əlavələri mövcud olsa da, bu da hər zaman kifayət etmir. Buradakı H - həvəsləndirmə sözünün ilk hərfi kimi götürülür. H1-də 35 yaşa qədər gənc müəllim şəhərin mərkəzindən 3 kilometrə qədər məsafədə olan məktəbdə dərs keçirsə, onun ümumi maaşına 60 manat, H2-də isə 3 kilometrdən daha uzaq məsafədə fəaliyyət göstərirsə, maaşına 160 manat əlavə olunur. Lakin müəllimlər bununla da razılaşmaq istəmirlər. Burada vacib məqam odur ki, şagirdlər evdən deyil, məktəbdən onlayn dərslərə qoşulacaqlar.

Bu məsələdə internetin olmaması, texniki imkanların çatışmaması kimi bəzi narahatlıqlar yaranmışdı. Bu problemlərin qarşısını almaq üçün şagirdlərin məktəbdə texniki vasitələrlə təmin olunması, prosesə nəzarət edən şəxslərin olması nəzərdə tutulub.

Məktəb mühitinin rəqəmsal ekranlarla əvəzlənməsinin şagirdin psixoloji inkişafına və sosial adaptasiyasına təsiri isə ayrıca müzakirə mövzusudur.

Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmovun sözlərinə görə, ucqar kənd məktəblərində distant təhsilə keçid mərhələli şəkildə, yerli şəraitə uyğun, psixoloq, pedaqoq və valideynlərin iştirakı ilə həyata keçirilməlidir:

– Müasir dövrdə distant təhsil dünyada bir çox ölkədə tətbiq olunan alternativ təhsil modellərindən biridir və xüsusilə ucqar ərazilərdə təhsilə çıxışın təmin olunmasında mühüm rol oynayır. Lakin bu modelin tətbiqi zamanı uşaqların psixoloji, sosial və emosional inkişaf xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.

Beynəlxalq təcrübə göstərir ki, distant təhsil əsasən müvəqqəti və dəstək mexanizmi kimi effektiv nəticə verir. Məsələn, Finlandiya, Kanada və Avstraliya kimi ölkələrdə ucqar bölgələrdə onlayn təhsil tətbiq olunur, lakin uşağın yalnız ekran qarşısında qalması deyil, real sosial mühitlə əlaqəsinin qorunması əsas prinsip kimi saxlanılır.

Şagirdin sinif yoldaşları ilə birgə fəaliyyət göstərməsi, müəllimlə canlı ünsiyyəti, müxtəlif tədbirlərdə iştirakı onun şəxsiyyət kimi formalaşmasına birbaşa təsir edir. Məktəbin tamamilə fəaliyyətinin dayandırılması həmin kəndin sosial həyatında zəifləməyə, gənc nəslin şəhərə axınına və mədəni passivliyə səbəb ola bilər.

Uzun müddət distant formatda təhsil alan uşaqlarda diqqət dağınıqlığı, motivasiya azalması, emosional yorğunluq və sosial təcrid riski arta bilər. Xüsusilə inkişaf mərhələsində olan uşaqlarda ekran asılılığı, aqressiv davranış meylləri və ünsiyyət çətinlikləri müşahidə olunar. Bu hallar beynəlxalq psixoloji tədqiqatlarda da öz əksini tapır və mütəxəssislər uzunmüddətli onlayn təhsilin mütləq balanslaşdırılmasının vacibliyini vurğulayırlar.

İbtidai sinif şagirdləri üçün canlı ünsiyyət xüsusilə önəmlidir. Bu dövrdə empati, əməkdaşlıq, emosiyaların tanınması, konfliktlərin həlli kimi bacarıqlar əsasən real sosial mühitdə formalaşır. Uşaq bu mərhələdə sinif mühitində sosial rolları öyrənir və şəxsiyyətinin əsas sütunları yaranır. Canlı ünsiyyətin azalması bu prosesin zəifləməsinə səbəb olar.

Bununla yanaşı, distant təhsili tamamilə mənfi model kimi qiymətləndirmək də düzgün olmazdı. Əgər bu sistem düzgün qurularsa, psixoloji dəstək mexanizmləri, mütəmadi sosial tədbirlər, müəllimlərin fərdi yanaşması və valideynlərlə əməkdaşlıq təmin edilərsə, müsbət nəticələr əldə etmək mümkündür.

Bir çox ölkələrdə hibrid model – yəni distant və əyani təhsilin kombinasiyası effektiv yanaşma kimi qəbul edilir. Əsas məqsəd uşağın sağlam şəxsiyyət kimi formalaşmasıdır.

Məktəbin sosial mərkəz funksiyası qorunmalı, uşaqların kollektiv mühitdən tam uzaqlaşmasına yol verilməməlidir.

İndi əsas məsələ imkanları elə tənzimləməkdir ki, nə təhsil xərcləri çox olsun, nə də uzaq kəndlərdəki məktəblər səmərəlilik adı ilə bağlansın.

Bəs məktəbi bağlanmış kəndin sakinlərinin köçüb başqa yerlərə getməsi bizə nə verəcək?

Fidan ƏLİYEVA
XQ

Şuşanın tanınmış ailələri

Əbdürrəhim bəy Haqverdiyevin soy-kökünün tarixçəsi

Şuşa mədəni mühiti və Sadıqbəyovlar – Mamayevlər



Bu yazını çapa hazırlayarkən uzun illərdən bəri tanıdığım, Sadıqbəyovlar – Mamayevlər şəcərəsinin ziyalı davamçısı Tükəzban xanım Sadıqbəyova ilə yenidən söhbət etdik. Faktları, hadisələri, ötüb keçənlərin izlərini bir daha dəqiqləşdirdik.

Əvvəla, bildirək ki, Tükəzban xanıma bu ad ona təsadüfən verilməyib. Rəfiqəm babasının böyük qardaşı, XX əsr Azərbaycan ədəbi-mədəni və ictimai-siyasi tarixində yazıçı, dramaturq, pedaqoq, tərcüməçi, diplomat, dövlət xadimi kimi tanınmış Əbdürrəhim bəy Haqverdiyevin ömür-gün yoldaşı Tükəzban xanımın adını daşıyır. O, böyük şəcərənin dördüncü nəslini təmsil edir. Xanım-xatınlığı, təmkinli davranışı onun kübar bir ailədən gəldiyini xəbər verir.

Kökünə-soyuna bağlılığı, Şuşa sevgisi, dövrünün tanınmış ziyalısı olmuş ulu babası Həsənalı bəy Sadıqbəyovun maarifçi dünyagörüşlü olması Tükəzban xanımgilin ailəsini, nəcib bir nəsilə mənsub olduqlarını xalqa tanıtmaq haqqı verir. Qeyd edək ki, bu şəcərə, az da olsa, araşdırılıb. Ən dəqiq mənbələr isə rəhmətlik tədqiqatçı-etnoqraf alim Ənvər Çingizoğlunun vaxtilə "Soy" dərgisində nəşr etdiyi yazılardır.

Beləliklə, Tükəzban xanım və qardaşı Nəsimi bəyin, Sadıqbəyovlar və Mamayevlər ailəsinin həyatı, yaşadıqları dövr və Şuşanın mədəni həyatı barədə topladığım materialları "Xalq qəzeti"nin oxucularına təqdim edirəm.

Şuşanın tanınmış zadəgan soylu nəsillərindən olan Salah bəy Sadıqbəyovun ulu babası Hacı bəy olub. Onun oğlu Məhəmmədsadıq bəy 1788-ci ildə Şuşada dünyaya gəlib. O, mədrəsə təhsili almaqla bərabər, özünü yetişdirir, bir çox elmdən xəbərdar olub, dil öyrənib və İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət edib. Onun zadəganlığını Fətəli şah və Abbas Mirzə də təsdiqləyib.

Xan onun bilik və bacarığını, sədaqətini dəyərləndirərək oğlu Əhməd xana mühafizəçi göndərir. Əhməd xan isə Məhəmmədsadıq bəyi Nəmər kəndinə darğa təyin edir. Fatma xanımla ailə quran Məhəmmədsadıq bəyin Həsənalı bəy, Abbas bəy, Rza bəy adlı oğlanları, Səkinə və Balaxanım adlı qızları olur. Haqqında bəhs edəcəyimiz Sadıqbəyovlar soyadı Məhəmmədsadıq bəyin törəmələridir.

Məhəmmədsadıq bəyin oğlu Həsənalı bəy 1828-ci ildə Şuşada dünyaya gəlir. Molla yanında və mədrəsə təhsili aldıqdan sonra Şuşa qəza məktəbində rus dilini öyrənir. Əvvəlcə Qəza idarəsində kargüzar, kənd mirzəsi, sonra pristav olmuşdur. Daha sonra kollej qeydiyyatçısı çinini daşıyır. O, Hacı Əhməd bəyin qızı Hüsnücahan xanım Mamayeva ilə ailə qurur. Abbas bəy, Həmid bəy, Salah bəy və Zenalabdin bəy adlı oğlanları dünyaya gəlir.

Həsənalı bəyin nəvəsi Nəsimi bəy Sadıqbəyov mənimlə söhbətində bildirdi ki, babası Həmid bəyin babaları – Şuşanın Köçərli məhəlləsini, anası Hüsnücahan xanım Mamayevanın babaları isə Mamay məhəlləsini bina etmişlər. Belə ki, Mamayevlərin ulu babası Mamay bəy tarixən Gürcüstanın Dəmirçihəsənli nahiyəsində yaşayıb, orada heyvandarlıqla, əkinçiliklə məşğul olublar.

Qarabağ xanı Pənahəli xan Cavanşir Mamay bəyin oğlu Abdulla bəy Mamayı Qarabağa dəvət edir. O da xanın dəvətini qəbul edərək ailəsini götürüb Qarabağa köçür və Şuşanın mərkəzinə yaxın yerdə Mamayı məhəlləsini bina edir. Məhəllədə erməni vandalizmindən xilas olub qalan az sayda tarixi miraslar Mamayilərin adını daşıyır.

Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağ da təhsil tariximizin ən mühüm mərhələlərindən biridir. Hətta təhsilin inkişafı elə səviyyəyə gəlmişdi ki, qarabağlı maarifçilər Azərbaycanın əksər bölgələrində məktəb açmaqla məşğul olurdular. Gözünü açandan, ağlı kəsəndən məktəbə, mədrəsəyə, oradan da dünyəvi təhsil almaq üçün Rusiyaya, Peterburqa, İrana, İstanbula, Orta Asiyaya gedən şuşalı nəsillərdən biri də Sadıqbəyovlar və Mamayevlər idi.

Mamayı şəcərəsi hər nəsildə bir az da böyüyürdü. Özünü yetişdirib sosial həyatda irəliləyən Əhməd bəy, İbrahimxəlil qızı Fatı xanımla evlənir. Onların Məhəmməd bəy, Yusif bəy adlı oğlanları, Hüsnücahan, Tükəzban, Səltənət və Əzizə xanım adlı qızları dünyaya gəlir. Babasının adını daşıyan Məhəmmədi ailədə Məmo deyə çağırırlar. Şair təbli bu gənc yaşa dolduqca işıqlı dünyagörüşə sahib olur, yaradıcılıqla məşğul olur, Məmo təxəllüsü ilə şeirlər yazır, Xurşidbanu Natəvanın yaratdığı "Məclisi-üns" şairlər birliyinin üzvü olur. O, Rusiya, Orta Asiya, Türkiyə və İranı gəzmiş, eşidib gördüklərini qələmə alıb, "Səyahətnamə" əsərini yazmışdır.

Məmo bəy 1918-ci ildə Qarabağda baş vermiş erməni-müsəlman qırğınlarından öz şeirlərində belə bəhs etmişdi:

Rumdan Qafqaza üz qoydu axır daşnaqiyun,
Düşdü ortalığa aşübü bəla, fitnə cünun.
Bu qədər qanlara bais onlar oldu əknun,
O axan qan, o gedən canlara əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun.

Tədqiqatlarda Mamo bəy Mamaynin həm də gözəl xəttat olduğu bildirilir. Onun 1847-ci ildə Şuşada tərtib etdiyi cüng – məcmuə indi də Əlyazmalar İnstitutunda saxlanılır. Cüngə Qarabağ şairlərindən Fatma xanım Kəminə, Əbdüssəməd bəy Aşiq, Məhəmmədəli bəy Məxfi, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab və başqalarının şeirləri daxildir.

Mamo bəy Əsəd bəy Haqverdiyevin qızı Xeyrənsə xanımla evlənir, yəni Haqverdiyevlərlə qohum olur. Onların Əhməd bəy, Fərman bəy, Hüseyn bəy, Xosrov bəy adlı oğlanları, Tükəzban (tədqiqatlara görə Tükəzban xanım Mamo bəyin birinci yoldaşından olan qızıdır) və Fatma adlı qızları olur.

1894-cü ildə Şuşada dünyaya gələn Mamo bəyin oğlu Hüseyn bəy əvvəlcə Şuşa Realnı Məktəbdə təhsil alır, sonra İrəvan gimnaziyasını bitirir və Moskvada ali təhsil alır. Ömrünün sonunadək Azərbaycanda çalışmış, kənd təsərrüfatı elmləri namizədi olmuşdur.

Böyük ədibimiz Əbdürrəhim bəy Haqverdiyev övladı olmadığına görə dayısı oğlu Hüseyn bəyi övladı kimi saxlayıb böyüdür, ona təhsil verir. Hüseyn bəy uşaqlıqdan həvəskar aktyor idi, Əbdürrəhim bəyin əsərlərinin ilk tamaşalarında oynamışdır. Maarifçi və xeyirxah insan olan Hüseyn bəy Qarabağdan gəlib Bakıda və başqa yerlərdə oxuyan tələbələrə əl tutmuş, maddi yardım etmişdir.

Hacı Əhməd bəyin qızı Hüsnücahan xanım Şuşanın Mamayı məhəlləsində anadan olmuşdu. O, əvvəlcə Əsəd bəy Haqverdiyevlə ailə həyatı qurur. Bu nikahdan 1870-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyev dünyaya gəlir. O, 3 yaşındaykən atası Əsəd bəy vəfat edir və bir neçə ildən sonra anası Hüsnücahan xanım ikinci dəfə Şuşanın görkəmli bəylərindən olan Həsənalı bəy Sadıqbəyovla ailə qurur.

Bu nikahdan isə Abbas bəy, Həmid bəy, Salah bəy, Zeynalabdin bəy adlı oğlanları və qızı Nabat xanım dünyaya gəlir. Onlar Əbdürrəhim bəyin anabir, ata ayrı qardaşları və bacısı idilər. Həsənalı bəy Əbdürrəhim bəyi öz övladlarından ayırmır, əksinə, onun dünyəvi təhsil alması, inkişaf etməsi üçün əlindən gələni edir.

Əbdürrəhim bəy – əsilzadəlik zirvəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2020-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, nasir, publisist Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi dövlət səviyyəsində qeyd olundu. Bu humanist addımı Azərbaycan ədəbiyyatına, həmçinin şəcərələrinə verilmiş yüksək dəyər kimi qiymətləndirən Sadıqbəyovlar – Mamayevlər ailəsinin üzvləri dövlət başçısına minnətdarlıq ediblər.

Əbdürrəhim bəy Haqverdiyevin qardaşı Zeynalabdin bəyin oğlanları – sonradan ana babalarının övladlığa götürdüyü və soyadını verdiyi Teymur və Saleh Novruz oğlu Hacıyevlər yüksək ədəbərkanı, xalqına, dilinə, mədəniyyətinə böyük təəssübkeşliyi və xidmətləri ilə əmisi Əbdürrəhim bəy Haqverdiyevə çox bənzəyiblər.

Bolşevizmin zülmündən qorunmaq məqsədilə Şuşadan Ağdama köçən ailəni qorumaq üçün yuxarıda qeyd etdiyimiz kimi, Novruz bəy Teymuru və Salehi övladlığa götürmüş, soyadını vermişdir. Çox əzabəziyyətlə böyüyüb-başa çatan Teymur bəy Azərbaycan Sənaye Universitetinə (indiki ADNA) daxil olmuş, oranı fərqlənmə diplomu ilə bitirmiş, energetik ixtisasına yiyələnmişdir. 50 il Azərbaycan Dövlət Neft Akademiyasında üç nəslə dərs demiş, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki kimi aktiv fəaliyyət göstərib. Onun bir neçə layihəsi akademiyada tətbiq olunub. Teymur bəy 2012-ci ildə 86 yaşında Bakıda dünyasını dəyişmişdir.

Teymur bəyin qardaşı Saleh bəy 1921-ci ildə Şuşada zadəgan ailəsində anadan olub. Orta təhsilini Ağdamda bitirib. 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin (indi BDU) kimya fakültəsinə daxil olub. 1942-ci ildə Ali məktəbin üçüncü kursunda oxuyarkən müharibəyə aparılıb. 3 il 2 aylıq əsgərlik müddətində Qafqazdan Şərqi Prussiyaya qədər döyüş yolu keçib. Müharibədən sonra universiteti qırmızı diplomla bitirib, sonra Xarici Dillər İnstitutuna daxil olaraq alman dili üzrə ali təhsil alıb. Aspirantura təhsilini isə yenidən kimya sahəsində alıb. Namizədlik elmi işində müdafiə etdiyi mövzu bir müddət sonra Elmlər Akademiyası tərəfindən ləğv edilib. Bundan sonra Saleh bəy elmdən uzaqlaşaraq, Neft daşlarında çalışıb. 3 il sonra yenidən fizika elmi sahəsinə qayıdıb. Fizika üzrə həm namizədlik, həm də doktorluq işini Moskva Dövlət Universitetində müdafiə edib.

Saleh bəy 20 il Sibirdə yaşayıb və işləyib. 1988-ci ildə Qarabağ hadisələri başlayanda təqaüdə çıxaraq, özünü bütünlüklə elmə və yaradıcılığa həsr edib. O, Kemerovo Universitetinin professoru və kafedra müdiri işləmiş, Almaniyanın Heydelberq Universitetində mühazirələr oxumuş, elmi əsərləri ABŞ-ın tanınmış jurnallarında çap olunmuşdur. "Ermənilik" və "Dünyanın taleyi" (8 cildlik) kitablarının müəllifidir.

Saleh bəy Qarabağlı Azərbaycanda yeganə şəxs idi ki, "Dünyanın taleyi" kitabına Roma papası rəy vermiş, ön söz yazmışdır. "Ermənilik" kitabı hazırda Vatikan kitabxanasının fondundadır. Bəzi mənbələrə görə, Saleh bəyin kitabları Oksford Universitetində dərslik kimi istifadə olunur.

Həsənalı bəy Sadıqbəyovun Hüsnücahan xanımla evliliyindən olan oğullarından biri Salah bəy Sadıqbəyov elmli, təhsilli, geniş dünyagörüşlü olmuş, Rusiyada və başqa ölkələrdə ali təhsil almışdır. 1881-ci ildə dünyaya gələn Salah bəy ibtidai təhsilini mollaxanada alsa da, sonra Şuşa Realnı Məktəbində davam etdirir. Salah bəy teatr, incəsənət pərəstişkarı idi. Anabir qardaşı Əbdürrəhim bəy Haqverdiyevlə bir çox tamaşaları səhnələşdirib, özləri də tamaşalarda çıxış etmişlər.

Əbdürrəhim bəy 1910-cı ildə Bakıya gələndə artıq onun teatr təcrübəsi var idi. Ona görə özünün təşəbbüsü ilə Bakıda "Müsəlman dram artistləri dəstəsi" yaradır. Bu dəstəyə Cahangir Zeynalov, Murad Muradov, Salah bəy Sadıqbəyov, Əbülfət Vəli, Məhəmməd bəy Əlvəndi, Səməd Mənsur, Mehdi bəy Hacınski kimi ziyalılar daxil olur. Görkəmli dramaturq Nəcəf bəy Vəzirov bu teatr dəstəsi ilə tanış olur, yaradıcılıq əlaqələri saxlayır, əsərlərini tamaşaya qoyurdu.

Səidə xanım, Tükəzban xanım, Xəqani bəy, mərhum Rizvanə xanım, Vaqif bəy, Əbdürrəhim bəy, Almaniyada yaşayan Nəsimi bəy Sadıqbəyovlar Əbdürrəhim bəy Haqverdiyevin anası Hüsnücahan xanımın Həsənalı bəy Sadıqbəyovdan olan övladlarından Həmid bəyin nəvələridir. Əbdürrəhim bəyin oğlu, ulu babasının adını daşıyan Həmid Sadıqbəyov hazırda Almaniyada ali təhsil alır. Ümumiyyətlə, Həsənalı bəyin nəticə və kötükcələri Amerika və Avropanın müxtəlif ölkələrində yaşayır və təhsil alırlar.

Vaxtilə Bakı şəhər 99 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Rizvanə Sadıqbəyova sağlığında ailə şəcərəsinin araşdırılması və təbliğ olunması üçün xeyli axtarışlar etmiş, mətbuatla əlaqə saxlamış, etnoqraflarla görüşmüş, ara-sıra öz yazılarını da dərc etdirmişdir.

Rizvanə xanımın 22 dekabr 2015-ci ildə mətbuatda dərc olunan məqaləsindən: "...Salah Sadıqbəyov Şuşada bəylərdən biri ilə dalaşır və onu öldürür. Buna görə Sibirə sürgün olunur. Qardaşı Abbas Salahı tək buraxmır və onunla Sibirə gedir. Əbdürrəhim bəyin məsləhətilə Abbas bəy çarın anasına ərizə ilə müraciət edir. Bundan sonra qardaşların sürgün cəzası müharibədə iştirakla əvəzlənir (böyük ehtimal ki, Birinci Dünya müharibəsi qeyd olunur).

Abbas bəy müharibədə göstərdiyi igidliyə görə çarın mükafatına layiq görülür, Peterburqa, saraya dəvət olunur. Saraydakı ziyafətdə çarın əmisi qızı Donya Abbas bəyə vurulur və onlar evlənir, bir neçə ildən sonra Şuşaya gəlirlər. Bəzi qaynaqlarda deyilir ki, Donyanın cehizini Yevlaxdan Şuşaya 50-yə qədər fayton daşıyır. Hüsnücahan xanım rus gəlini qəbul etsə də, adını dəyişdirib Dünya qoyur və ona islamı qəbul etdirir.

Təəssüf ki, bu evlilikdən onların övladı olmur və ailə həyatları faciəli şəkildə sonlanır. 1921-ci ildə ermənilər qəflətən Muğanlı kəndinə soxulub camaata divan tutanda, Dünya xanım da öldürülür. Azərbaycan Xalq Cümhuriyyətinin təəssübkeşi kimi və hərb sənətinə bələd olduğu üçün Məhəmməd Əmin Rəsulzadə, Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski ilə dostluq və əməkdaşlıq edən Abbas bəy 1921-ci ildə Gəncə iğtişaşlarında öldürülüb və qəbri Gəncədədir.

Rizvanə xanım Əbdürrəhim bəy Haqverdiyevin də ailə qurmasından belə bəhs etmişdir: "Həsənalı bəy qızını qaynı oğlu Mamo bəy Mamoyevə ərə verir. Qadın dünyasını dəyişmiş, ondan Tükəzban adında bir qızı – Əbdürrəhim bəyin dayısı qızı qalmışdı. Hüsnücahan xanım qardaşının birinci yoldaşından olan qızı Tükəzbanı oğlu Əbdürrəhim bəylə evləndirir. Bu izdivacdan onların övladı olmur, ikinci dəfə ailə qursa da, yenə də övladı olmur. Atam Zülfüqar bəy Əbdürrəhim bəy əmisinə hörmət əlaməti olaraq, oğluna – qardaşıma Əbdürrəhim bəyin, qızına – bacıma isə yoldaşı Tükəzban xanımın adını vermişdir".

XIX əsrin 70-ci illərində – Əbdürrəhim bəy lap körpə ikən atası Əsəd bəy yaxın qohumu Həsənalı bəylə Şuşa qəzasının Muğanlı kəndində (Ağdam rayonunun Muğanlı kəndi) su dəyirmanı tikdirirlər. Qarqarçayın bir qolu Muğanlı kəndinin ortasından keçir, kəndi iki yerə ayırırdı. Kənd camaatı onu Xatın arxı adlandırırdı. Həsənalı bəy və Əsəd bəy Xatınarxın qolları üstündə, kəndin yuxarı başında və insanların rahat gəlib-gedə biləcəyi daha iki yerdə 3 su dəyirmanı tikdirirlər.

Əsəd bəy dəyirmanın birini yeni doğulmuş oğlu Əbdürrəhim bəyin adına tikdirir. O vaxtdan ta XX əsrin ortalarına qədər həmin yer Əsəd bəyin dəyirmanı adlanırmış, həm də bir coğrafi göstərici olmuşdur. Muğanlı, Şıxbabalı, Qaradağlı, Qasımlı və digər kəndlərin əhalisi artıq uzaq yollar qət etmədən arpasını, buğdasını burada üyüdür, bəylərin xeyirxahlıqlarına görə onlara dua edir, adlarını hörmətlə çəkirdilər. Dəyirmanlar ötən əsrin 70-ci illərinə qədər fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin devrildiyi, Şura hökumətinin yarandığı, yəni bolşevizmin işğalından sonra bütün varidatı əlindən alınmış Sadıqbəyovlar – Mamayevlər Şuşanı tərk edib Muğanlıda məskunlaşır. Həmid bəyin 2 oğlu – Həsənalı bəy və Zülfüqar bəy, qızı Rəna xanım Muğanlıda böyüyürlər.

Qeyd edildiyi kimi, var-yoxu işğal edilmiş Sadıqbəyovların Muğanlıdakı dəyirmanlarına da əl qoyulur. Vəziyyəti görən Əbdürrəhim bəy Haqverdiyev Ağdama gedir, rayon rəhbərindən, dəyirmanın işlədilməsini onlara verməyi xahiş edir və sözü yerə salınmır. Bundan sonra dəyirmanların idarəçiliyi varislərə qaytarılır. Yoxsullaşmalarına baxmayaraq, kəndlilər bu nəcib ailənin üzvlərinə rəğbətlə yanaşırdı.

Həmid bəyin yoldaşı müasir dünyagörüşlü olmuş Nənəş xanımın kəndlilərə, xüsusilə qadınlara qarşı mərhəməti, onlara yardım etməsi hələ də el ağzında danışılır, hörmətlə yad olunur. Dəfələrlə kənd camaatı çox hörmət etdiyi bəy ailəsini öz evində gizlədərək bolşevizmin hücumlarından qorumuşlar.

Ağdamın işğalına qədər Xatınarx gur suları ilə axır, dəyirmanlar fəaliyyət göstərməsə də bir şəcərənin mirası, xalqın maddi-mədəniyyət abidəsi kimi qorunurdu. Lakin 30 illik işğal zamanında bu irs ermənilər tərəfindən dağıdılıb, arxın dərin yatağı torpaqla doldurulub. İşğaldan sonra ata-babalarının yadigarı olan yerləri görməyə gedən Nəsimi bəy, Xəqani bəy, Tükəzban xanım və şəcərənin digər üzvləri mətbuata və televiziyaya dağıdılmış yurdlarından, dəyirmanlarından, bulaqlarından ürək ağrısı ilə bəhs etmişlər.

Ömrünün ixtiyar çağını Gəncədə yaşayan Həsənalı bəyin qızı Səidə xanım Sadıqbəyova babalarından qürurla danışsa da, erməni vandallarının ata yurdunda törətdikləri vəhşiliklərindən ürək ağrısı ilə danışdı: "Şuşanın Köçərli və Mamayi məhəllələrindəki mülkləri XX əsrin 20-ci illərində Şura hökuməti tərəfindən ata-babalarımın əlindən alındıqdan sonra uzun illər kombinat, pedaqoji texnikum və digər ictimai bina kimi istifadə olunub. Lakin işğal dövründə ermənilər tərəfindən çoxu dağıdılıb".

Əbdürrəhim bəyin qardaşı nəvəsi, 20 ildən çoxdur Almaniyada yaşayan və 2022-ci ilin avqustunda Diasporla İş üzrə Dövlət Komitəsinin xətti ilə Şuşada ata-baba yurdu Köçərli və Mamayı məhəlləsində sönmüş, lakin qığılcam saçan yurdunu ziyarət etmiş Nəsimi Sadıqbəyov "Vətən uzaqda deyil" verilişinə müsahibəsində bu mövzulardan bəhs etmişdir.

Birinci Qarabağ müharibəsi veteranı, uzun illər polis orqanlarında xidmət etmiş, ehtiyatda olan polis zabiti Xaqani Sadıqbəyov yaşlı nəslin nümayəndələrinin ata-babaları haqqında hörmətlə danışdıqlarından qürurla bəhs etdi. Dedi ki, bütün həyatım və əmək fəaliyyətim boyu mənsub olduğum zati-ailəyə layiq yaşamağa və işləməyə çalışmışam.

Söhbətimizin sonunda ailə üzvləri bir arzularını da dilə gətirdilər: "Şuşanın Köçərli, yaxud Mamayı məhəlləsində çox da böyük olmayan bir ərazidə zamanında hər iki məhəlləni bina etmiş babalarımızın əziz xatirəsinə muzey yaradılsın və orada şəcərəmizə mənsub irs toplansın".

Bu arzunun gerçəkləşməsi Azərbaycan xalqına Əbdürrəhim bəy Haqverdiyev kimi çox dəyərli bir oğul bəxş etmiş, Şuşanın mədəni həyatında və ölkəmizin sivil inkişafında önəmli rol oynamış bu nəslin timsalında tarixi keçmişimizin daha bir öyünclü səhifəsinin örnək olaraq qorunub yaşadılması olardı.

Əminə YUSİFQIZI,
Əməkdar jurnalist

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 24 (30993) 7 fevral 2026-cı il, şənbə

Süni intellekt "Rafaelin sirri"ni necə açdı?

Böyük Britaniyanın Bredford Universitetinin tədqiqatçıları Renessans rəssamı Rafaelə aid edilən "Madonna della Roza" ("Qızılgüllü Madonna") tablosunu təhlil etmək üçün süni intellekt və maşın öyrənməsi texnologiyalarından istifadə ediblər. Aparılan analizlər nəticəsində məlum olub ki, əsərdə təsvir olunan dörd simadan biri böyük ustadın fırçasından çıxmayıb.

Araşdırma informatika üzrə mütəxəssis Həsən Uqailin hazırladığı dərin transfer öyrənmə modeli əsasında aparılıb. Bu model Rafaelin orijinal tabloları üzərində təlim keçərək rəssama xas üslub xüsusiyyətlərini – işıq və kölgə balansını (chiaroscuro), fırça zərbələrinin strukturunu, kompozisiya detalları və digər texniki nüansları tanımaq qabiliyyəti qazanıb.

"Madonna della Roza" əsəri üzərində aparılan testlər zamanı alqoritm 98 faiz dəqiqlik nümayiş etdirib. Təhlil Madonnanın, körpə İsanın və körpə vəftizçi İohannın simalarının həqiqətən Rafael tərəfindən çəkildiyini təsdiqləyib. Lakin tablonun sol hissəsində, kölgədə qalan müqəddəs İosif fiquru süni intellekt tərəfindən başqa bir rəssamın işi kimi müəyyən edilib.

Maraqlıdır ki, sənətşünaslar hələ XIX əsrdə bu fiqurun müəllifliyi ilə bağlı şübhələr irəli sürmüşdülər. Ehtimal olunan müəlliflər sırasında Rafaelin şagirdləri Culio Romano və Canfrançesko Penninin adları çəkilirdi. Lakin bu hipotezlərin elmi əsaslarla təsdiqi yalnız müasir süni intellekt texnologiyalarının tətbiqi ilə mümkün olub.

Tədqiqatın nəticələri "Heritage Science" elmi jurnalında dərc edilib. Həsən Uqailin sözlərinə görə, bu yanaşma gələcəkdə digər rəssamların əsərlərinin təhlilində də istifadə oluna və sənət əsərlərinin müəllifliyinin müəyyənləşdirilməsi üçün ənənəvi sənətşünaslıq metodlarını tamamlayan effektiv alətə çevrilə bilər.

Süni intellektin incəsənətdə tətbiqi bununla məhdudlaşmır. Son illərdə alqoritmlər Pablo Pikassonun "Korun yeməyi" ("The Blindman's Meal") əsərinin altında gizlədilmiş çılpaq qadın portretini aşkar edib. Rəqəmsal analiz texnologiyaları rəssamın fırça izlərini bərpa edərək gözlə görünməyən təsviri rəngli şəkildə yenidən canlandırmağa imkan verib.

Digər maraqlı nümunə "The Next Rembrandt" layihəsidir. Bu layihə çərçivəsində süni intellekt Rembrandın 300-dən çox əsərini analiz edərək onun üslubunda tamamilə yeni və orijinal bir portret yaradıb. Bu təcrübə süni intellektin təkcə mövcud sənət əsərlərini təhlil etmək deyil, həm də klassik üslubu yüksək dəqiqliklə təqlid etmək imkanlarını nümayiş etdirib.

Eyni zamanda, alimlər süni intellekt vasitəsilə Vinsent van Qoqun orijinal və saxta əsərlərini ayırd etməyi də bacarıblar. Alqoritmlər rəssamın fırça vuruşlarının ritmini, boya qatlarının qalınlığını və teksturasını elə dəqiqliklə ölçür ki, bu fərqləri insan gözü ilə müəyyən etmək demək olar ki, mümkün deyil.

Bu nümunələr göstərir ki, süni intellekt texnologiyaları incəsənət tarixinin araşdırılmasında yeni mərhələnin əsasını qoyur və əsrlərdir davam edən müəlliflik mübahisələrinə elmi əsaslı cavablar vermək potensialına malikdir.

Səbuhi MƏMMƏDOV
XQ

Azərbaycanlı musiqiçinin Paris uğuru

Fransa paytaxtının nüfuzlu "Cortot" zalında "Concerts de Midi et Demi" silsiləsi çərçivəsində keçirilən konsert aylarla davam edən beynəlxalq musiqi layihəsinin uğurlu yekunu kimi yadda qalıb. Proqramda azərbaycanlı gənc fleytaçı Ağarəhim Quliyev də iştirak edib.

Soydaşımız "École Normale de Musique de Paris" musiqi məktəbini "Artist diploma" dərəcəsi ilə bitirib. Hazırda solist kimi çıxış edir, AVEY musiqi qrupuna rəhbərlik edir və klassik musiqi sahəsində fəaliyyət göstərən "AGRecords" prodakşının təsisçisidir.

Azərbaycanlı fleytaçının da iştirak etdiyi layihə görkəmli italyan bəstəkarı Covanni Battista Pergolezinin "Stabat mater" əsərinin ifası ətrafında qurulub. Konsert proqramına İohan Sebastyan Baxın violonçel sonatası da daxil edilib ki, bu da axşama dərinlik və bədii bütövlük qatıb.

Konsertin aparıcısı və proqramın kuratoru Stefan Frederik layihənin koordinasiyasına və təqdimatına rəhbərlik edib. Olha Krepsin dəvəti ilə formalaşan ansambl yüksək peşəkarlığı ilə seçilib. İfaçılar Avropanın aparıcı musiqi təhsil ocaqlarından olan "École Normale de Musique de Paris Alfred Cortot"un məzunları və hazırkı tələbələridir. Bu layihənin akademik və peşəkar səviyyəsini bir daha təsdiqləyir.

Layihə ukraynalı mezzo-soprano Olha Krepsin təşəbbüsü və bədii rəhbərliyi ilə bir ildən artıq müddətdə formalaşaraq, peşəkar musiqiçilərin cəlb olunmasını, intensiv məşqləri və yüksəksəviyyəli təşkilati prosesi əhatə edib.

XQ

İDMAN

Milli Olimpiya Komitəsi ermənilərlə bağlı BOK-a etiraz etdi

Milli Olimpiya Komitəsi XXV Qış Olimpiya Oyunlarında Ermənistanı təmsil edən fiqurlu konkisürənlər Nikita Raxmanin – Karina Akopova cütlüyünün yarış proqramında siyasi və separatçı məzmun daşıyan "Arsax" adlı musiqidən istifadə etməsini ciddi narahatlıqla qarşılayıb.

Qurum Beynəlxalq Olimpiya Komitəsinə Ermənistan idmançılarının bu addımı ilə bağlı öz etirazını bildirib.

Qeyd edilib ki, Olimpiya Xartiyasının əsas prinsiplərinə əsasən, Olimpiya Oyunlarında hər hansı siyasi, ideoloji və separatçı təbliğata yol verilməməlidir. Beynəlxalq Olimpiya Komitəsinin missiyalarından biri də idmanı siyasətdən kənar saxlamaq, idmançıların və yarışların siyasi məqsədlər üçün istismarına qarşı çıxmaqdır.

Bu cür hallar Olimpiya Oyunlarının ruhuna, idman etikası və beynəlxalq idman prinsiplərinə zərər vurur, Olimpiya Hərəkatının neytrallıq prinsipini pozur, eyni zamanda, regionda sülh və qarşılıqlı etimad mühitinə xələl gətirir.

Milli Olimpiya Komitəsi öz etirazında bir daha bildirib ki, Olimpiya Oyunları sülhün, dostluğun və xalqlar arasında qarşılıqlı hörmətin rəmzlərindən biridir, bu platformadan siyasi və separatçı təbliğat məqsədləri üçün istifadə etmək yolverilməzdir.

XXV Qış Olimpiya Oyunları başladı

Dünən İtaliyanın Milan şəhərində XXV Qış Olimpiya Oyunlarının rəsmi açılış mərasimi keçirilib. Azərbaycan nümayəndə heyətinin parad zamanı tamaşaçılar önündən 92 ölkə arasında 11-ci keçib. Parad ənənəyə uyğun olaraq, Yunanıstanla başlayıb, ev sahibləri italiyalılar isə mərasimin sonunda arenaya daxil olublar.

Bayrağımızı dağ xizəkçisi Anastasiya Papatoma və fiqurlu konkisürən Vladimir Litvintsev daşıyıb. "San Siro" stadionunda təşkil olunan mərasimdən sonra Oyunlar rəsmən açıq elan olunub.

Ölkəmizi təmsil edən Vladimir Litvintsev fevralın 10-da Milan şəhərində fiqurlu konkisürmə üzrə qısa proqramla mübarizəyə start verəcək. Anastasiya Papatoma isə ayın 15-də nəhəng slalom (giant slalom), 3 gün sonra slalom növündə qüvvəsini sınayacaq. Yarışlar İtaliyanın məşhur dağ-xizək mərkəzi olan Kortina d'Ampetsoda keçiriləcək.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunları fevralın 6-dan 26-dək, Paralimpiya Oyunları isə martın 6-dan 15-dək təşkil olunacaq.

Xatırladaq ki, Olimpiya Oyunları fevralın 4-də körlinq yarışları ilə start götürüb.

Milli şahmat üzrə çempionatın açılışı

Şahmat üzrə Azərbaycan çempionatının açılış mərasimi olub.

Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov ölkədə şahmatın kütləviliyinin artırıldığını və gənc istedadların üzə çıxarılması üçün bu cür daxili çempionatların böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan çempionatlarının səviyyəsinin artdığını deyib.

Azərbaycan çempionatının iştirakçıları təqdim olunduqdan sonra püşk atılıb. Bununla da yarış açıq elan olunub.

Qeyd edək ki, Azərbaycan çempionatında 46 şahmatçı iştirak edir. Kişi şahmatçılarda 30, qadınlarda isə 16 iştirakçı mübarizə aparacaq. Yarışın ümumi mükafat fondu 92 min manat təşkil edir. Bu məbləğdən 62 min manat kişilərin, 30 min manat isə qadınların çempionatına aiddir.

Turnirə fevralın 22-də yekun vurulacaq.

Qabil YUSİFOĞLU
XQ

Əlişir Nəvai – 585

Böyük Nizaminin özbək davamçısı

AMEA Rəyasət Heyətində dahi özbək şairi Əlişir Nəvainin anadan olmasının 585 illiyinə həsr olunan "Yaşayan Əlişir Nəvai" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli məclisi giriş sözü ilə açaraq Əlişir Nəvainin özbək ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi ən qüdrətli simalardan biri olduğunu vurğulayıb, onun ümumtürk ədəbiyyatında söz sənətinin zirvəsində dayanan korifeylər sırasında şərəfli yer tutduğunu qeyd edib.

Akademik bildirib ki, müstəqillik illərində Özbəkistanın Azərbaycandakı Səfirliyi və Özbəkistan–Azərbaycan Dostluq Cəmiyyətinin birgə səyləri ilə Əlişir Nəvainin yubileyləri ölkəmizdə təntənə ilə qeyd olunur. Hər il Özbəkistanda keçirilən Əlişir Nəvai Günlərində AMEA təmsilçiləriləri də fəal iştirak edirlər. Əlişir Nəvai irsinə dair əlyazmaların saxlanıldığı ən böyük mərkəz Daşkənddən sonra Azərbaycandır. AMEA-nın Əlyazmalar İnstitutunda dahi şairin onlarla qiymətli əlyazması qorunur və öyrənilir.

AMEA rəhbəri Nizami Gəncəvi yaradıcılığına ən yüksək dəyər verən böyük sənətkarlardan birinin də Əlişir Nəvai olduğunu xatırladıb: "Əlişir Nəvainin fikrincə, Nizami Gəncəvi elə bir sənət zirvəsidir ki, onunla "pəncə-pəncəyə" gəlmək heç kəsin hünəri deyil. Eyni qarşılıqlı hörmət və məhəbbət ənənəsini Məhəmməd Füzuli də Əlişir Nəvainin timsalında özbək xalqına göstərmişdir".

Əlişir Nəvainin yubileyinin I Türkoloji Qurultayın 100 illiyi ərəfəsində keçirilməsinin məclisə xüsusi məna gətirdiyini vurğulayan İsa Həbibbəyli beynəlxalq konfransın işinə uğurlar arzulayıb.

Qeyd edilib ki, Azərbaycan xalqı Əlişir Nəvai yaradıcılığına dərin hörmət bəslədiyi kimi, Özbəkistanda Nizami Gəncəvi və Məhəmməd Füzuli irsinə yüksək ehtiram göstərilir. Əlişir Nəvai ortaq mədəni yaddaşımızın, ümumi mənəvi gücümüzün rəmzlərindən biri olaraq tanınır və sevilir. Dahi şairin irihəcmli "Xəmsə"sini bir neçə il əvvəl mərhum professor Ramiz Əskər Azərbaycan dilinə tərcümə edib.

Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bəhram Aşrafxanov çıxış edərək Azərbaycan–Özbəkistan münasibətlərinin inkişafından danışıb. Azərbaycanın Əlişir Nəvainin ikinci vətəni kimi qəbul edildiyini söyləyən səfir Bakı şəhərində Nəvainin heykəlinin ucaldılmasını qardaş ölkənin özbək şairinin xatirəsinə ehtiramının ifadəsi olduğunu qeyd edib.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, professor Birol Akgün isə çıxışında Əlişir Nəvainin təkcə XV əsrin böyük şairi deyil, həm də Türk dünyasının böyük söz ustadı və mütəfəkkiri olduğunu söyləyib. Qeyd edib ki, Nəvainin irsi türk dilini mədəniyyət, ədəbiyyat və sivilizasiya dəyərlərinin ötürülməsi vasitəsinə çevirir.

Milli Məclisin deputatları Eldar İbrahimov və Günay Əfəndiyeva Əlişir Nəvai yaradıcılığının xalqları birləşdirən güclü mənəvi körpü olduğunu vurğulayıb, konfransı ortaq irsimizə, bəşəri dəyərlərə və qardaş xalqlarımız arasındakı dərin dostluq və həmrəyliyə töhfə kimi dəyərləndiriblər.

Mərasimdə Özbəkistanın "Vətəndaşlar" İctimai Fondunun İdarə Heyətinin sədri Odiljon Səttarov, özbək alimlər – professor Marufjon Yoldaşev, dosent Burabiya Rajabova və yazıçı Risolat Haydarova Nəvainin yaradıcılığı, poemalarının ideya mahiyyəti haqqında məruzə ediblər.

Q.ƏLİYEV
XQ

HAVA

Gecə çiskinli, gündüz küləkli və yağmursuz...

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var.

Cənub-qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 4-6, gündüz 8-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 1-6 dərəcə şaxta, gündüz 4-9 dərəcə isti olacaq.

Q.ƏLİYEV
XQ

✓ 2023-cü il yanvarın 26-da Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən Abbaslı Kənan Rasim oğlunun adına verilmiş DSX seriyalı, 0010179 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Dövlət idarəçiliyinin hüquqi təminatı kafedrasında vakant professor vəzifəsinin tutulması üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə professor vəzifəsinin tutulması üçün bu istiqamət üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər iştirak edə bilərlər. Sənədlər bu elan dərc edilən gündən bir ay müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana və ya sakit.aliyev@dia.edu.az elektron poçtuna təqdim etməlidirlər.

Ünvan- Bakı şəhəri, Lermontov küçəsi 74, 23-cü otaq, telefon-492-76-03.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2892
SİFARİŞ 185
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00